Xalqın qəzeti!
# Xalq qəzeti
№ 119 (30813) 12 iyun 2025-ci il, cümə axşamı
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Müzəffər Azərbaycan Ordusu güclənir, peşəkarlığı yüksəlir

*Ermənistanın reallıqla üst-üstə düşməyən alternativ axtarışları*



**2020-ci ildə Azərbaycanın əldə etdiyi tarixi Qələbə yalnız işğal altındakı torpaqların azad olunması ilə məhdudlaşmadı. Bu Qələbə həm də müasir Azərbaycan Ordusunun gücünü, yüksək döyüş qabiliyyətini və peşəkarlığını nümayiş etdirdi.**

44 günlük Vətən müharibəsi bir daha sübut etdi ki, XXI əsrin müharibələri yalnız say və texnika ilə deyil, həm də düzgün strateji planlama, koordinasiya və texnoloji üstünlüklə qazanılır. Müharibədən sonra Azərbaycanın dövlət və ordu rəhbərliyi bu reallıqlardan çıxış edərək hərbi islahatlara üstünlük verdi.

(ardı 5-ci səhifədə)

# Ottava Bakıya tərəf dönür?

İlk siyasi məsləhətləşmə yeni mərhələnin anonsu sayıla bilər



**İyunun 10-da Bakıda Azərbaycan və Kanada xarici işlər nazirlikləri arasında ilk siyasi məsləhətləşmələr keçirilib. Məlumata görə, məsləhətləşmələrdə Azərbaycan nümayəndə heyətinə Xarici İşlər Nazirliyinin Amerika idarəsinin rəisi Esmira Cəfərova, Kanada nümayəndə heyətinə isə XİN-in Şərqi Avropa və Avrasiya Departamentinin icraçı direktoru Andreas Veyçert rəhbərlik edib.**

Əlbəttə, Azərbaycan və dünyanın müxtəlif ölkələrinin xarici siyasət idarələri arasında mütəmadi olaraq siyasi məsləhətləşmələr keçirilir. Bu siyasi məsləhətləşmələr, əsasən, ikitərəfli münasibətlərin inkişaf etdirilməsi, ticarət, enerji, nəqliyyat, turizm və digər sahələrdə əməkdaşlıq imkanlarının müzakirəsi, regional və beynəlxalq məsələlər üzrə fikir mübadiləsi, beynəlxalq təşkilatlar çərçivəsində mövqelərin uzlaşdırılması, qarşılıqlı səfərlərin planlaşdırılması və diplomatik əlaqələrin möhkəmləndirilməsi məqsədi daşıyır. Kanada ilə belə toplantının keçirilməsi ona görə diqqəti xüsusi cəlb edir ki, bu, ölkəmizin müstəqilliyini əldə etdiyi dövrdən etibarən ilk dəfə baş tutur. Məsləhətləşmələr zamanı iki ölkə arasında siyasi əlaqələrin inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb, davamlı siyasi dialoqun təşviqi məqsədilə qarşılıqlı səfərlər və beynəlxalq tədbirlər çərçivəsində təmasların önəmi vurğulanıb. İkitərəfli münasibətlərdə gərginlik yaradan məqamlardan və addımlardan çəkinilmənin əhəmiyyəti diqqətə çatdırılıb. İqtisadi sahədə əməkdaşlıq kontekstində ikitərəfli ticarət dövriyyəsinin artırılması, habelə enerji, nəqliyyat, yüksək texnologiyalar və digər sahələrdə birgə layihələrin həyata keçirilməsi imkanları müzakirə edilib.

(ardı 4-cü səhifədə)

## Qərbi Azərbaycana Qayıdışa QHT dəstəyi




Səhifə ⇨ 4

## İrəvan Zəngəzurda nəyi "sadələşdirir"?




Səhifə ⇨ 5

## TANAP – Azərbaycandan Türkiyəyə "mavi" körpü




Səhifə ⇨ 8



## Azərbaycan xalqının siyasi identikliyi: azadlıqsevərlik

Səhifə ⇨ 6

## Qlobal iqtisadi rəqabət Şərqə doğru yönəlib



Səhifə ⇨ 11

# Haaqa səhnəsində NATO müzakirələri

**Müasir beynəlxalq münasibətlər sistemində strateji sabitlik və təhlükəsizlik anlayışları ənənəvi çərçivələrindən çıxaraq daha mürəkkəb və çoxşaxəli mahiyyət kəsb etməyə başlayıb. Qlobal güc balansında baş verən dəyişikliklər, yeni təhlükə formalarının meydana çıxması, beynəlxalq hüququn selektiv tətbiqi və beynəlxalq təşkilatların effektivliyinə dair artan suallar mövcud sistemin dayanıqlılığına ciddi təhdidlər yaradır.**

Bu kontekstdə Şimali Atlantika Müqaviləsi Təşkilatının (NATO) qarşıdan gələn Haaqa sammiti dünya nizamının gələcək konturlarını müəyyənləşdirəcək geosiyasi dialoqun platformasına çevrilir. Bəs bu yeni geosiyasi reallıqlar fonunda bizi hansı suallar düşündürməlidir? Əgər NATO ideoloji monolitliyini itirirsə, gələcəyin təhlükəsizlik arxitekturası kimlərin üzərində qurulacaq? Haaqa sammiti Qərb birliyinin taleyini müəyyən edəcək son fürsət ola bilərmi?

Son illər NATO daxilində müşahidə olunan daxili ziddiyyətlər, üzv dövlətlər arasında siyasi iradənin zəifləməsi, fərqli təhlükəsizlik prioritetləri və strateji yanaşmalar alyansın "vahid və bölünməz" xarakterini sarsıtmaqda davam edir. ABŞ-ın qlobal liderlik mövqeyindəki qeyri-müəyyənliklər, Avropa İttifaqı (Aİ) ölkələrinin təhlükəsizlik məsələlərinə münasibətdə daha fərdi və bəzən ziddiyyətli mövqe sərgiləmələri, həmçinin Rusiya və



Çin kimi aktorların artan təsir dairəsi NATO-nun gələcək funksionallığını və transatlantik həmrəyliyini sual altına alır.

(ardı 6-cı səhifədə)

## Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 iyul tarixli 536 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 iyul tarixli 536 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 473 (Cild I) ilə təsdiq edilmiş "Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası haqqında Əsasnamə"nin 4.9-cu bəndinin birinci abzasında "8" rəqəmi "15" rəqəmləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 iyun 2025-ci il**

## Xaçmaz rayonunun Gəndob–Xaçmaz–Yalama–Rusiya Federasiyası ilə dövlət sərhədi (28 km)–Köhnə Xaçmaz–Xaspoladoba–Gəncəli–Bəbəli–Əzizli–Əhmədoba–Müşviq–Müşkür–Hacıqazma–Hacıəhmədoba–Şərifoba–Qaracəlli–Xəzərli avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** On iki min nəfər əhalinin yaşadığı 13 yaşayış məntəqəsini birləşdirən Gəndob–Xaçmaz–Yalama–Rusiya Federasiyası ilə dövlət sərhədi (28 km)–Köhnə Xaçmaz–Xaspoladoba–Gəncəli–Bəbəli–Əzizli–Əhmədoba–Müşviq–Müşkür–Hacıqazma–Hacıəhmədoba–Şərifoba–Qaracəlli–Xəzərli avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,5 milyon (bir milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 iyun 2025-ci il**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri, əziz Qardaşım!**

Ölkənizin milli bayramı – 28 May - Müstəqillik Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyur, dost Azərbaycan xalqına daha da çox tərəqqi və rifah diləyirəm.

Mən, həmçinin ölkələrimiz arasında mövcud olan əməkdaşlıq münasibətlərinin dost xalqlarımızın mənafeləri naminə möhkəmlənməsi və inkişafı istiqamətində səyləri davam etdirmək niyyətimizi bir daha bildirirəm.

Zati-aliləri, əziz Qardaşım, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edəsiniz.

**Qardaşınız,**

***Məhəmməd uld Şeyx əl-QAZUANİ,***
***Mavritaniya İslam Respublikasının Prezidenti***

# Baş prokuror Keniya konfransında




**Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Keniyada işgüzar səfərdədir.**

İyunun 10-da Mombasa şəhərində Millətlər Birliyinə üzv ölkələrin baş prokurorlarının 23-cü Konfransı başlayıb. Açılış mərasimində Keniya və Avstraliya dövlət prokurorluqlarının rəhbərləri çıxış edərək Azərbaycan prokurorluğunun nümayəndə heyətinin xüsusi qonaq qismində iştirakını yüksək qiymətləndirib, ölkəmizin beynəlxalq hüquqi əməkdaşlıq sahəsindəki fəal rolunu vurğulayıblar.

Daha sonra Baş prokuror Kamran Əliyev cinayət təqibinə qədər terrorçuluğun qarşısının erkən alınması üzrə milli yanaşmalara həsr olunmuş əsas sessiyaya sədrlik edib. İclasda radikallaşmanın qarşısının alınması və terrorçuluğun yaranma səbəblərinə erkən müdaxilə mexanizmlərinin tətbiqi məsələləri müzakirə olunub.

Kamran Əliyev Azərbaycanın terrorçuluq, terrorçuluğun maliyyələşdirilməsi və transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində beynəlxalq əməkdaşlığa daim xüsusi önəm verdiyi vurğulayıb, bu istiqamətdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən ardıcıl tədbirlər barədə məlumat verib.

Konfrans çərçivəsində Baş prokuror Birləşmiş Krallıq, Avstraliya, Uqanda, Tanzaniya, Zimbabve, Seyşel Adaları və digər ölkələrin baş prokurorları ilə ikitərəfli görüşlər keçirərək cinayətkarlıqla mübarizədə təcrübə mübadiləsi, hüquqi əməkdaşlığın və müqavilə-hüquq bazasının genişləndirilməsi imkanları barədə müzakirələr aparıb. Kamran Əliyev Keniyanın yerli media nümayəndələrinə müsahibə verib.

Nümayəndə heyətinin Keniyaya işgüzar səfəri başa çatıb.

*XQ*

# Azərbaycanın Baş naziri Özbəkistanda





**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dünən Daşkənddə Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripovla görüşüb.**

Söhbət zamanı iki ölkə arasında əlaqələrin müxtəlif sahələrdə dinamik inkişaf etdiyi məmnunluqla vurğulanıb. Azərbaycan və Özbəkistan prezidentlərinin qarşılıqlı dövlət səfərləri zamanı ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı yeni istiqamətlərin müəyyən edildiyi bildirilib. Dövlət başçıları tərəfindən verilən tapşırıqların icrasının təmin olunması üçün hökumətlər xətti ilə sıx işbirliyinin davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

Cari ilin Azərbaycan–Özbəkistan diplomatik münasibətlərinin qurulmasının 30-cu ildönümü ilə əlamətdar olduğu diqqətə çatdırılıb. Ötən dövr ərzində dövlətlərarası münasibətlərin ardıcıl şəkildə hərtərəfli inkişaf etdiyi məmnunluqla qeyd olunub. Ali səviyyədə qarşılıqlı səfərlər və görüşlər, bu səfərlər zamanı imzalanmış ikitərəfli sənədlər bu uğuru təmin edən əsas amil kimi dəyərləndirilib.

Son 3 ildə ali səviyyədə 10 qarşılıqlı səfər keçirildiyi – prezidentlər İlham Əliyevin və Şavkat Mirziyoyevin hər birinin 5 səfər etdiyi məmnunluqla xatırlanıb. Diqqətə çatdırılıb ki, dövlət başçılarının ardıcıl birgə səylərinin məntiqi nəticəsi olaraq 2024-cü ildə Müttəfiqlik Münasibətləri haqqında tarixi müqavilə imzalanıb. Eyni zamanda, Özbəkistan Prezidentinin yaxın zamanlarda ölkəmizə növbəti dəfə səfər edəcəyi vurğulanıb. Azərbaycanın və Özbəkistanın regional, beynəlxalq təşkilatlar çərçivəsində uğurlu birgə fəaliyyətinə toxunularaq, qarşılıqlı dəstəkdən məmnunluq ifadə olunub. Türk Dövlətləri Təşkilatı çərçivəsində səmərəli əməkdaşlıq xüsusi qeyd edilib.

İqtisadi-ticari əlaqələrin inkişaf dinamikası yüksək qiymətləndirilib. Bildirilib ki, 2024-cü ildə qarşılıqlı ticarət 41 faiz artıb. Ötən ilin eyni dövrü ili müqayisədə cari ilin birinci rübündə ticarət dövriyyəsi üç dəfəyə yaxın çox olub.

İyunda Azərbaycanda Birgə hökumətlərarası komissiyanın 14-cü iclasının keçiriləcəyi diqqətə çatdırılıb. İqtisadi-ticari və investisiya əməkdaşlığının genişləndirilməsinə dair 2024-2025-ci illər üçün Yol xəritəsinin icrasının uğurla davam etdirildiyi vurğulanıb.

Sevindirici haldır ki, birgə layihələrlə bağlı əldə edilmiş razılaşmaların praktiki icrası təmin olunur. Azərbaycan-Özbəkistan İnvestisiya Fondunun xətti ilə hazırda 10-dan çox perspektivli layihənin nəzərdən keçirildiyi diqqətə çatdırılıb. Bu layihələr təhsil, tikinti materiallarının istehsalı, toxuculuq sənayesi, logistika, yüngül və yeyinti sənayesi sahələrini əhatə edir.

Sənaye kooperasiyasında səmərəli qarşılıqlı fəaliyyətin nəticələri təqdir edilərək bu istiqamətdə əməkdaşlığın genişləndirilməsi planlarına dair fikir mübadiləsi aparılıb. Bərpaolunan enerji sahəsində qarşılıqlı faydalı əməkdaşlığın qurulduğu bildirilərək, Azərbaycanın Özbəkistan və Qazaxıstanla birgə Avropaya yaşıl enerji təchizatı marşrutunun yaradılmasını hədəfləndiyi məmnunluqla qeyd edilib.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan bərpa-quruculuq işləri barədə bəhs olunub. Füzulidə Mirzə Uluqbəy adına tam orta məktəbin inşasına görə Özbəkistan tərəfinə minnətdarlıq bildirilib. Azərbaycan və Özbəkistan prezidentlərinin iştirakı ilə Xankəndi şəhərində tikiş fabrikinin açılışının önəmi qeyd olunub.

Söhbət zamanı nəqliyyat-tranzit sahəsində əməkdaşlıq imkanları nəzərdən keçirilib. İki ölkə arasında tranzit daşımalarının 2024-cü ildə 18 faizdən çox artdığı bildirilib. Orta Dəhlizin əhəmiyyəti vurğulanaraq, Özbəkistan tərəfi bu dəhlizin imkanlarından daha fəal istifadəyə dəvət olunub. Bununla yanaşı, gəmiqayırma sahəsində əməkdaşlıq imkanları ilə bağlı fikir mübadiləsi aparılıb.

Humanitar və mədəni sahələrdə əlaqələrin nəticələri təqdir olunub. 2023-cü ildə Bakıda Özbəkistanın Mədəniyyət Günləri, ötən il isə Özbəkistanda Azərbaycanın Mədəniyyət Günlərinin keçirildiyi xatırlanıb. Regionlararası əlaqələrin əhəmiyyətinə toxunularaq iki ölkənin 10 şəhəri arasında qardaşlaşma haqqında sənədlərin imzalanması müsbət qiymətləndirilib.

Görüşdə iki ölkə arasında qarşılıqlı maraq doğuran müxtəlif sahələrdə əlaqələrin inkişaf perspektivləri müzakirə olunub.

*

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov və Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripov iyunun 11-də Daşkənddəki Heydər Əliyev Meydanında Ümummilli liderin barelyefini ziyarət ediblər.

Baş nazirlər barelyefin önünə gül dəstələri qoyub, ulu öndər Heydər Əliyevin xatirəsini ehtiramla anıblar.

*

Özbəkistan Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 11-də bu ölkənin Baş naziri Abdulla Aripovun müşayiəti ilə Daşkənddə Müstəqillik abidəsini ziyarət edib.

Əli Əsədov abidənin önünə əklil qoyub.

*XQ*

# Milli Məclisin sədri Qazaxıstanda



**İyunun 11-də Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) Şura və 14-cü plenar iclaslarında iştirak etmək üçün Qazaxıstanın Astana şəhərinə işgüzar səfərə gəlib.**

Səfər çərçivəsində Milli Məclisin spikeri, TÜRKPA-nın fəaliyyətdə olan sədri Sahibə Qafarovanın TÜRKPA-nın Şura və plenar iclaslarında çıxışı, tədbirdə iştirak edən parlament nümayəndə heyətlərinin rəhbərləri və Qazaxıstanın dövlət rəsmiləri ilə bir sıra görüşləri nəzərdə tutulub.

*

**Həmin gün Milli Məclisin sədri Sahibə Qafarova Astanada Türk Dövlətləri Parlament Assambleyasının XIV plenar iclası çərçivəsində Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin sədri Ziya Öztürklər ilə görüşüb.**

Söhbət zamanı Ziya Öztürklər Prezident İlham Əliyev başda olmaqla, Azərbaycanın ŞKTC-yə dəstəyinə görə təşəkkür edib və bunu çox yüksək qiymətləndirdiklərini bildirib. O, Türk dünyasının bir parçası olaraq, TÜRKPA-nın XIV plenar iclasında iştirakdan məmnunluğunu bildirərək, Azərbaycan Milli Məclisinin sədrliyi ilə TÜRKPA-nın uğurlu fəaliyyətinin təşkilatın daha da güclənməsinə və beynəlxalq mövqelərinin möhkəmlənməsinə xidmət etdiyini vurğulayıb.

Milli Məclisin sədri Sahibə Qafarova Türk dünyasının birləşməsi istiqamətində göstərilən səyləri qeyd edərək, bu baxımdan TÜRKPA çərçivəsində fəal əməkdaşlığın parlamentlərimiz arasında əlaqələrin daha da dərinləşməsinə xidmət etdiyini bildirib. O, Türk dünyasının gücləndirilməsinin, Türk dövlətləri ilə əlaqələrin daha da genişləndirilməsinin Azərbaycanın xarici siyasətinin prioritetlərindən biri olduğunu diqqətə çatdırıb.

Parlamentlərdə mövcud olan dostluq qruplarının əməkdaşlığının və qarşılıqlı fəaliyyətinin əhəmiyyəti qeyd olunub.

*

Dünən Sahibə Qafarova Astanada Türk Dövlətləri Parlament Assambleyasının XIV plenar iclası çərçivəsində Özbəkistan Respublikası Ali Məclisinin Qanunverici Palatasının sədri Nurdinjon İsmoilov ilə də görüşüb. Söhbət zamanı dost ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən razılıq ifadə olunaraq, Azərbaycanla Özbəkistanın bir çox sahələrdə uğurla əməkdaşlıq etdiyi qeyd edilib.

*XQ*

# COP29 rəhbərliyi Brüsseldə COP30-IEA konfransında

**COP29-un rəhbəri və Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayevin rəhbərlik etdiyi nümayəndə heyəti Brüsseldə keçirilən COP30-IEA (Beynəlxalq Enerji Agentliyi) Avropa Komissiyası arasında yüksəksəviyyəli enerji dialoqu konfransında iştirak edir.**

Muxtar Babayev ədalətli, nizamlı və bərabər enerji keçidinin təmin olunması, iqlim maliyyəsi öhdəliklərinin yerinə yetirilməsi və Milli Müəyyən Edilmiş Töhfələrin (NDC) gücləndirilməsinin vacibliyinə toxunub.



Muxtar Babayev ötən il Bakıda keçirilmiş COP29 konfransında əldə olunan əsas nəticələrə diqqət çəkərək bildirib ki, BMT İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Təsirin Azaldılması üzrə İş Proqramı danışıqlarda çətinliklərlə üzləşsə də, Bakı sammitində böyük irəliləyişlərə nail olunub. Bu proqramın şəhərlər, binalar və şəhər sistemləri üzərində mühüm təsiri qeyd olunub. Bu istiqamətdə iş prosesinin davamı olaraq, Azərbaycan 2026-cı ildə Ümumdünya Şəhər Forumuna evsahibliyi edəcək.

Muxtar Babayev, həmçinin COP29-un Qlobal Enerji Saxlancı və Şəbəkələri çərçivəsində elan olunan qlobal öhdəliklər barədə danışıb. Bunlar arasında 2030-cu ilə qədər enerji saxlanması gücünün 1500 qiqavata çatdırılmasını və 2040-cı ilə qədər 80 milyon kilometrə yaxın enerji ötürmə şəbəkəsinin tikilməsini nəzərdə tutan "Qlobal Enerji Saxlama və Şəbəkələr üzrə Öhdəlik", eləcə də "Yaşıl Enerji Zonaları və Dəhlizləri üzrə Öhdəlik" və "Hidrogen üzrə Bəyannamə" xüsusi yer tutur. Bu sənədləri 60-dan çox ölkə dəstəkləyib. O, çıxışında Bakıda qəbul edilən 300 milyard dollarlıq Bakı Maliyyə Məqsədinin tarixi nəticə olduğunu vurğulayıb.

# İrəvan forma və məzmunu uzlaşdıra bilmir

**Son həftələrdə Ermənistanda hakimiyyətin Erməni Apostol Kilsəsinə (EAK) qarşı təzyiqləri kəskin şəkildə artıb. Rəsmi şəxslərin bəyanatlarının məzmunu və ardıcıllığı başladılan kampaniyanın əsl motivlərini müəyyən qədər aydınlaşdırır.**

### Hakimiyyətin arqumentləri

Əgər prosesin əsas məzmununa baxsaq, ilk addım olaraq baş nazir Nikol Paşinyanın təşəbbüsü qeyd olunmalıdır. “Ermənistan Respublikası bütün ermənilərin katolikosunun seçilməsində həlledici söz sahibinə malik olmalıdır. Katolikosluğa namizədlər dürüstlük yoxlamasından keçməlidirlər”, - deyən Nikolun təşəbbüsünün Ermənistan Konstitusiyası, eləcə də 2007-ci ildə qəbul edilmiş “Ermənistan Respublikası və Erməni Apostol Kilsəsi arasındakı münasibətlər haqqında” qanun, EAK-ın kanonik hüquqları və din azadlığına dair beynəlxalq standartlarla ziddiyyət təşkil etdiyi barədə fikirlər bildirilir.

Məsələ ondadır ki, Ermənistanda kilsə dövlətdən ayrıdır və bütün dini təşkilatlar qanun qarşısında bərabərdir. Bu isə o deməkdir ki, dövlət dini təşkilatların daxili işlərinə - idarəetmə strukturu, dini liderlərin seçilməsi və ibadət qaydalarına qarışa bilməz. Paşinyanın təklif etdiyi qaydanın tətbiqi isə EAK-ı digər dini qurumlarla hüquqi baxımdan qeyri-bərabər vəziyyətə sala bilər ki, bunun yolverilməzliyi vurğulanır. Halbuki, qanuna görə, dövlətin katolikosun seçilməsi, daxili iyerarxiya və kanonik prosedurlara müdaxilə hüququ yoxdur. Əksinə, qanun kilsənin müstəqilliyini vurğulayır. Bu səbəbdən dövlətin dini rəhbər seçkilərində iştirak hüququ kilsənin hüquqi müstəqilliyini pozur.

Digər tərəfdən, Paşinyanın təşəbbüsü Ermənistanın beynəlxalq öhdəliklərini də pozur. Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) dəfələrlə qeyd edib ki, dövlət dini liderlərin seçiminə qarışa bilməz, hətta dolayı təzyiq və ya “uyğunluq” yoxlaması belə dini azadlığın pozulması deməkdir (Avropa Konvensiyasının 9-cu maddəsi).

### Paşinyan nə istəyir?

Çində tətbiq olunan və xristian kilsələrinə yönələn bir model var: dövlətə sadiq rəsmi dini strukturlar yaradılır və onlara tabe olmayanlar qeyri-leqal elan olunur. Məsələn, Çində Katoliklərin Vətənpərvər Assosiasiyası var və onu dövlət idarə edir. Təşkilatda dövlətin təsdiqlədiyi keşişlər fəaliyyət göstərirlər. Onlar dövlətin iştirakı ilə seçilir və fəaliyyətləri tam nəzarətdədir. Paşinyanın dedikləri, müəyyən mənada, Çin modelinə bənzəyir. Yəni, dövlət katolikosun seçilməsi və din xadimlərinin fəaliyyət prosesinə nəzarəti prioritet sayır. Başqa sözlə desək, dövlət tərəfindən təsdiqlənmiş kilsə iyerarxiyası formalaşdırılır, hökumətlə razılaşmayan keşişlər isə kənarlaşdırılır və nüfuzdan salınır. Bir sıra ekspertlərin fikrincə, əgər Nikol planını həyata keçirsə, EAK, faktiki olaraq, iki yerə bölünə bilər. Birincisi, rəsmi kilsə, yəni siyasi rejimə inteqrasiya olunmuş struktur, ikincisi isə “alternativ” kilsə, daha doğrusu, rejimə sadiq olmayan ruhani və inanclı toplum.

### Nikola dəstək və baş nazirin planı

Baş nazirin mövqeyini heç bir tərəddüd etmədən dəstəkləyənlərdən biri Ermənistan parlamentinin sədri Alen Simonyandır. “Baş nazirin dediyi hər şeylə, hətta vergüllərlə də razıyam və buna görə cavabdehəm”, - deyən spiker məsələ ilə bağlı konstitusiyaya dəyişiklik ehtimalını da istisna etməyib. Bildirib ki, bəzi dini qurumlara xüsusi status verilirsə, dövlətin müəyyən iştirakı da olmalıdır. Çünki mövcud istiqamətdə şəffaflığa ehtiyac var. Simonyanın fikri erməni parlamentinin “Vətəndaş müqaviləsi” fraksiyasının katibi Artur Ovanisyanın səsləndirdiyi təşəbbüsə - EAK-ın maliyyə hesabatlılığının təmin olunmasına işarədir. Ancaq bu, hələ son deyil. Çünki Ermənistanın ədliyyə naziri Srbui Qalyan jurnalistlərlə söhbətində prosesin hüquqi əsaslandırmasını təqdim edib.“Konstitusiya EAK-ın erməni xalqının həyatında xüsusi rolunu tanıyır. Bu norma kilsə ilə münasibətlərin hüquqi tənzimlənməsinə imkan verir. Kilsəyə və ruhani şəxslərə müəyyən güzəştlər verilir. Deməli, dövlət bu münasibətləri qanunvericiliklə tənzimləyə bilər”, - deyən Qalyan əlavə edib ki, kilsə onsuz da siyasətə qarışır: “Əgər siyasətçilərdən şəffaflıq tələb olunursa, eyni yanaşma keşişlərə də tətbiq oluna bilər”.

Ümumən, Ermənistanda mövzuya dair davam edən müzakirələr xüsusunda belə təəssürat yaranır ki, hakimiyyət cəmiyyətə belə bir seçim təklif edir: Əgər EAK digər dini təşkilatlar kimi adi bir təşkilatdırsa, o zaman bu məsələlər gündəmdən çıxarılmalıdır. Yox əgər EAK-ın xüsusi rolu qəbul edilirsə, xalqın da kilsənin idarəçiliyində müəyyən rolu olmalıdır. Başqa sözlə desək, EAK adi təşkilatdırsa, dövlət onun saxlanılmasını həyata keçirməyəcək. Əksinə, xüsusi imtiyazlı qurumdursa, o zaman iqtidar onun saxlanılması prosesinə nəzarəti həyata keçirəcək. Yəni ki, kilsənin başında hakimiyyətin müəyyənləşdirdiyi şəxs dayanacaq.

Ermənistanda parlamentdə hakim partiya təkbaşına qanun qəbul edə bildiyindən, mövcud təşəbbüs reallaşa bilər. Amma burada bir “əmma” var ki, dəyişikliklər Ermənistanın həm daxili, həm də beynəlxalq hüquqi öhdəliklərinə zidd olmamalıdır. Məsələn, maliyyə hesabatlılığı məsələsi yalnız dövlət maliyyələşməsi və güzəştləri ilə məhdudlaşdırılmalıdır. Yəni, daxili ianələr və kilsə kassası deyil, yalnız dövlətin verdiyi vəsaitlər hesabatlı ola bilər.




Beləliklə, Paşinyanın minimum planı EAK-ın siyasətə qarışdığı arqumenti ilə onun fəaliyyətinə dövlət nəzarəti həyata keçirməkdən ibarətdir. Maksimum plan EAK-ı ictimai fikirdə elə nüfuzdan salmaq ki, konstitusiyadan onun xüsusi rolu çıxarılsın və ya yeni əsas qanunda bu rol ümumiyyətlə yer almasın. Yeri gəlmişkən, bu, Gürcüstan, Ukrayna və Rumıniya kimi ölkələrdə də sınaqdan çıxmış modeldir. Nəzərə alaq ki, EAK hazırda istər daxildə, istərsə də diasporada geniş şəbəkəyə malikdir. Hazırkı hökumət bu nüfuzdan məhrumdur və ona görə də kilsəni siyasi baxımdan təhlükə görür.

*Əvəz RÜSTƏMOV*
*XQ*

# Serj Sarkisyan və “unitaz diplomatiyası”

## *Yaxud Ermənistanın sabiq prezidentinin dalandan çıxma “məharəti”*

**44 günlük müharibə və lokal xarakterli antiterror tədbirləri Ermənistanda elə bir vəsvəsə yaradıb ki, qarşıdakı əlli il ərzində durumun ağırlığının hayların canından çıxması qeyri-mümkündür.**




Mövcud ab-hava fonunda diqqətlərin müharibədən əvvəlki danışıqlar prosesinə yönəlməsi kimi təmayül də var. Baş nazir Nikol Paşinyan administrasiyasının təmsilçiləri, bir qayda olaraq, savaşa və Qarabağın itirilməsinə görə özlərini müqəssir saymır, Ermənistanın əvvəlki rəhbərliyini qınayırlar. Onlar təxminən bunu deyirlər ki, ölkənin eks prezidentləri Azərbaycanla danışıqları çıxılmaz duruma sürükləmişdilər, güzəşt qaçılmaza çevrilmişdi və guya müharibəyə kompromislərdən uzaq durulması üçün gedildi.

Savaşın Ermənistan üçün hansı acınacaqlı aqibətlə yekunlaşdığını bütün dünya gördü. Keçmişlə bağlı müxtəlif arqumentlər səsləndirən, faktlar sadalayan Paşinyan isə sabiq prezidentləri sırf Qarabağ mövzusunda debata çağırmaqdan çəkinmir. Sonuncular onun söylədiklərinə qeyri-ciddi yanaşır, ümumən əhəmiyyət vermirlər. Əslində, Ermənistanın üçüncü prezidenti Serj Sarkisyanın jurnalistlərə açıqlamasında dedikləri də Nikolun debat təklifinin geri çevrilməsi idi. Amma...

S.Sarkisyan prezidentliyi müddətində Azərbaycanla danışıqlar prosesi barədə söz açarkən, özünü təmizə çıxarmaq məqsədi ilə müəyyən fikirlər səsləndirib, elə görüntü yaradıb ki, sanki o zaman erməni tərəfi üstün idi. Əlbəttə, Serjik ağzına gələni danışa bilər. O anlamda ki, o və komandası, loru dildə desək, qatığa qara demək üzrə ixtisaslaşıb və zamanında azacıq mütərəqqi təklifləri belə bloklayıb, sülhü müşkilə çevirib.

Bəli, Sarkisyanın dövründə rəsmi İrəvan Bakı ilə yalnız görüntü xarakterli danışıqlar aparırdı. O və komandası işğal edilmiş hansısa rayonumuzu geri qaytarmaq niyyətində deyildi. Buna görə Serjikin detallara getməsinin önəmi yoxdur. Həm də ona görə önəmi yoxdur ki, artıq Qarabağ münaqişəsi tarixə çevrilib. Azərbaycan hərbi yolla problemi aradan qaldırıb, ilahi ədaləti təmin edib.

...Sarkisyanın üzərində dayandığı başlıca məqamlardan biri Azərbaycanla danışıqlar prosesi zamanı dalana dirənmə hallarının yaşanması ilə bağlı olub: “Biz danışıqlar sənədinin heç birində güzəştə getməmişdik. Onlar (yəni, Azərbaycan tərəfi – red.) geri çəkilirdi. Dalan normaldır. Dalana dirənmək durumu nə vaxt olmayıb ki? 1994-cü ildən müxtəlif vaxtlarda belə hallar yaşanıb. Ancaq bu, o demək deyildi ki, hər şey həll olunub. Bağışlayın, biz dəfələrlə dalandan çıxmışıq. Ki-Uest dalan deyildi ki? Kazan bəs? Bəs necə oldu ki, dalandan sonra danışıqlar prosesi davam etdi və heç bir əsaslı dəyişiklik baş vermədi?”.

Göründüyü kimi, S.Sarkisyan özünü və vaxtilə təmsil etdiyi iqtidar düşərgəsini “təmiz göstərmək” üçün dəridən-qabıqdan çıxır. Əslində, onun bu iqtibası çox şey deyir. Serjik Qarabağ danışıqlarının nəticəsizliyini, az qala, böyük uğur kimi qiymətləndirir. Yəni, o, özü də fərqinə varmadan danışıqlar prosesində Ermənistan üçün sərfəli olmayan mərhələləri sadalayır və belə qənaətə gəlir ki, sonradan heç bir nəticə əldə edilməyən prosesin davamı İrəvanın uğuru imiş.

Məlumdur ki, o zaman da Ermənistan bütün dünyaya özünü mütərəqqi libasda təqdim etmək istəyir, bu səbəbdən danışıqları imitasiya edirdi. Eyni yolu Sarkisyandan qabaqkı prezident Robert Koçaryan da getmişdi. Elə Paşinyanın da fərqli nə isə düşünmədiyini söyləyə bilərik. Ümumən, təkcə erməni hakim komandasının deyil, bütövlükdə dünya erməniliyinin düşüncəsi və hesablaması bu idi ki, danışıqlar uzandıqca Azərbaycanda nəsillər dəyişəcək və beləliklə, Qarabağ və işğal edilmiş ərazilər məsələsi gündəmdən çıxacaq, unudulacaq. Əlbəttə, belə olmadı və ola da bilməzdi.

Tam aydındır ki, Qarabağ klanını təmsil edən Sarkisyan-Koçaryan ikilisi danışıqlar prosesindəki hər cür oyunbazlığı Rusiyaya güvənərək edirdi. Mövcud xüsusda ən müxtəlif situasiyalardan söz açmaq mümkündür. Hərçənd, buna ehtiyac duymuruq. Necə deyərlər, keçmiş keçmişdə qalsın. Amma bir halda ki, Sarkisyan dalandan çıxmaq “məharətindən” söz açır, o zaman danışıqlar prosesi ilə bağlı bir məqamı xatırladaraq onun “bacarığının” əslində, nədən ibarət olduğuna aydınlıq gətirək.

Yada salaq ki, S.Sarkisyan prezidentliyi müddətində Avropa platformalarının birində gedən danışıqlar zamanı, özünün təbirincə desək, dalana dirənmiş, nə edəcəyini bilməmiş və çıxış yolunu ayaqyoluna gedib masanı tərk etməkdə görmüşdü. Əlbəttə, buna bacarıq və məharət demək mümkündürsə, Serjik haqlıdır. Çünki heç bir dövlət başçısı ağlına bu cür cılız və bəsit üsula əl atmağı yerləşdirə bilməzdi.

Prinsip etibarilə, erməni diplomatiyasının müəyyən aralıqlarla otuz ilə yaxın davam etmiş Qarabağ danışıqları prosesində tutduğu mövqe cılızlıqdan və bəsitlikdən başqa bir şey olmayıb. Həmin illər ərzində, el dilində desək, it arabanın kölgəsini öz kölgəsi sayıb. İndi necə düşünək? Düşünək ki, N.Paşinyan Sarkisyan və Koçaryan qədər primitivliyi bacarmadı? Əlbəttə, bunu da düşünürük, eyni zamanda, belə qənaətdəyik ki, Nikol, obrazlı ifadə etsək, başqa arabanı seçdi və həmin arabanın kölgəsi Ermənistanı qoruya bilmədi.

Əlqərəz, 44 günlük müharibə baş verdi və müharibənin Ermənistan üçün rüsvayçılıqla bitdiyini əvvəldə vurğuladıq. Rüsvayçılıq müharibədən sonra da davam etdi. Yəqin, diqqətli oxucularımız ermənilərin Kəlbəcəri tərk etmələri əsnasındakı görüntüləri xatırlayırlar. Həmin görüntülərdə haylardan birinin “unitaz”ı götürüb yük maşınına yerləşdirməsi səhnəsi də əksini tapırdı. Səhnə Azərbaycan cəmiyyətində xeyli məsxərə predmetinə çevrildi. Hesab edirik ki, Sarkisyan iki gün əvvəlki açıqlaması ilə həmin “unitaz”ın əslində, özünə məxsus olduğunu təsdiqlədi. Serjik dalandan çıxma məharəti ilə öyünürsə və onun bu məharətinin danışıqlar prosesini ayaqyoluna getməklə tərk etmək kimi “təcrübəsi” varsa, deməli, Kəlbəcərdə yük avtomobilinə yerləşdirilmiş “unitaz” məhz Sarkisyan dövrü erməni diplomatiyasının rəmzidir. Onu da nəzərə alaq ki, müharibədən sonra da erməni diplomatiyası özü üçün başqa rəmz yarada bilməyib. Bu gedişlə heç yarada bilməyəcək də.

*Ə.CAHANGİROĞLU*
*XQ*

REPLİKA

# Paşinyan, II Qaregin və Levon

## *Yaxud məğlublar üçün demokratiya sipəri*




**Ermənistanda iqtidar-kilsə qarşıdurması davam edir. Durumun müxtəlif təzahürləri var və bu barədə söz açmışıq. Ancaq bütün yaşananların fonunda bir məqam nəzərə çarpır – baş nazir Nikol Paşinyan, belə demək mümkünsə, erməni dövlətçiliyi üçün köhnə müqəddəslik simvolunun məhvinə köklənib. Onun məqsədinə çatmaq üçün sığındığı məhfum isə demokratiyadır. Söhbətimiz də elə bu barədədir.**

Məlum olduğu kimi, iyunun 7-də Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyan bütün ermənilərin katolikosu, Erməni Apostol Kilsəsinin rəhbəri II Qareginlə görüşdü. O Qareginlə ki, hazırda Nikolun açıq tənqid hədəfidir. Baş nazirin qaldırdığı ən mühüm məsələ isə budur ki, katolikos bakirlik andını pozub, onun övladı var və əgər dünyəvi həyat yaşamaq istəyirsə, tutduğu postu tərk etməlidir.

Maraqlıdır ki, Paşinyanın ittihamına qarşı tərəfdən cavab yoxdur. Daha doğrusu, cavab tamam başqa motivlərə söykənir. Təxminən belə: erməni iqtidarı ölkənin milli identikliyinə, dövlətçilik tarixinə və mənəvi dünyasına zərbə vurur, ənənələrinə hörmətsizlik edir və sair. Bir sözlə, ucuz populizm. Ancaq heç kəs demir ki, Paşinyan II Qareginin bakirlik andını pozduğunu deməklə şər atır, böhtan danışır. Deməli, torbada pişik var.

Əlqərəz, L.Ter-Petrosyan, obrazlı desək, torbadakı pişiyin bayıra boylanmasına yol vermək istəməyənlərin düşərgəsindədir. Ona görə də II Qareginlə görüşüb, ona dəstək nümayiş etdirib. Mövcud məqamı N.Paşinyan da görür və bu səbəbdən birinci prezidentə qarşı cəbhə açır. O bildirir: “Levon Ter-Petrosyan Ermənistan Respublikasında seçkilərin saxtalaşdırılması praktikasının banisidir və o, təbii ki, özü kimi mizantropu və saxtakarı dəstəkləməli idi”.

Dəstəkdən söz düşmüşkən, L.Ter-Petrosyanla II Qareginin görüşünə dair məlumatda bildirilmişdi ki, birinci Prezident katolikosun tərəfindədir və eyni zamanda “Ermənistan Respublikasının hakimiyyət orqanlarının 1700 illik Erməni Apostol Kilsəsinə qarşı konstitusiyaya zidd hərəkətlərini qətiyyətlə pisləyir”. Paşinyanın Ter-Petrosyana cavabı isə budur ki, konstitusiyaya ən böyük zidd hərəkət seçki saxtarakılığıdır və bu, anti-demokratik addımdır.

Göründüyü kimi, Paşinyan demokratiyanı sipərə çevirir. Daha doğrusu, özünün “demokratiyanın qladiatoru” obrazını mübarizə vasitəsi kimi ortaya qoyur. Əslində, eyni motiv Nikolun kilsəyə qarşı mübarizəsi üçün həmişə xarakterik olub. Yada salaq ki, müxtəlif vaxtlarda Paşinyanın dini idarəni keçmişin korrupsiya qalığı kimi qələmə verməsinə şahidlik etmişik. Yəni, baş nazirin və komandasının nəzərində II Qareginlə sabiq prezidentlər Robert Koçaryan və Serj Sarkisyan arasında heç bir fərq yoxdur.

Ancaq o da məlumdur ki, Nikolun və ümumən Ermənistanın iqtidar düşərgəsinin ruhaniliyə qarşı mübarizəsi uğur gətirməyib. Ona görə ki, erməni hakim komandası heç zaman səmimi olmayıb. Bu komanda, ilk növbədə, demokratiyaya xəyanət yolu tutub, onu avantüra üçün alətə çevirib. Fikrimizin sübutu kimi, Paşinyanın “demokratik Ermənistan” klişəsinə güvənərək, Azərbaycana qarşı müharibəyə rəvac verməsindən söz aça bilərik. Özgə torpağını özününkü saymaq nə vaxtdan demokratiya göstəricisi olub? Axı Nikolun “Qarabağ Ermənistandır nöqtə” bəyanatı ilə II Qareginin, istər o zamankı, istərsə də indiki “Artsax” sərsəmləməsi arasında heç bir fərq yoxdur. Görəsən, Paşinyan İkinci Qarabağ müharibəsi zamanı II Qareginin əli silahlı din xadimlərinin olduğunu və həmin din xadimlərinin savaşa “dəstəyini” nə tez unudub? Məgər, o bilmirdi ki, savaş sabiqlərin oyuncağıdır? Nikola çoxmu lazım idi özünü onlardan daha pis erməni kimi göstərmək? Göstərməsəydi, nə müharibə olardı, nə də rüsvayçılıq. Axı demokratiya təkcə seçki saxtarakarlığından yox, ümumən bütün saxtakarlıqlardan və avantüradan uzaq durmaqdır. Nikol isə hazırda bütün bəşəri dəyərlərdən kənar düşməsinin cəzasını çəkir. Halbuki, hər şey fərqli ola bilərdi.

Bəli, hər şey fərqli olmadığı üçün indi həm də II Qareginin və tərəfdarları Paşinyana çox asanlıqla xayin və satqın damğası vururlar. Hər şey fərqli olmadığından, Nikol onu hakimiyyətə gətirmiş demokratiya klişelərinə sadilik göstərmədiyindən, baş nazirin II Qareginə qarşı mübarizədə din xadimini saxtakar adlandırması cəmiyyətdə ciddi effekt vermir. Çünki hazırkı durumda Ermənistandakı ən böyük saxtakar elə Nikolun özüdür.

Paşinyan son illərdəki bütün çıxışlarında “Real Ermənistan” formulundan söz açır. O formul ki, onun gündəmə gəlməsi də saxtakarlığın nəticəsidir, çarəsizlikdən qaynaqlanır. Fikir var ki, vətənpərvərlik alçaqların son sığınacağıdır. Nikolun sözügedən formulu da eyni mahiyyət daşıyan hadisədir. Çünki zamanında reallığı qəbul etməyib müharibəyə başlayan Paşinyanla II Qaregin, eləcə də Nikolun indiki məqamda din xadimi ilə görüşməsi səbəbi ilə qınaq obyektinə çevirdiyi Levon Ter-Petrosyan arasında heç bir fərq yoxdur. Nəzərə alaq ki, Ter-Petrosyan müasir Ermənistan dövlətçiliyi üçün saxta Qarabağ müqəddəsliyi uyduranların başında gəlirdi.

Məsələyə sırf demokratiya və seçki saxtakarlığı prizmasından yanaşsaq, Ermənistanda 2008-ci ilin prezident seçkiləri dövrünə nəzər salmaq zərurəti də yaranır. Yada salaq ki, o zaman L.Ter-Petrosyan prezidentliyə namizəd idi və N.Paşinyan onun seçki kampaniyasını aktiv şəkildə dəstəkləyirdi. Paşinyan mitinqlərə qatılır və Ter-Petrosyanın əsas tərəfdarlarından biri kimi çıxış edirdi. İndi necə başa düşək? Belə başa düşək ki, hazırda 50 yaşı olan Nikol vaxtilə uşaq olub, nə etdiyinin fərqinə varmayıb?

*Ə.RÜSTƏMOV*
*XQ*

# Qərbi Azərbaycana Qayıdışa QHT dəstəyi

## Tanınma deportasiya olunmuş xalqın əsas hüquqlarından biridir

**Qərbi Azərbaycan bizim tarixi torpağımızdır. Şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Beynəlxalq hüquq baxımından, bu, çox vacib məsələdir. Yəni doğma yurdlarından deportasiya olunmuş insanların geriyə dönüş hüququnun tanınması böyük əhəmiyyət kəsb edir. Azərbaycan hakimiyyəti, cəmiyyəti bu məsələyə xüsusi diqqət və qayğı ilə yanaşır. Xüsusilə dövlət başçısı bu məsələnin daim gündəmdə saxlanılması üçün göstəriş və tapşırıqlarını verir.**




Xalqımız üçün taleyüklü bu məsələnin Milli Məclisdə "Qərbi Azərbaycana qayıdış" mövzusunda müzakirələrin aparılması Böyük Qayıdışın rəsmi Bakının fəaliyyət proqramına çevrilməsinin göstəricisidir. Bu istiqamətdə gedən görüş, debat, konfrans və müzakirələrdə, eyni zamanda, qeyri-hökumət təşkilatlarının da iştirakı mövzunun daha geniş arealda rezonans qazanmasına öz töhfəsini verir. Yeri gəlmişkən, Ermənistan tərəfi bu məsələyə qarşı müxtəlif hüquqi və inzibati maneələr yaratmaqla məşğuldur. Misal üçün, onlar doğma vətənlərinə qayıtmaq istəyən soydaşlarımız üçün qondarma hüquqi çətinliklər yaratmaq, məsələni hər vəchlə beynəlxalq müstəviyə daşınmasının qarşını almaq üçün ən müxtəlif vasitələrdən istifadə edirlər. Belə cəhdlərin özü onların narahat olduğunu və bu məsələnin onlar üçün nə qədər ciddi şəkil aldığını göstərir. Qətiyyətlə deyə bilərik ki, bu istiqamətdə çox böyük uğurlar əldə olunub. Dövlətin, vətəndaş cəmiyyəti institutlarının və bütövlükdə cəmiyyətin bu mövzuda mövqeyi dəqiqdir: Qərbi Azərbaycana Qayıdış Konsepsiyasi mütləq reallaşacaq! Böyük Qayıdışdan dönüş olmayacaq!

***

İyunun 11-də Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi (QHTDDA) "Qərbi Azərbaycana qayıdış" mövzusunda icra edilən QHT layihələri ilə bağlı ictimai hesabat xarakterli brifinq keçirib. Brifinqdə çıxış edən Agentliyin icraçı direktoru Aygün Əliyeva "Qərbi Azərbaycana qayıdış" mövzusunun artıq 3 ildir qurumun qrant müsabiqələrinin prioritet istiqamətlərindən biri olduğunu nəzərə çatdırdı. O dedi ki, bu müddət ərzində 50 QHT-nin "İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə konsepsiya – Qayıdış Konsepsiyası"nın müvafiq müddəaları ilə əlaqədar 54 təşəbbüsü dəstəklənib. Hesabat dövründə Azərbaycan QHT-ləri beynəlxalq kürsülərdə – BMT və ATƏT-in müxtəlif toplantılarında, dünyanın müxtəlif ölkələrində bu mövzuda məsələlər qaldırıb, ictimai diskussiyalar açıb, yan tədbirlər təşkil etməyə nail olublar.

Azərbaycanlıların doğma yurdlarına qayıdışı ilə bağlı tədbirlər ABŞ, Belçika, İspaniya, Rumıniya, Polşa, Türkiyə, Özbəkistan, Qazaxıstan kimi ölkələri əhatə edib. Onu da qeyd etmək lazımdır ki, "Qərbi Azərbaycana qayıdış" istiqaməti üzrə QHT-lərin indiki miqyasda fəallığı heç vaxt olmayıb. Azərbaycanın vətəndaş cəmiyyəti təsisatları haqlı olaraq bu mövzuya Qarabağ və Şərqi Zəngəzurun azadlığından sonra milli ideyanın yeni hədəfi kimi yanaşırlar. Əslində, bu cür yanaşma ümumxalq arzusunun tezliklə reallığa çevrilməsi yolunda cəmiyyətin imkanlarınıb səfərbər edilməsi baxımından olduqca əhəmiyytlidir. Bu zaman mövzunun mənəvi-psixoloji tərəfi də unudulmamalıdır.

Brifinqdə məlumat verildi ki, QHTDDA 2025-ci il qrant müsabiqəsində "Qərbi Azərbaycana qayıdış: maddi-mədəni irs və hüquqlar" istiqaməti üzrə daha 51 QHT-nin layihəsi dəstəklənib. İl ərzində bu mövzuda beynəlxalq təşkilatlar, Avropa və Türk dünyası regionlarında onlarla konfrans, sərgi və müxtəlif tədbirlər keçiriləcək.

QHTDDA-nın departament direktoru Elnur Bağırlı çıxışında qeyd etdi ki, builki yeni layihələrdə Qərbi Azərbaycan hekayələrinin daha təsirli vasitələrlə – musiqi, bədii nümunələr, ekran əsərləri, sənətkarlıq nümunələri əsasında izahına üstünlük verilməsi müşahidə edilir. Monitorinqin nəticələri də göstərir ki, bu üsullarda təbliğat diqqəti daha çox cəlb edir. Doğrudan da, bu aktual mövzuda ortaya maraqlı əsərlər çıxarılır. Bunlardan biri – "Bizi birləşdirən mədəniyyət" İctimai Birliyinin icra etdiyi layihə çərçivəsində "Zəngəzur mahnısı" ictimaiyyətə təqdim olunacaq. Bu musiqi əsərini Azərbaycanın tanınmış sənətkarları ifa ediblər. Aşıqların konsert proqramları isə tamaşaçılara Qərbi Azərbaycan nisgilini çatdıracaq. "Dədə Ələsgər Ocağı" İctimai Birliyinin "Ustad Ələsgərin Göyçə harayı – Vətənə sarı", "Ozan dünyası" Aşıq Yaradıcılığının Təbliği İctimai Birliyinin "Aşıqlar Qərbi Azərbaycanı tərənnüm edir", Azərbaycan Aşıqlar Birliyinin "Qərbi Azərbaycan aşıqlarının dastan repertuarı" layihələri də bu qəbildəndir. Bundan başqa, "Tətbiqi sənət nümunələrinin qorunmasına və təbliğinə yardım" İctimai Birliyi Özbəkistanda Qərbi Azərbaycan mövzusunda sərgi təşkil etməyi planlaşdırır.

***

Brifinqdə o da qeyd olundu ki, QHT-lərin layihələri çərçivəsində "Qərbi azərbaycanlıların Qars köçü" mövzusunda sənədli film hazırlanır. Azərbaycan Ədəbiyyatı Fondu isə "Qərbi Azərbaycan əsərlərdə" layihəsi çərçivəsində yeni bədii əsərin təqdimatını edəcək. Çıxışlarda bildirildi ki, "Elmi araşdırmalar" İctimai Birliyinin "İrəvan: hər daşı tarix", "Dünya gənc Türk yazarları" İctimai Birliyinin "Türk dünyasında Qərbi Azərbaycan mövzusu" və digər layihələr Qərbi Azərbaycanın maddi-mədəni irsinə qarşı vandalizmin hüquq müstəvisində və digər aspektlərdən qiymətləndirilməsinə öz töhfələrini verəcəklər.

Brifinq çərçivəsində "Qərbi Azərbaycana qayıdış" mövzusunda QHTDDA-nın dəstəyi ilə ərsəyə gətirilən layihələrin nəticələrinə dair sərgi təşkil olunub. Burada qeyd edildi ki, bu mühüm xətt üzrə son illər QHT-lər 200-dən çox məqalə ilə çıxış edib, 15 kitab işıq üzü görüb. "Vətəndaşların sosial rifahı naminə" İctimai Birliyinin "İrəvan: tariximiz, torpağımız, taleyimiz", "Kainat" milli-mənəvi dəyərlərin təbliğinə dəstək" İctimai Birliyinin "İrəvan: tarixi həqiqətlər və şəxsiyyətlər" kitabları bu qəbildəndir. Sərgidə təqdim olunan materiallarda Qərbi Azərbaycan mövzusu tarixi ədalət, qayıdış hüququ, fundamental insan hüquqları, etnik təmizləmənin ifşası, monoetnik dövlətdə siyasi və hüquqi mübarizə obyekti, regionda sabitliyə töhfə verən konsepsiya kimi təqdim olunub.

Bu gün Azərbaycan dövləti əzəli torpaqlarımıza qayıdış kimi tarixi hüququmuzu beynəlxalq birlik qarşısında qaldırır. Doğma yurdlarından zorla didərgin salınmış soydaşlarımızın oraya qayıdışı onların danılmaz haqqıdır. Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşdə Prezident İlham Əliyev onların əzəli torpaqlarına qayıtmalı olduqlarını qətiyyətlə söylədi: "Biz hüquqlarımızı sülh yolu ilə təmin etmək istəyirik və yenə də deyirəm, bütün konvensiyalar bu hüququ tanıyır. Ona görə buna nail olmaq üçün biz, o cümlədən beynəlxalq müstəvidə daha fəal olmalıyıq".

Qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıdışı artıq tarixi zərurətə çevrilib. Bu, ədalətin bərpası, onların təməl hüquqlarının təmin edilməsi olacaq.

***İ.HƏSƏNQALA***
***XQ***

# Ottava Bakıya tərəf dönür?

(əvvəli 1-ci səhifədə)



Onu da nəzərə almaq lazımdır ki, bu cür məsləhətləşmələr həm dost və müttəfiq, həm də dialoq yolu ilə münasibətlərini yaxşılaşdırmaq istəyən ölkələr arasında keçirilir. Bu baxımdan, Kanadanın Azərbaycanla münasibətləri yaxşılaşdırmaq yolu tutduğunu demək üçün əsaslar var.

Məlumdur ki, Azərbaycan xarici ölkələrlə münasibətlərini qarşılıqlı hörmət, suverenliyə və ərazi bütövlüyünə riayət, daxili işlərə qarışmamaq, qarşılıqlı faydalılıq və bərabərlik prinsipləri əsasında qurur. Ölkəmiz həm ikitərəfli münasibətlərin inkişafına, həm də beynəlxalq təşkilatlar çərçivəsində konstruktiv əməkdaşlığa xüsusi önəm verir. Bu prinsiplər Kanadaya münasibətdə də gözlənilib. Sadəcə olaraq, rəsmi Ottava son illər Azərbaycana münasibətdə bir sıra anlaşılmaz hərəkətlərə yol verib. Sözsüz ki, bunlardan ən başlıcası Kanada hökumətinin Vətən müharibəsi zamanı sırf ermənipərəst mövqe sərgiləməsi, işğalçıları dəstəkləməsi, bizim haqq işimizə kölgə salmaq istəyi idi. Hətta Castin Trüdo iqtidarı müharibə zamanı Türkiyəyə "Bayraktar TB2" pilotsuz uçuş aparatlarında istifadə edilən texnologiyanın (kameraların) satışını əsassız olaraq dayandırmışdı. Bu addım faktiki olaraq Azərbaycanın hərbi texniki imkanlarını hədəf almışdı, çünki "Bayraktar TB2"lərdə Kanadaya məxsus optik sistemlər istifadə olunurdu.

Kanada hökumətinin ermənipərəst addımları müharibədən sonra da bitmək bilmirdi. Rəsmi Ottava Azərbaycanın ərazi bütövlüyünə açıq dəstək verməkdən çəkinir, Trüdo və onun komandası Ermənistanın işğalçılıq siyasətini pisləməkdə və ölkəmizin beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə dəstək göstərməkdə tərəddüdlü davranırdı. Onlar balanslı mövqe adı altında Ermənistanın maraqlarına uyğun davranış sərgiləyirdilər.

Daha bir haypərəst addım isə erməni diasporunun təzyiqi ilə siyasi bəyanatların verilməsi idi. Sirr deyil ki, Kanadada güclü erməni diasporu mövcuddur və bu qüvvə İkinci Qarabağ müharibəsi zamanı həm ictimai, həm də siyasi çevrələrə təsir göstərərək, Azərbaycan əleyhinə ritorikanın formalaşmasına çalışıb. Nəticədə bəzi kanadalı dövlət xadimləri, o cümlədən Xarici İşlər Nazirliyi qərəzli və birtərəfli mövqedən çıxış edib. Prezident İlham Əliyev 2021-ci il mayın 10-da Azərbaycan Televiziyasına müsahibəsində bu barədə demişdi: "Münaqişə həll olunub, bu, bir. Hesab edirəm ki, bu məsələ ilə məşğul olmuş tərəflər və bu məsələ ilə məşğul olmaq istəyən, – bilmirəm nəyə görə, – ölkələr bunu nəzərə alsınlar. Çünki bəzən dünyanın o başında yerləşən ölkələr bizim münaqişə ilə bağlı, yaxud da ki, Azərbaycanda gedən proseslərlə bağlı bəyanatlar verirlər. Bu, qəbuledilməzdir. Məsələn, mən Kanadanı misal gətirə bilərəm. Bu yaxınlarda mənə məlumat verildi ki, Kanadanın Xarici İşlər Nazirliyi Azərbaycanla, bizim daxili işlərimizlə bağlı bəyanat verir. Nə haqqı var? Kim buna belə bir haqq verib? Özünü nə sayır Kanada? Bəlkə bu, superdövlətdir, biz bilməmişik. Bu, bəlkə ikinci Lüksemburqdur, ikinci superdövlət yaranıb, bunu bilməmişik. Otursun öz işləri ilə məşğul olsun…"

Eyni zamanda, Kanada dövlətinin adından yayılan bəzi rəsmi sənədlərdə və bəyanatlarda "Dağlıq Qarabağ" ifadəsindən istifadə olunurdu ki, bu da Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə zidd yanaşma sayılırdı. Bu çərçivədə Kanadanın 2023-cü ilin oktyabrında İrəvanda səfirlik açması da diqqətdən yayınmamalıdır. Səfirliyin təntənəli açılış mərasiminə o vaxtkı xarici işlər naziri Melani Coli şəxsən təşrif buyurmuşdu. Münasibətlərə xələl gətirən digər addım Kanadanın Avropa İttifaqının (Aİ) Ermənistandakı mülki adlansa da, özü yarımhərbiləşmiş missiyasına qoşulması oldu. Bu addım bölgədəki reallıqlara və balanslı yanaşma prinsipinə zidd olmaqla Ermənistanın, guya, təhlükə altında olan tərəf kimi təqdim edilməsinə xidmət edir və Azərbaycanın haqlı mövqeyinə qarşı qeyri-obyektiv yanaşmanın göstəricisidir. Kanada bu qərarı ilə bölgədəki gərginliyi azaltmaq əvəzinə, birtərəfli maraqlara xidmət edən formatda yer almış oldu. Missiyanın mandatı nə qədər "mülki" olsa da, onun arxasında geosiyasi maraqlar və regiondakı qüvvələr balansına müdaxilə cəhdləri dayanır. Bu cür yanaşma isə regionda sülhün və sabitliyin bərqərar olmasına deyil, yeni gərginlik ocağının yaranmasına əsas verir.

Prezident İlham Əliyev 2024-cü il dekabrın 17-də rusiyalı jurnalist Dmitri Kiselyova müsahibəsində Kanadanın Aİ missiyasına qoşulması ilə bağlı demişdi: "Bundan sonra bu missiya bizimlə razılaşdırılmadan uzadıldı və arqument bundan ibarət idi: niyə sizinlə razılaşdırmalıyıq, axı, bu missiya Ermənistan ərazisindədir. Bizim isə arqumentimiz belə idi: razılığa gələndə siz niyə bizimlə razılaşdırdınız? Axı, belə olmaz. Sonra onların sayı 200 nəfərdən çox artırıldı. Bundan başqa, bu missiya tədricən NATO-nun missiyasına çevrildi, oraya Kanadanın nümayəndələri qoşuldu. Beləliklə, bu, bizim razılığa gələcəyimiz ikinci maddədir…"

Bütün bu addımlar Azərbaycan tərəfinin haqlı etirazına səbəb olur. Bakıda keçirilən ilk siyasi məsləhətləşmə isə Kanadanın Azərbaycanın regionda və dünyada oynadığı rolun önəmini başa düşməsinin ilk işartısı sayıla bilər. Bu məsləhətləşmə tərəflər arasında dialoqun institusional əsasda davam etdirilməsi baxımından mühüm addımdır. Kanada uzun müddət Azərbaycanla münasibətlərə lazımi diqqət göstərməsə də, regionda dəyişən geosiyasi reallıqlar bu yanaşmanı yenidən qiymətləndirməyə vadar edir. Azərbaycan bu platformanı qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq üçün açıq dialoq imkanı kimi qiymətləndirir. Enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiya layihələri və multikultural dəyərlər kimi sahələr Kanada üçün də əməkdaşlıq baxımından cəlbedici istiqamətlərdir. Əgər bu təmaslar davamlı xarakter alsa, iki ölkə arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması mümkündür.

Üstəlik, nəzərə almaq lazımdır ki, daha Fransanın təsiri altında olan, fransız kökənli (frankofon) Castin Trüdo Kanadanın baş naziri, onun kimi frankofon Melani Coli isə xarici işlər naziri deyil. Bu isə o deməkdir ki, Ottavanın xarici siyasətində Parisin təsiri əvvəlki qədər güclü deyil. Yeni geosiyasi reallıqlar Kanadanın da daha müstəqil və praqmatik mövqe sərgiləməsini zəruri edir. Rəsmi Bakı bu dəyişiklikləri düzgün qiymətləndirərək, ikitərəfli münasibətlərin canlandırılması üçün əlverişli diplomatik mühit formalaşdırmağa çalışır. Kanadanın Cənubi Qafqazdakı proseslərə balanslı yanaşması onun beynəlxalq imicinə və regiondakı nüfuzuna müsbət təsir göstərə bilər. Artıq tərəflər arasında başlanan siyasi məsləhətləşmələr bu baxımdan yeni imkanlar açır və münasibətlərin gələcəyinə ümid yaradır. 2025-ci ilin martından Kanada Liberallar Partiyasının lideri və Baş naziri seçilən Mark Karninin rəhbərliyi ilə Kanada xarici siyasətdə daha rasional və praqmatik xətt izləyərsə, bu, Bakı–Ottava münasibətlərinin inkişafına ciddi təkan verə bilər.

***Səxavət HƏMİD***
***XQ***

## Ekspert rəyi

**İlyas HÜSEYNOV,**
**politoloq**



– Azərbaycan və Kanada arasında Bakıda keçirilən ilk siyasi məsləhətləşmələr ikitərəfli münasibətlərdə yeni mərhələnin başlandığını göstərir. Bu təşəbbüs Azərbaycanın artan beynəlxalq nüfuzunun və regionda formalaşdırdığı sabitləşdirici rolun Kanadada da getdikcə daha aydın şəkildə dərk olunmağa başladığının göstəricisidir. Siyasi məsləhətləşmələr zamanı enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiya xətləri, iqlim dəyişikliyi və multikultural dəyərlər kimi aktual mövzuların müzakirəsi, tərəflərin əməkdaşlıq potensialını tam şəkildə dəyərləndirməyə çalışdıqlarını ortaya qoyur. Kanada üçün bu dialoq, Cənubi Qafqaz siyasətində daha balanslı və obyektiv yanaşmanın əsasını formalaşdıra bilər. Əgər bu təmaslar ardıcıl və davamlı xarakter alsa, gələcəkdə qarşılıqlı səfərlər və konkret layihələr çərçivəsində əməkdaşlığın dərinləşməsi mümkündür.

Azərbaycan tərəfi bu məsləhətləşməni yalnız protokol xarakterli tədbir kimi deyil, konkret nəticələrə hesablanmış dialoq platforması kimi dəyərləndirir. İkitərəfli münasibətlərin fəallaşması Kanadanın Cənubi Qafqazda konstruktiv mövqe tutmasına, bölgədə sülh və əməkdaşlığın təşviqinə töhfə verə bilər. Eyni zamanda, bu cür məsləhətləşmələr Ermənistan–Azərbaycan münasibətlərinə dair obyektiv yanaşmanın formalaşmasına da xidmət edir.

# Müzəffər Azərbaycan Ordusu güclənir, peşəkarlığı yüksəlir

(əvvəli 1-ci səhifədə)





Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordu strukturunda əhəmiyyətli modernləşmə tədbirləri həyata keçirildi. Yeni qoşun növləri və xüsusi təyinatlı hərbi birləşmələr yaradıldı. Şəxsi heyətin hazırlıq səviyyəsinin artırılması məqsədilə genişmiqyaslı təlimlər keçirildi, onların intensivliyi və praktik yönümlülüyü artırıldı. Bu dəyişikliklər Azərbaycanın təhlükəsizlik arxitekturasında ordunun çevik və texnologiyaya əsaslanan qüvvəyə çevrilməsini təmin etdi. İslatlar çərçivəsində ölkə daxilində milli müdafiə sənayesinin inkişafı prioritet istiqamətə çevrildi. Yerli istehsal imkanlarının gücləndirilməsi, silah-sursat və digər hərbi texnologiyaların istehsalı ordunun daxili resurslarla təminatını xeyli gücləndirdi.

“İkinci Qarabağ müharibəsindən keçən dövr ərzində öz hərbi gücümüzü böyük dərəcədə artırmışıq. Ordumuzun döyüş qabiliyyəti artır, texnika ilə təchizat lazımi səviyyədə təmin edilir və təmin ediləcəkdir”. Prezident İlham Əliyev Milli Məclisin yeddinci çağırışının ilk iclasında verdiyi bu bəyanat Azərbaycanda ordunun inkişafının davamlı və planlı şəkildə aparıldığının təsdiqidir.

***

Azərbaycanın hərbi gücünün artırılmasında beynəlxalq əməkdaşlıq da xüsusi yer tutur. Bu xüsusda Pakistanla qurulan strateji tərəfdaşlıq çox önəmlidir. İki ölkə arasında hərbi təlimlər, müdafiə sənayesi sahəsində layihələr və texnologiya mübadiləsi intensiv şəkildə inkişaf edir. Bu əməkdaşlıq təkcə hərbi sferaya deyil, həm də regional təhlükəsizlik sisteminə mühüm töhfə verir.

Yada salaq ki, Pakistanla müdafiə sahəsində əməkdaşlığın nəticələrindən biri Azərbaycanın “JF-17C Block III” çoxməqsədli qırıcı təyyarələrinin alınmasına dair imzaladığı müqavilədir. Müasir qırıcılar Azərbaycan Hərbi Hava Qüvvələrinin keyfiyyət baxımından yeni mərhələyə qədəm qoyduğunu göstərir. “JF-17C” təyyarələrinin alınması yalnız hərbi-texniki addım deyil, həm də geosiyasi strateji mesajdır. Cənubi Qafqazın qeyri-sabit və rəqabətli təhlükəsizlik mühitində Azərbaycan bu təyyarələrlə havada üstünlüyünü təmin etməklə yanaşı, regionda balans yaradan gücə çevrilir.

Onu da qeyd edək ki, ilkin mərhələdə 16 ədəd “JF-17C” təyyarəsinin alınması planlaşdırılıb. Pakistan hökuməti 2025-ci ilin ortalarında əlavə 24 təyyarənin sifariş edildiyini rəsmən açıqlayıb. Beləliklə, Azərbaycan HHQ-nin ixtiyarına ümumilikdə 40 ədəd “JF-17C Blok III” qırıcısı veriləcək. Sifarişlərə təyyarələrin özü ilə yanaşı, pilotların və texniki heyətin təlimi, sursat və texniki dəstək, avadanlıqlara servis xidməti də daxildir. Müqavilənin dəyəri təxminən 4,6 milyard ABŞ dolları təşkil edir. Bu, Pakistan müdafiə sənayesinin indiyə qədər imzaladığı ən böyük ixrac sövdələşməsidir.

***

Azərbaycanın Pakistan və Çinin birgə istehsalı olan “JF-17C” qırıcılarını əldə etməsi ölkənin hərbi hava qüvvələrini gücləndirməyə xidmət edir və bu istiqamətdə atılan mühüm addımlardandır. Bu təyyarələr müasir dövrün tələblərinə tam cavab verir: Yüksək manevr qabiliyyəti, AESA tipli müasir radar sistemi, PL-15 raketləri, rəngli displeylə təchiz olunmuş kabinə və dəbilqəyə inteqrasiya olunmuş nişangah sistemi onların texnoloji üstünlükləridir. Radar sistemi uzaq məsafədən çoxsaylı hədəfləri aşkar edə bilir. Təyyarə həm “hava-hava”, həm də “hava-yer” tipli raketlərlə yanaşı, gəmi əleyhinə və radar əleyhinə silahlarla, eləcə də 23 millimetrlik topla silahlanıb. Bu platformanın Türkiyə hərbi sistemləri və rabitə infrastrukturu ilə tam uyğunluğu Azərbaycan–Türkiyə hərbi inteqrasiyasını da gücləndirir.

“JF-17C Block III” təyyarəsinin qiyməti 35-40 milyon dollar ətrafındadır ki, bu da onu Qərb və Rusiya analoqları ilə müqayisədə daha əlçatan edir. Məsələn, “F-16” və “Eurofighter Typhoon” kimi Qərb təyyarələrinin qiyməti 90–120 milyon dollar arasında dəyişir. Rusiya istehsalı olan təyyarələrin isə texniki xidmət və təmir prosesləri daha mürəkkəbdir. “JF-17” isə istismar baxımından sadə və çevikdir.

Azərbaycan yeni “JF-17” qırıcılarından mövcud “MiQ-29” və “Su-25” aviaparkı ilə paralel şəkildə istifadə etməyi planlaşdırır. Bu platformalar Türkiyə ilə əməkdaşlıq çərçivəsində artıq modernizasiya olunub və yüksək dəqiqlikli SOM qanadlı raketlərlə təchiz edilib. Beləliklə, Azərbaycan HHQ çoxsəviyyəli və döyüşə tam hazır hava-hücum komponenti ilə çıxış edir. Bu yanaşma Azərbaycanın həm müdafiə, həm də hücum qabiliyyətlərini artırır, şəbəkə mərkəzli müasir döyüş doktrinasına inteqrasiya olunmaq imkanını genişləndirir.

***

Azərbaycan bu sahədə güc nümayiş etdirdikcə, Ermənistan da öz tərəfdaşlarını diversifikasiya etməyə çalışır. İrəvan artıq Rusiya ilə münasibətlərini zəiflədərək Fransa, Hindistan və İranla hərbi əməkdaşlığa yönəlib. Maraqlıdır ki, 2011–2020-ci illərdə Ermənistanın silah idxalının 94 faizi Rusiya mənşəli idisə, 2024-cü ilə bu göstərici 10 faizdən aşağı düşüb. Rusiya bu dəyişikliyi Ukraynadakı müharibə ilə izah etsə də, Ermənistanın Qərb texnologiyalarına üstünlük verməsi artıq açıq reallıqdır. Məsələn, Azərbaycanın “JF-17C” təyyarələri almasına cavab olaraq Ermənistanın Fransadan çoxməqsədli “Rafale” qırıcıları alma ehtimalı müzakirə mövzusudur. Bu ehtimal Ermənistanın Qərbə daha çox inteqrasiya etməyə çalışması və Rusiyadan uzaqlaşmaq xətti fonunda aktuallaşır.

Lakin bu ideyanın gerçəkliyə çevrilməsi ciddi maliyyə və texniki əngəllərlə üzləşir. “Rafale” qırıcısının 1 ədədi təxminən 90-120 milyon ABŞ dolları arasında qiymətləndirilir. Ermənistanın 2025-ci il müdafiə xərcləri 1,7 milyard dollardır. Əgər 10 ədəd “Rafale” təyyarəsi alınarsa, digər xərclərə vəsait qalmır. Nəzərə alaq ki, “Rafale”nin istismarı, təmiri və texniki xidməti NATO standartları tələb edir. Ermənistanın isə belə bir infrastrukturu və logistika bazası yoxdur. Hazırda Ermənistan HHQ, əsasən, “MiQ-29” və “Su-25” tipli sovet mənşəli texnikaya əsaslanır. “Rafale” qırıcıları bu sistemlərlə uyğun gəlmir və inteqrasiya üçün milyardlarla dollar tələb olunur. Beləliklə, Ermənistanın Fransadan hərbi təyyarə alma imkanı real deyil. Bu, yalnız siyasi jest və ya strateji niyyət kimi qiymətləndirilə bilər. Hətta Fransa tərəfindən dəstək olsa belə, bu satış yalnız genişmiqyaslı hərbi alyans və ya beynəlxalq yardım kontekstində baş verə bilər.

“Forbes”in təhlilinə görə, Hayastan üçün daha real alternativ Hindistanın lisenziya ilə istehsal etdiyi “Su-30MKI” qırıcılarıdır. Bu təyyarələrin baza konfiqurasiyasında qiyməti təxminən 40–55 milyon ABŞ dolları, tam silahlanma və texniki paketlə isə 60-75 milyon dollar arasında dəyişir.

Yada salaq ki, haylar bu ölkə ilə rekord həcmli silah müqavilələri imzalayıb və Hindistanın Ermənistanın mövcud “Su-30SM” qırıcılarını təkmilləşdirmək imkanları var. Bundan əlavə, Hindistan Azərbaycanın Pakistandan təyyarə almasına geosiyasi cavab kimi Ermənistana dəstək verməyə maraqlı görünür.

Beləliklə, Vətən müharibəsindən sonra Azərbaycan Ordusu təkcə qələbə ruhunu yaşatmaqla kifayətlənməyib. O, bu qələbəni davamlı gücə, peşəkarlığa və texnoloji üstünlüyə çevirərək yeni mərhələyə qədəm qoyub. Struktur islahatları, hərbi texnologiya sahəsində tərəfdaşlıqlar və milli müdafiə sənayesinin inkişafı sayəsində Azərbaycan Cənubi Qafqazda sabitliyin, güc balansının və regional təhlükəsizliyin əsas təminatçılarından birinə çevrilib. Azərbaycanın “JF-17C” qırıcılarını əldə etməsi Hayastanın xaricdən silah almasına, revaşist əhval-ruhiyyənin artmasına cavabdır.

Ümumilikdə, Azərbaycanın “JF-17C Block III” kimi həm funksional, həm də əlçatan texnologiyaya üstünlük verməsi fonunda Ermənistanın “Rafale” kimi bahalı Qərb təyyarələri ilə Hərbi Hava Qüvvələrini yeniləmək planı hazırkı mərhələdə real görünmür. Bu cür silahlanma təşəbbüsləri Ermənistanın mövcud iqtisadi imkanları və müdafiə büdcəsi ilə ziddiyyət təşkil edir. Odur ki, “Rafale” kimi texnikanın əldə olunması faktiki addımdan daha çox siyasi jest və ya strateji niyyətin simvolu kimi dəyərləndirilə bilər.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# İrəvan Zəngəzurda nəyi “sadələşdirir”?

## *Erməni nazirin manipulyasiyaya, ikiüzlülüyə köklənən “pozitiv” açıqlaması*

**“Dünyanın istənilən sərhədində olduğu kimi, Azərbaycandan Ermənistandan keçərək Naxçıvana daşınacaq yüklərə nəzarət ediləcək. Əgər söhbət blokadanın aradan qaldırılmasından, sərhədlərin açılmasından gedirsə, o zaman, sadəcə olaraq, müxtəlif ssenarilərə hazır olmalıyıq. Bizim istənilən ssenariyə uyğunlaşmağa və gömrük fəaliyyətimizi həyata keçirməyə imkan verəcək müasir avadanlıq və alətlərimiz var”. Bu barədə yerli KİV-ə açıqlamasında Ermənistan Dövlət Gəlirləri Komitəsinin (DGK) sədri Eduard Akopyan deyib. Amma bu zaman, o, Ermənistanın təklif etdiyi Azərbaycanın qərb rayonlarından Naxçıvana yüklərin “sadələşdirilmiş” tranzitinin təfərrüatlarını açıqlamayıb. Onun sözlərinə görə, artıq baş nazir və baş nazirin müavini ictimaiyyətə açıqlana biləcək bütün detallar barədə məlumat veriblər.**



Bu yerdə kiçik bir haşiyə çıxmağa ehtiyac var. Ermənistan baş naziri Nikol Paşinyan sifətində səmimiliyi şübhə doğurmayan ifadə ilə özünü təkzib etməyi bacaran siyasətçinin parlaq nümunəsidir. Müvəqqəti işğal olunmuş Xankəndidə “Qarabağ Ermənistandır, nöqtə” - deyə qışqıran da o idi, indi mütəmadi olaraq Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tam tanıdığını bəyan edən də.

2020-ci il noyabrınm 20-də imzalanmış üçtərəfli Bəyanatın 9-cu bəndində göstərilir ki, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri blokadadan çıxarılır, Ermənistan Azərbaycanın qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinə zəmanət verir. Bu isə o deməkdir ki, Ermənistanın bu gün reallaşmasına cidd-cəhdlə mane olduğu Zəngəzur dəhlizini işlək vəziyyətə gətirməli və ona zəmanət verməlidir. Amma Nikol Paşinyan iqtidarı vəziyyəti məqsədyönlü şəkildə gərginləşdirməkdə davam edir. Onun havaya pərvazlanaraq, “şahin” və ya “sülh göyərçini” maskasında ifa etdiyi melodiyanı necə asanlıqla dəyişdirdiyinə dair başqa nümunələr də var. Deməli, onun sözlərinə son həqiqət kimi istinad etmək, yumşaq desək, əsassız, riskli və gülüncdür. Xüsusən, baş nazirin erməni kilsəsi ilə qarşıdurmaya girdiyi və bütün ermənilərin katolikosu II Qaregini mütəmadi olaraq tənqid etdiyi indiki məqamda. Dini inancını yüksək tutan Nikol Vovayeviçin dediyinə görə, Qaregin subaylıq andını pozub, övladı var. Öz işləridir, aydınlaşdırsınlar, dəqiqləşdirsinlər. Bizə isə Ermənistan DGK-nın rəhbərinin yadına bəzi məqamları salmaq düşər.

### Ekspert rəyi



**Fikrət Sadıxov,**
**Qərbi Kaspi Univürsitetinin professoru, politoloq**

– İrəvan Azərbaycandan Naxçıvana yüklərin daşınması qaydası barədə ona görə bəyanat verir ki, bəlkə, bu, Bakının ürəyincə olar. Yaxud da dünya ictimaiyyətinə göstərmək istəyir ki, Azərbaycana güzəştə gedir, bununla bağlı “pozitiv” mesajlar verir. Yəni, bunun ictimai rəyə qəbul etdirməyə çalışırlar. Ermənistan rəhbərliyi, guya, Bakı onların təklifini qəbul etdikdən sonra məsələyə daha geniş şəkildə aydınlıq gətirməyi planlaşdırır. Amma bizə Zəngəzur dəhlizinin hissə-hissə, qram-qram açılması lazım deyil. Ya Ermənistan hakimiyyəti imzaladığı üçtərəfli Bəyanatın şərtlərinə əməl etməli, ya da Bakı ona zəruri təzyiqi göstərməlidir ki, “bağlı paketləri” tamamilə açıqlasın.

Belə çıxır ki, İrəvan hələlik yüklərin daşınmasından danışır. Amma sabah deyə bilər ki, yük daşımaları dayandırılsın, sərnişn daşımalarına yol verilsin. Azərbaycanın dəhlizin bu formada açılmasına ehtiyacı yoxdur. Bakının məqsədi Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz keçidi təmin edəcək Zəngəzur dəhlizinin qeyd-şərtsiz açılmasıdır. Ermənistan rəhbərliyi bunu yaxşı dərk edir. Ona görə bütün vasitələrdən istifadə etməyə çalışır ki, dəhliz işə düşməsin. Sadəcə, razılıq görüntüsü yaradan bəyanatlar verməklə məşğul olur. Bunları baş nazirin, spikerin, eləcə də ayrı-ayrı nazirlərin dilindən tez-tez eşidirik.

Azərbaycana Ermənistanın “güzəştləri” lazım deyil. Zəngəzur dəhlizi mütləq açılacaq. Əgər rəsmi İrəvan ikitərəfli münasibətlərin normallaşmasında maraqlıdırsa, sadəcə, dörd il yeddi ay bundan əvvəl imza atdığı sənədin şərtlərinə əməl etsin, vəssalam.

***

Ondan başlayaq ki, regionda kommunikasiyaların açılması və nəqliyyat əlaqələrinin bərpası kontekstində bu cür yanaşmalar sülhə doğru addım kimi deyil, təxribat kimi səslənir. Və bu, heç də az deyil! Axı söhbət, ilk növbədə, Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirən marşrutlardan gedir.

Görünür, İrəvan isteblişmenti bunları “unudub”. 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata əsasən, İrəvan Azərbaycan Respublikasının qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında yüklərin və vətəndaşların maneəsiz daşınmasını təmin etməyi öhdəsinə götürüb. Bu sənəddə Ermənistanın Dövlət Gəlirləri Komitəsinin sədrinin istinad etdiyi həmin Paşinyanın imzası var, onun nəticələri faktiki olaraq rəsmi İrəvanın konstruktiv yanaşmadan imtina etdiyini nümayiş etdirir.

“Azərbaycanla Azərbaycan arasında heç bir yoxlama və maneə olmadan rahat və sərbəst keçid olmalıdır”. Bunu altı ay bundan əvvəl yerli telekanallara müsahibəsində Azərbaycan Prezidenti İlham Əliyev bəyan edib. Dövlətimizin başçısı bunun bizim tələbimiz olduğunu İrəvanın nəzərinə çatdırıb: “Əgər nəzərə alsaq ki, 1920-ci ilin noyabrında sovet hakimiyyəti bizdən Qərbi Zəngəzuru aldı və Azərbaycan xalqına qarşı cinayət törətdi. Bu, nə birinci, nə də sonuncu cinayət idi. Əgər ardıcıllıqla getsək, ikinci cinayət Azərbaycan ərazisində qondarma “Dağlıq Qarabağ Muxtar Vilayəti”nin yaradılması oldu. Bundan əvvəlki cinayət çar Rusiyasının erməniləri Azərbaycan ərazisinə köçürməsi idi. Ondan əvvəlki cinayət isə Qarabağ xanının, ona verilmiş hakimiyyət zəmanətinə baxmayaraq, qətlə yetirilməsi idi. XX əsrdə törədilmiş digər cinayətlər isə bizim gözlərimizin önündə baş verdi – Xocalı soyqırımı, 20 Yanvar faciəsi və 1990-cı illərin əvvəllərində torpaqlarımızın işğalı. Yəni, biz bunu unutmadıq, Azərbaycan xalqı bunu unutmadı. Biz Zəngəzuru da unutmadıq və unutmayacağıq. Bir daha deyirəm: bizim Ermənistana qarşı ərazi iddiamız yoxdur. Ancaq Ermənistan öz öhdəliklərini yerinə yetirməli, Azərbaycanla Azərbaycan arasında maneəsiz keçid təmin etməlidir.”

Bu, həqiqətən də, proqram xarakterli bəyanat idi. Prezident İlham Əliyev bütün dünyanın diqqətinə bir daha çatdırdı ki, bizim Ermənistana qarşı ərazi iddiamız yoxdur. Bunun üzərində manipulyasiya etmək, siyasi fırıldaqçılıqla məşğul olmaq və xüsusən də Zəngəzur dəhlizi məsələsində sərhədlərin dəyişdirilməsinə cəhd göstərmək lazım deyil. Azərbaycan istər regional, istərsə də beynəlxalq arenada tanınmış sərhədlərə hörmətlə yanaşmanın tərəfdarı olub və bu gün həmin kursu davam etdirir. Oxucuların yadına başqa bir məqamı da salmaq istərdik. 1991-ci ildə Alma-Atı görüşü zamanı keçmiş SSRİ respublikalarının mövcud sərhədlər çərçivəsində tanınması təklif edilmişdi. Bu qərarın, ilk növbədə, Azərbaycan üçün nə qədər ədalətli olduğu məlumdur. Amma o vaxt ola bilsin ki, bu, ən az ziyan verən seçim idi. 34 il bundan əvvəl keçmiş SSRİ respublikalarına sərhəd münaqişələri və müharibələr olmadan öz gələcəklərini qurmaq üçün tarixi şans verilmişdi. Fəqət bu şans qaçırıldı. Kimin günahı ucbatından? Əlbəttə, Ermənistanın! İndi gah nala, gah da mıxa vuran İrəvan prinsipial olaraq başa düşməlidir ki, Ermənistanın Azərbaycan yüklərinə gömrük nəzarəti təklifi, sadəcə, bürokratik detal deyil. Burada söhbət bir suveren dövlət daxilində tranzit daşımalardan getdiyi halda, Azərbaycandan Azərbaycana marşruta beynəlxalq sərhəd statusu verilməsi yolverilmzdir. Bu yanaşma hüquqi, siyasi və ya praktiki baxımdan qəbuledilməzdir. Gömrük nəzarəti məlumatların toplanması, mümkün yoxlama, gecikmələr və ən əsası, müəyyən yurisdiksiyanın tanınması deməkdir. Ermənistanın bununla Azərbaycanın suverenliyini və ərazi bütövlüyünün təməl prinsiplərini pozaraq, marşrutdan təzyiq rıçaqı, siyasi, iqtisadi dividendlər qazanmaq üsulu kimi yararlanmağa çalışdığı göz qabağındadır.

***

Nazir E.Akopyanın “müxtəlif ssenarilərə hazır olmalıyıq” ifadəsi onu təsdiqləyir ki, İrəvan öz öhdəliklərini yerinə yetirmək niyyətində deyil, əksinə, sərhədlərin açılmasını Azərbaycana yeni şərtlər təqdim etmək imkanı kimi dəyərləndirir. Yəni bu ritorika danışıqlarda gərginliyi azaltmağa deyil, təxribata yönəlib. Ermənistan regionda sülhün və inteqrasiyanın halqasına çevrilmək əvəzinə, yenidən eskalasiyanı artıran mənbəyə çevrilmək riski ilə üzləşir. Azərbaycan dəfələrlə beynəlxalq monitorinq mexanizmlərindən istifadə etməklə Naxçıvanla ölkənin qalan hissəsi arasında daşımaların təhlükəsizliyini və şəffaflığını təmin etməyə hazır olduğunu bəyan edib. Bu, Bakının siyasi spekulyasiyanı istisna edən, sabitliyə yönəlik balanslı yanaşmasıdır. Amma, gördüyümüz kimi, rəsmi İrəvan ikiüzlülüyünün başqa bir nümunəsini ortaya qoyur. Bu, Nikol Paşinyanın Azərbaycanı Qurban bayramı münasibətilə şəxsən təbrikinin, “ölkəmizə və xalqımıza sülh və firavanlıq arzularını” bildirməsinin ardınca nazirin dili ilə İrəvanın növbəti ikiüzlülüyünün nümayişidir. Əlbəttə ki, sonuncu deyil. Bütün bunlar bir daha sübut edir ki, rəsmi İrəvanın sözünə etibar etmək olmaz.

Sonda boynuna götürdüyü öhdəliyi yerinə yetirməyə tələsməyən Paşinyan hakimiyyətinə bəzi tarixi reallıqları xatırlatmaq istərdik. Əgər Ermənistan Qars və Moskva müqavilələrinə əsasən Türkiyə ilə sərhədlərini tanımaqdan imtina edirsə, o zaman qayıdış Sevr müqaviləsinə deyil, Aleksandropol müqaviləsinə olacaq. Bu halda Ermənistan Gümrünü Türkiyəyə qaytaracaq və oradakı Rusiya hərbi bazasının taleyini artıq İrəvan yox, başqaları həll edəcək. İkinci reallıq ondan ibarətdir ki, əgər Ermənistan Alma-Atı Bəyannaməsinə əsasən Azərbaycanla sərhədləri tanımaqdan imtina edirsə, bu, heç də sərhədlərin yenidən “çəkilməsi” anlamına gəlmir. Əksinə, Versal Sülh Konfransında müəyyən edilmiş sərhədlərə qayıdış gündəmə gələcək. O zaman isə Qərbi Zəngəzur və Göyçə mahalı Azərbaycanın tərkib hissəsi kimi tanınırdı. Yəni, İrəvanda bu incə məqamları başa düşmək istəməsələr belə, bu, heç nəyi dəyişmir.

***İmran BƏDİRXANLI***
***XQ***

# Azərbaycan xalqının siyasi identikliyi: azadlıqsevərlik



## VI MƏQALƏ

### Azərbaycan – identikliyin çətin yollarında

Etiraf etmək lazımdır ki, XXI əsrin mürəkkəb və ziddiyyətli çağırışlarının mövcud olduğu bir şəraitdə güclü müstəqil dövlət olmaq çox çətindir. Buna nail olmağın təməl faktorlarından biri müasirliyə adekvat olan cəmiyyət, siyasi, dövlət və ümumiyyətlə, sosial identiklik modeli müəyyən etməkdən ibarətdir. Bu baxımdan 1993-cü ildən başlayaraq Azərbaycan cəmiyyətinin sosial və siyasi aspektlərdə identikliyinin əsas məqamlarının fəlsəfi və bütövlükdə nəzəri dərki çox vacibdir. Ulu öndərin mənəvi, siyasi incəlik və ideoloji məharətlə həyata keçirdiyi Azərbaycanın cəmiyyət və dövlət identikliyinin mahiyyəti düzgün izah edilməlidir. Prezident İlham Əliyevin daim gözlədiyi siyasi varisliyin tam mənası və mahiyyətinin düzgün anlamı həmin dərk olmadan mümkün deyildir!

Məsələnin aktuallığının iki aspekti vardır. Birincisi, Azərbaycan cəmiyyət və ölkə olaraq son 300 ildə olduqca çətin, dolaşıq, çoxlu sayda təməl dəyərlərin baş-ayaq salındığı bir yol keçmişdir. Onun təsirləri hələ də qalır. İkincisi, müasir müstəqillik mərhələsində tarixi baxımdan qısa bir müddətdə Azərbaycan müstəqil dövlət kimi elə uğurlar əldə etdi ki, dünyanın qos-qoca güclərini təlaşlandırdı. Sosial-iqtisadi, hərbi-müdafiə, siyasi və geosiyasi təşəbbüskarlıq, enerji, nəqliyyat, loqistika, mdəniyyət layihələri ilə güclü potensiala və onu XXI əsrin keşməkeşlərində reallaşdırmaq üçün liderə malik olduğunu dünyaya nümayiş etdirdi.

Bunlar Azərbaycanı regional və regionlararası miqyaslarda həm önə çıxardı, şərəfləndirdi, həm də neqativ təsirlərin hədəfinə gətirdi. İndi Türk dünyasına, TDT-yə, Azərbaycanın digər dövlətlərlə münasibətlərinə olan dağıdıcı hücumların təməlində bu nailiyyətlər dayanır. Bizlər Azərbaycan cəmiyyətinin sosial, siyasi, etnik, dövlət və s. identikliklərinə məhz bu təməl şərtin fonunda baxmağı öyrənməliyik. Bunu etsək, identikliyimizdə irəliyə doğru bir addım atmış oluruq.

Bu düşüncələrin işığında müstəqillik mərhələsində cəmiyyətin və dövlətin identikliyinin başlıca formulunun nədən ibarət olduğunu aydınlaşdırmaq gərəkdir. Əminəm ki, burada istiqamətverici, müəyyənedici, məzmunlaşdırıcı və məqsəd formalaşdırıcı rolu ulu öndər Heydər Əliyevin iki məşhur tezisi və Pezident İlham Əliyevin XXI əsrin çağırışlarına adekvat olan və artıq dillər əzbəri olan kəlamı oynamalıdır.

Bu üç təməl yolgöstərici fikri, tezisi, kəlamı tarixi xronoligiya, məntiqi inkişaf və nəticəverici motivasiya faktoru baxımından aşağıdakı kimi təsnif edə bilərik: “Mən fəxr edirəm ki, azərbaycanlıyam” – “bir millət, iki dövlət” – “ bizim ailəmiz Türk Dünyasıdır”!

### Azərbaycançılıq – identikliyin mənəvi, siyasi və ideoloji bazası

XXI əsrdə əsl azərbaycançı olmaq çətindir. Bunun daxili və xarici səbəbləri mövcuddur. Azərbaycan 300 il kənar dövlətin bütün mənalarda təsirləri altında qalmağa məcbur edilmişdir və buna görə də əsas prinsipial siyasi, mənəvi, dövləti dəyərlərinin sahibi ola bilməmişdir. Onun təsirlərindən biri cəmiyyətdə azərbaycançılığın xeyli zəifləməsi olmuşdur. Hətta rəsmi ideologiya azərbaycançı olmağı – yəni Azərbaycan dilini, İslam dinini, mədəniyyəti, adət-ənənəni üstün tutmağı “köhnəlik”, “geridəqalmışlıq” kimi təbliğ edənlər az deyildi. Bunun fonunda rusçu, kommunist, sosialistçi, sovetçi, abstrakt beynəlmiləlçi və saxta bəşəri olmaq müasirlik, yeniləşmək, inkişaf etmək nümunələri kimi beyinlərə sırınırdı. Bizim üçün azərbaycançı-sovetçi dixotomiyasını yaradanlar, İslamı geridəqalmışlıq kimi təbliğ edənlər regionun xristian dövlətlərinə tamam fərqli şərait yaratmışdılar. Qonşu ölkələri bizim hesabımıza inkişaf etdirir və həm də onları nümunə göstərirdilər. Onlar da sözün həqiqi mənasında Azərbaycana yuxarıdan aşağı baxır, bir sıra hallarda sərhədsiz davranırdılar. Belə bir şəraitdə necə azərbaycançı olmaq olardı?

Məntiqi olaraq belə alınır ki, ilk növbədə, azərbaycanlıların (Azərbaycanın indiki coğrafi-siyasi və mədəni məkanında yaşayan hər bir kəs nəzərdə tutulur) öz Vətənlərinə münasibətini dəyişmək lazım gəlirdi. Uzun müddət davam edən yadlaşdırma və insanlarda öz vətənlərində vətənsiz olduqları təəssüratları yaratma geniş anlamda absenteist (biz bu siyasi termini ənənəvi məna sərhədindən çıxarıb, ümumiyyətlə, Vətənlə bağlı olan hər bir faktora aid edirik) əhval-ruhiyyəsi, yəni xalq, millət, cəmiyyət, Vətən, dövlətlə bağlı laqeydlik, loyallıq yaratmışdı. Müstəqillik dönəmində bu tendensiyanın inkişaf etməsi riski çox böyükdü. Çünki XX əsrin son onilliyinə Azərbaycan cəmiyyəti faktiki olaraq üç aspektdə absenteist təsirlərin kəsişmə sahəsinə salınmışdı.

Birincisi, insanların özünə və mənsub olduğu cəmiyyətə qarşı laqeydlik dərinləşdirilirdi. Nə qədər acı və kədərli olsa da, azərbaycanlılar özlərinə aşağılayıcı münasibət göstərməyə və bir-birini yad kimi qəbul etməyə təhrik edilirdilər. Bu da cəmiyyət daxilində müxtəlif süni, lakin təhlükəli ayrı-seçkiliyi, ziddiyyətləri körükləyirdi – şəhərli-rayonlu, rayonlu-rayonlu, tayfa-tayfa və s. adını çəkmək belə qəbuledilməz olan “çatlar” genişlənirdi.

İkincisi, Ermənistandan maşa kimi istifadə edib dövlətçiliyimizə, cəmiyyət olmaq şərtlərimizə, ölkə kimi mövcud olmaq haqqımıza, tarixən ərazi sahibi olmaq hüququmuza qarşı səlib yürüşü təşkil edilmişdi. Bu proses güclü informasiya və ideoloji parçalama kursu isə müşayiət olunurdu. Onu vurğulayaq ki, hələ keçən əsrin 80-90-cı illərində postsovet məkanında ölkələrə qarşı xüsusi ideoloji təlimlər hazılanmışdı ki, onların sırasında insanları, onların mənsub olduqları cəmiyyətləri və nüfuzlu şəxsiyyətlərini aşağılamaq xətti ayrıca yer tuturdu.

Üçüncüsü, Azərbaycanda dövlət xadimləri, liderlər, elm, mədəniyyət, təhsil, bədii yaradıcılıq, siyasətçilər, tarixi şəxsiyyətlər haqqında yalan, uydurma, şər-böhtan xarakterli informasiyalar yayaraq “hər-kəsi hər kəsin gözündən salmaq” prosesini aparmağa çalışanlar az deyildi. Bununla həm fərdi, həm də kollektiv səviyyədə Azərbaycanın Vətən, ölkə, mədəniyyət məkanı, siyasi dövlət olaraq dəyərsiz obrazını yaratmaq cəhdləri getdikcə genişlənirdi.

Bu üç absenteist tendensiyanı dayandırmaq incə bir ideyanı, mənəvi dəyəri yaratmağı aktuallaşdırırdı ki, nəticəsi bütövlükdə Azərbayanı birləşdirsin. Elə bir ideya ki, müasir mərhələdə cəmiyyətin milli maraqlar üzərində əbədi birliyini təmin etsin və bu baxımdan identikliyin bazası rolunu oynasın. Onu ulu öndər Heydər Əliyev müəyyən etdi – Azərbaycançılıq! Yəni hər bir Azərbaycan insanı özünə dəyər verməli, azərbaycanlı olması ilə fəxr etməli, dilini, dinini, mədəniyyətini, adət-ənənəsini, yurdunu, Vətənini sevməlidir.

Azərbaycançı azərbaycanlı olması ilə qürur duyandır. Azərbaycançı “öncə Vətən” deməyi təbii haqqı və hüququ sayandır. Azərbaycançı Azərbaycanın tarixi və müasir mədəni, siyasi, coğrafi, demoqrafik məkanında yaşayan hər bir kəsi özününkü sayandır, ona saygı ilə yanaşandır, onu duyandır, azərbaycanlılığını yüksək qiymətləndirəndir. Azərbaycançı Azərbaycanın dövləti, mədəni və siyasi müstəqilliyinin aşiqidir. Azərbaycançı əsl Vətənsevərdir. Azərbaycançı etnik mənsubluğundan asılı olmayaraq, dövlətçilik və siyasi anlamda əsl “türk”dür!

Bütün bunlar azərbaycançılığı müasir tariximizdə identikliyin mənəvi, siyasi və ideoloji “baza sahəsi” kimi yenidən aktuallaşdırdı. Ulu öndər bu möhtəşəm tarixi keçidi məharətlə həyata keçirdi. Ancaq bununla kifayətlənmədi – azərbaycançılığı müasir güclü müstəqil dövlət qurmaq fəlsəfəsi və onun praktiki reallaşdırılması kursunun təməlinə üzvi surətdə daxil etdi! Bununla artıq Azərbaycanda dövlətçilik tarixinin yeni mərhələsi başlayır!

### Azərbaycançılıq və “bir millət, iki dövlət”

Azərbaycançılığı Heydər Əliyev anlamında tam dərk etmədən “bir millət, iki dövlət” kəlamının əsl məna, mahiyyət və məqsədini düzgün təsəvvür etmək imkansızdır. Bu kəlamın ideya, mənəvi, siyasi, ideoloji təməlində azərbaycançılıq məfkurə statusunda dayanır! Burada heç bir ziddiyyət yoxdur. Çünki Heydər Əliyev məsələni romantik müstəvidə qoymamışdır. Ulu öndər müasir mərhələdə müstəqil dövlət qurmağın ciddi fəlsəfi, siyasi, nəzəri və ideoloji çərçivəsini müəyyən etmişdir. “Bir millət, iki dövlət” bu baxımdan özünüyeniləşdirən bir ideya, mənəviyyat və fəaliyyət sistemidir. Həmin sistemin tərkib hissələri arasında harmonik münasibətlər yaradan faktor-proses-parametr isə Azərbaycançılıqdır! Bəlkə də bu tezis bir qədər qeyri-adi səslənir. Lakin onun ideya və fikir kimi qaynaqlarına fəlsəfi nəzər salanda hər şey aydınlaşır.

Məsələ onunla əlaqəlidir ki, “bir millət, iki dövlət” kəlamının məntiqi və siyasi-ideoloji bünövrəsinə millətin eyni olması əsasında iki müstəqil dövlətin mövcudluğu şərt kimi qoyulmuşdur. Yəni istənilən halda dövlət faktoru əsas yer tutur. Əgər dövlət bu kəlamda müəyyənedici faktordursa, onda cəmiyyətin öz dövlətinə münasibəti məsələsi də ön plana çıxır. Dövlətə münasibətin təməlində isə insanın (bu halda, vətəndaşın) xalqına, vətəninə, yurduna, mədəniyyətinə, mənəvi-əxlaqi dəyərlərinə, adət-ənənəsinə, dilinə və dininə münasibəti dayanır.

Deməli, “bir millət, iki dövlət” nəinki hansısa ölkəni və cəmiyyəti digərinin kölgəsinə atmır, əksinə hər ikisinə əsl müstəqil dövlət olmaq üçün real azad və müstəqil cəmiyyət qurmağı strateji məqsəd kimi müəyyən edir. Çünki yalnız real olaraq güclü, müstəqil və dövlətlərarası münasibətlərdə etibarlı olan ölkə bir millətin iki dövlətindən biri kimi özünü təsdiq edə bilər. Bu keyfiyyətin təməli isə cəmiyyətin Vətənsevərliyidir! Azərbaycanda azərbaycançı olmayan insan Azərbaycan-Türkiyə münasibətinin qardaşlığının siyasi, hüquqi, mədəni, dövləti və mənəvi-əxlaqi tərəfini anlaya bilməz. Öz yurdunu “görə” bilməyən, iki dövlətin ortaq maraqlarını düzgün “görə bilməz”: ya özünü qardaşından asılı, ya da qardaşını özündən asılı təsəvvür edəcək. Bu yanşma isə gerçəkçi müstəqil və hüquqi dövlət qurmağa fayda vermir. Onun sonu iflasdır!

Deməli, Azərbaycandan baxanda “bir millətin iki dövləti” kəlamı azərbaycançılığı zəruri halda ideologiyanın bazasına yerləşdirir. Burada meydana çıxan bir məqamı aydınlaşdırmağa ehtiyac yaranır.

Azərbaycançılıq “bir millət, iki dövlət” kəlamı kontekstində Türkiyə ilə münasibətlərdə hansı mənada birləşdirici rol oynaya bilər? Axı, türkiyəlilər Azərbaycan vətəndaşları deyillər və bu anlamda Azərbaycançılıq necə birşləşdirici məfkurə ola bilər? Bu məqamda azərbaycançılığın araşdırılmayan bir özəlliyi aktuallaşır. Məsələ onunla bağlıdır ki, Azərbaycançılıq Vətənsevərliyi yalnız azərbaycanlılarla məhdudlaşmayan məfkurədir - onun məna, mahiyyət və məqsəd baxımından nüfuz üfüqü çox genişdir. İstənilən türk dövlətinə onu proyeksiya etmək olur.

Çünki Azərbaycançılıq müasir tələblər səviyyəsində milli ilə beynəlmiləlçiliyə, ölkəçiliklə ölkələrarası münasibətlərə, bir dövlətlə bir neçə dövlətin münasibətlərinə, bir cəmiyyətlə çoxlu sayda cəmiyyətlərə bir bucaq altında baxmaq və qəbul etmək xüsusiyyətinə malikdir. Bu birləşdirici potensialın təməlində mədəniyyət faktoru dayanır – milli və bəşərinin vəhdəti. Onun qaynağı isə Türk qövmünün dünyaya ədalət, sülh, barış və düzən yaymaq missiyasındadır. Deməli, türk toplumu başqa cür mövcud ola bilmir və onun qurduğu dövlət avtomatik olaraq ədalət və əməkdaşlıq rəmzi olmalıdır, əks halda dağılar!

Buradan baxanda “bir millət, iki dövlət” kəlamının semantik və kommunikativ sərhədləri daxilində azərbaycançılığın Türkiyəyə proyeksiyası o cəmiyyətdə türkiyəçiliyin bərqərar olmasını stimullaşdırması ilə bağlıdır. Bu, ümumtürk identikliyinə aparan yolda mühüm məqamdır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Haaqa səhnəsində NATO müzakirələri

**(əvvəli 1-ci səhifədə)**

Mürəkkəb geosiyasi mənzərədə keçiriləcək Haaqa sammiti alyansın daxili konsolidasiya səviyyəsini ölçmək və yeni strateji prioritetlərini müəyyənləşdirmək baxımından kritik əhəmiyyət daşıyır. Sammitin gündəliyində yer alacaq məsələlər, xüsusilə Ukrayna müharibəsi kontekstində NATO-nun genişlənmə siyasəti və Rusiya ilə münasibətlərin gələcəyi həm regional, həm də qlobal təhlükəsizlik arxitekturasına birbaşa təsir göstərmək potensialına malikdir.

Azərbaycan üçün isə bu proseslərin izləyicisi olmaqdan daha çox, dəyişən geosiyasi şərtlər daxilində strateji mövqe formalaşdırmaq zərurəti yaranır. Haaqa sammitində səslənəcək ritorika, qəbul ediləcək qərarlar və formalaşacaq mövqelər Azərbaycanın öz təhlükəsizlik siyasətini, enerji diplomatiyasını və regional təşəbbüslərini yenidən nəzərdən keçirməsi üçün mühüm siqnallar verə bilər.

***

NATO-nun yaradıldığı 1949-cu ildən bu günə qədər onun əsas funksiyası yalnız kollektiv müdafiə öhdəliyinə əsaslanmaqla məhdudlaşmayıb; eyni zamanda təşkilat liberal beynəlxalq nizamın, transatlantik həmrəyliyin və Qərb dəyərləri üzərində qurulmuş geosiyasi identikliyin simvoluna çevrilib. Soyuq müharibə dövründə Varşava Paktı ilə üz-üzə duran NATO üçün ideoloji birlik siyasi iradənin formalaşmasında mühüm əhəmiyyət kəsb edirdi. Birliyin mərkəzində ABŞ-ın liderliyi və Avropa müttəfiqlərinin onunla strateji konsensusu dayanırdı. Lakin bugünkü qlobal reallıqlar bu konsensusu ciddi şəkildə sarsıdır.

Müasir dövrdə NATO-nun daxili dinamikasında müşahidə olunan ziddiyyətlər artıq, sadəcə, taktiki mövqelərin müxtəlifliyi ilə izah edilə bilməz. Alyans daxilində ideoloji baxımdan bir-birindən uzaqlaşan konseptual yanaşmalar birliyə yönəlmiş dərin strateji təhdidlərə çevrilməkdədir. ABŞ və Avropa müttəfiqləri arasında təhlükəsizlik prioritetlərinin fərqlənməsi, müdafiə xərcləri ilə bağlı gərginliklər və beynəlxalq böhranlara münasibətdə sərgilənən fərqli yanaşmalar NATO-nun ortaq strateji xəttini zədələyir. Fransa Prezidenti Emmanuel Makronun alyansın “beyin ölümünün baş verdiyini” bəyan etməsi strukturun intellektual və siyasi dayanıqlılığına ünvanlanmış ciddi xəbərdarlıqdır.

Fikir ayrılıqları həm də Qərbin daxilində formalaşan yeni güc münasibətlərinin təzahürüdür. Aİ daxilində bəzi ölkələr - xüsusilə Fransa və Almaniya - ABŞ-dan daha müstəqil müdafiə və təhlükəsizlik strategiyası formalaşdırmaq istəyirlər. Bu cür təşəbbüslər “strateji muxtariyyat” anlayışı altında əsaslandırılsa da, əslində, onlar NATO-nun geosiyasi koordinasiya mexanizmini zəiflədən faktorlardan birinə çevrilir. ABŞ isə NATO-ya münasibətdə daha utilitar yanaşma sərgilədi və alyansın davamlılığını öz maraqlarına xidmət etdiyi qədər əsaslandırmağa çalışdı. Bu isə Avropa müttəfiqlərində etimad böhranı yaratdı, transatlantik münasibətlərdə uzunmüddətli sarsıntıların bünövrəsini qoydu.

Rusiya ilə münasibətlər kontekstində də NATO daxilində vahid mövqe formalaşdırmaq getdikcə çətinləşir. Şərqi Avropa ölkələri və Baltikyanı dövlətlər Rusiyaya qarşı sərt və prinsipial mövqe tələb etdiyi halda, Almaniya və Fransanın daha praqmatik və iqtisadi maraqlarla uzlaşan mövqeləri alyans daxilində parçalanmalara yol açır. Ukraynadakı müharibə bu ziddiyyətləri daha da kəskinləşdirib. NATO Ukraynaya dəstək versə də, bu dəstəyin forması və miqyası ilə bağlı konsensusdan uzaq mənzərə mövcuddur. Nəticədə, Rusiya ilə qarşıdurma fonunda NATO-nun operativ qərar qəbuletmə qabiliyyəti sual altına düşür və təşkilatın strateji effektivliyi azalır.

***

Haaqa sammiti bu baxımdan NATO-nun daxili birlik və funksional bütövlüyünün sınağa çəkildiyi kritik nöqtədir. Sammitdə formalaşacaq qərarlar və ifadə ediləcək mövqelər NATO-nun gələcək strateji konturlarını müəyyənləşdirə bilər. Əgər alyans üzvləri arasında ideoloji paralelliklər əvəzinə milli maraqların toqquşması davam edərsə, NATO-nun yalnız hərbi deyil, siyasi struktur kimi də dağılma riski qaçılmaz olacaq. Geosiyasi baxımdan, bu, yalnız NATO üçün deyil, qlobal güc balansı üçün də əhəmiyyətlidir. NATO-nun zəifləməsi Avropada təhlükəsizlik boşluğu yarada bilər və bu boşluğu ya Rusiya kimi revizionist güclər, ya da regional təhlükəsizlik təşəbbüsləri doldurmağa çalışacaq ki, bu da qlobal sabitliyin yeni sınaqlarla üz-üzə qalması deməkdir.

Ukrayna münaqişəsi NATO-nun daxilində ideoloji və strateji fikir ayrılıqlarını açıq şəkildə üzə çıxarıb və alyansın gələcək inkişaf istiqamətinə dair dərin suallar yaradıb. Ukraynanın NATO-ya üzvlüyü məsələsi alyansın kimliyini və təhlükəsizlik fəlsəfəsini yenidən formalaşdırmaq çağırışıdır. Bir tərəfdə Rusiyaya qarşı prinsipial mövqe sərgiləyərək alyansın genişlənməsini müdafiə edən ölkələr dayanır, digər tərəfdə isə bu genişlənmənin birbaşa hərbi toqquşma riski daşıdığına dair ehtiyatlı, hətta çəkinən yanaşmalar mövcuddur. Ziddiyyətlər NATO-nun daxili parçalanma riskini artırmaqla yanaşı, alyansın





qərar qəbuletmə mexanizmlərinin effektivliyinə ciddi təsir göstərir. Beləcə, NATO artıq, sadəcə, kollektiv müdafiə doktrinası ilə kifayətlənmir, həm də müasir dövrdə təhlükəsizlik anlayışının və liberal dəyərlərin qorunması məsələsində özünü yenidən tanımaq məcburiyyətindədir.

***

NATO-nun Haaqa sammiti yalnız Avropanın şərq sərhədlərini yox, Cənubi Qafqaz regionunu da birbaşa təsir dairəsinə daxil edir. Bu bölgə, xüsusilə Azərbaycanın mövqeyi sayəsində qlobal geosiyasi oyunların strateji kəsişmə nöqtəsinə çevrilib. Zəngəzur dəhlizi və Orta Dəhliz kimi nəqliyyat və enerji layihələri Azərbaycanın regionun təhlükəsizlik məkanında önəmli aktor kimi çıxış etməsini təmin edir. Haaqa sammitindən çıxacaq qərarlar Qərbin regiondakı mövcudluğunun möhkəmlənməsi və ya zəifləməsi istiqamətində yeni mərhələnin başlanğıcı ola bilər. NATO Ukrayna məsələsində daha sərt mövqe tutarsa, bu, Cənubi Qafqazda Rusiya təsirini balanslaşdırmaq üçün müsbət şərait yarada bilər. Əks halda, qeyri-müəyyənlik və regional risklərin artması ehtimalı güclənəcək.

Azərbaycan Haaqa sammitində daha çox prosesləri müşahidə edən deyil, onlara aktiv təsir göstərən mərkəzi aktorlardan biri kimi çıxış edir. Bakı üçün bu sammit həm də enerji bazarlarında rəqabət qabiliyyətinin artırılması və yeni tərəfdaşlıqların qurulması baxımından mühüm mərhələdir. Azərbaycanın yaşıl enerji siyasəti, enerji diplomatiyasında əldə etdiyi uğurlar və beynəlxalq əməkdaşlıqlarda tətbiq etdiyi çevik yanaşmalar onun regional liderliyini və qlobal nüfuzunu artırır.

***

Türkiyənin NATO daxilində artan rolu və geopolitik təşəbbüsləri Azərbaycanın diplomatik imkanlarını əhəmiyyətli dərəcədə artırır. Ankara həm Qərblə, həm də Rusiya ilə balanslı, lakin prinsipial xarici siyasət yürüdərək, Cənubi Qafqazda yeni geosiyasi nizamın formalaşmasında fəal iştirak edir. Türkiyənin NATO daxilindəki mövqeyi və bölgədə təşəbbüskarlığı Azərbaycanla strateji ittifaqını möhkəmləndirir və regionda koordinasiyalı hərəkət üçün əlverişli şərait yaradır. Haaqa sammiti bu baxımdan Türkiyə–Azərbaycan tandeminin regional və beynəlxalq səviyyədə təsir dairəsinin genişlənməsi üçün yeni platforma təqdim edə bilər.

Nəticə olaraq qeyd edə bilərik ki, Haaqa sammiti NATO-nun birliyini qorumaq və ya yenidən formalaşdırmaq məsələsində dönüş nöqtəsidir. NATO parçalanacaqmı, yoxsa yenidən doğulacaqmı?

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki, siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Türk dünyasında ailə dəyərləri uca tutulur

**Türk Dövlətləri Təşkilatının Ailə Məsələləri və Sosial Siyasət Sahəsinə Məsul Nazir və Qurum Rəhbərlərinin II iclası çərçivəsində "Güclü ailələr, güclü toplumlar: TDT ölkələrində ailəni dəstəkləyici siyasətlər" mövzusunda toplantı keçirilib.**



Türkiyənin Ailə və sosial xidmətlər naziri Mahinur Özdəmir Göktaş türk dünyasının ortaq dəyərlərindən biri olan ailəni qorumağın və gələcək nəsillərə çatdırmağın vacibliyini qeyd edib. O vurğulayıb ki, Prezident Rəcəb Tayyib Ərdoğanın təşəbbüsü ilə 2025-ci ilin "Ailə ili" elan edilməsi, bu sahədə Türkiyənin qətiyyətini və baxışını əks etdirir. Nazir bildirib ki, türk dövlətləri ortaq tarix və mədəniyyət zəminində ailə mərkəzli siyasətlər ətrafında birləşərək bu sahədə əməkdaşlığı gücləndirir. Bu sahədə əməkdaşlığın inkişafında Azərbaycan xüsusi rol oynayır. Görüş, bütövlükdə, Türk Dövlətləri Təşkilatı üçün də faydalı olacaq.

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova qardaş Turkiyənin ailə və demoqrafik tərəqqini hədəfləyən addımlarını və bu sahədəki qətiyyətli mövqeyini alqışlayıb. Bildirib ki, ailə dəyərlərinin qorunması artıq təkcə mədəni məsələ deyil, həm də strateji əhəmiyyət daşıyır. Azərbaycan bu reallıqları nəzərə alaraq ailə siyasətini daim yeniləyir və onu zamanın tələblərinə uyğun şəkildə inkişaf etdirir. Bahar Muradova Türk Dövlətləri Təşkilatının ailə anlayışını gələcəyin əsas dayağı kimi qəbul etməsinin önəmini də vurğulayıb.

Şimali Kiprin Əmək və sosial müdafiə naziri Sadık Gardiyanoğlu, Türkmənistanın Əmək və sosial müdafiə nazirinin müavini Halbibi Tachjanova, Qazaxıstanın Gənclər və Ailə Məsələləri Komitəsinin sədri Kairat Kambarov və Türk Dövlətləri Təşkilatı Baş katibinin müavini Ömər Kocaman müzakirə edilən mövzu ilə bağlı mülahizələrini söyləyiblər.

Toplantı işgüzar müzakirələrlə davam edib. Məclisdə Türk dünyasında ailənin önəmindən bəhs edən video-çarx nümayiş etdirilib.

***Zərifə HÜSEYNOVA***
***XQ***

# Şeyxülislam ÜKŞ baş katibini ədalətli olmağa çağırıb

**Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə Ümumdünya Kilsələr Şurasının Baş katibi Jerry Pilleyə məktub ünvanlayıb.**



Müraciətində şeyxülislam Allahşükür Paşazadə Baş katib Jerry Pilleyi Azərbaycanda görmək istəyini ifadə edib.

QMİ sədri diqqətə çatdırıb ki, Azərbaycan dünyada dinlərarası dialoq və əməkdaşlıq məkanı olaraq tanınır. Dini mərkəz olaraq Qafqaz Müsəlmanları İdarəsi bu proseslərdə fəal iştirak edir, dünyanın bütün nüfuzlu dini mərkəzləri ilə əməkdaşlıq müstəvisində sıx əlaqələr saxlayır.

Məktubda qeyd olunur: "Bizi narahat edən məqam ondan ibarətdir ki, 1993-cü ildə keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinə töhfə verən və münaqişənin dini mahiyyət kəsb etmədiyini o vaxt təsdiq edən ÜKŞ-nin hazırda ermənipərəstliyi, xristian təəssübkeşliyi ilə verilən birtərəfli bəyanatları, sizin Baş katib olaraq erməni tərəfinin açıq-aydın təsiri altında verdiyiniz açıqlamalar Ümumdünya Kilsələr Şurasının sülhpərvər nüfuzuna və ədalətli mövqeyinə xələl gətirir, onun dinlərarası əməkdaşlıq müstəvisində fəaliyyətinə kölgə salır, dinlərarası dialoq işinə sağalmaz zərbə vurur".

Şeyxülislam Allahşükür Paşazadə daha sonra bildirib: "Cari ilin mayın 27-28-də Berndə keçirilən konfrans zamanı sizin çıxışınızla bağlı bir daha nəzərinizə çatdırmalıyam ki, Azərbaycanın dünya birliyi tərəfindən tanınan 86,6 min kvadratkilometr ərazisində "Artsax" adlı inzibati vahid mövcud deyildir".

Şeyxülislam sonda vurğulayıb ki, biz dini liderlərin müqəddəs vəzifəsi dünyanın daha əmin-aman olmasına, ədalətin bərqərarı işinə öz töhfələrimizi verməkdir. Bu məramla çağırış edirəm ki, erməni kilsəsinin kövrək sülh şəraitini pozan qızışdırıcı, revanşist həqiqətə uyğun olmayan təbliğatına və xristian təəssübkeşliyindən sui-istifadə cəhdlərinə ÜKŞ tərəfindən bundan sonra dəstək verilməsin.

***XQ***

# Konstitusiya və etnomədəni müxtəliflik

**Dünən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Konstitusiya etnomədəni müxtəlifliyin qarantı kimi" mövzusunda konfrans keçirib.**



Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov toplantının önəmini qeyd edərək söyləyib ki, Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi hər iki tarixi hadisənin müstəqillik epoxamıza qızıl hərflərlə yazıldığının və xalqımızın yaddaşında əbədiyaşarlıq qazandığının parlaq göstəricisidir. Konstitusiya Azərbaycanın suverenliyinin təmin olunmasında əsas hüquqi bazadır, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşının hüquq və azadlıqlarının təmin edilməsinin təməlidir. Qarabağ zəfəri isə ərazi bütövlüyümüzü bərpa etməklə dövlət suverenliyimizi də ölkə miqyasında bərqərar etdi.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi himayəçilik şurasının sədri, Azərbaycan Dillər Universitetinin rektoru akademik Kamal Abdulla bildirib ki, müstəqil dövlətimizin konstitusiyası ölkədə yaşayan bütün etnik və dini qrupların hüquqlarının qorunmasına, onların azad şəkildə öz mədəniyyətlərini, dillərini və ənənələrini yaşatmasına zəmanət verən əsas hüquqi sənəddir. Konstitusiyada təsbit olunmuş multikultural dəyərlər Azərbaycanın tarixindən, onun çoxmillətli və çoxkonfessiyalı cəmiyyət quruluşundan qaynaqlanır. Akademik qeyd edib ki, Azərbaycan dövləti etnik və dini müxtəlifliyi milli sərvət kimi qəbul edir və bu müxtəlifliyin qorunması üçün ardıcıl və məqsədyönlü siyasət həyata keçirir.

Azərbaycan Respublikasının Milli Məclisinin sədrinin müavini Musa Qasımlı qeyd edib ki, konstitusiya ölkənin siyasi sabitliyinin və demokratik inkişafının əsas hüquqi çərçivəsini müəyyənləşdirir və burada əks olunan multikultural dəyərlər tarixən formalaşmış milli birlik və tolerantlıq ənənələrinin davamıdır. Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa isə bildirib ki, konstitusiya azadlıq və tolerantlıq prinsiplərinin dövlət siyasətinə çevrilməsini təmin edir və bu, Azərbaycanın beynəlxalq nüfuzunu artırır.

Milli Məclisin deputatları Tural Gəncəliyev, Mixail Zabelin Azərbaycan cəmiyyətində multikultural dəyərlərin möhkəmlənməsində parlamentin vətəndaş cəmiyyəti ilə əməkdaşlığının əhəmiyyətini vurğulayıblar. Ombudsman Aparatının rəhbəri Aydın Səfixanlı isə insan hüquqlarının qorunması sahəsində konstitusiyanın əsas rolunu diqqətə çatdırıb və bildirib ki, bu sənəd hər bir vətəndaşın hüquq və azadlıqlarının təminatçısıdır.

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Hacı Fuad Nurullayev, Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev və Avropa Yəhudilərinin Bakı Dini İcmasının sədri Aleksandr Şarovski çıxışlarında qeyd ediblər ki, Azərbaycanda bütün dinlərin nümayəndələri sülh, qarşılıqlı hörmət və əməkdaşlıq şəraitində yaşayır.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Vüsal Göyüşov və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin üzvü Cavid Əliyev deyiblər ki, Azərbaycanın Konstitusiyası milli-mədəni dəyərlərin qorunmasına, dini və etnik müxtəlifliyin inkişafına imkan verən hüquqi baza yaradır və bu da dövlətin multikulturalizm siyasətinin davamlılığını təmin edir.

Konfransda "Heydər Əliyev və Azərbaycan Multikulturalizmi" sənədli filmi nümayiş olunub.

***T.RÜSTƏMLİ***
***XQ***

# Fransa səfirimiz BMT Konfransında



**Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ötən il okeanlarla da qırılmaz şəkildə əlaqəli olan iqlim dəyişikliyi ilə bağlı mühüm toplantı - COP29 beynəlxalq konfransı Bakıda uğurla keçdi. Okeanları təcili olaraq qorumağımızın bir çox səbəbi var. Okeanlar biomüxtəlifliyin böyük su anbarlarıdır, davamlı balıqçılıq üçün həyati əhəmiyyət kəsb edir və milyardlarla insanın ərzaq təhlükəsizliyi üçün vacibdir.**

Bu fikirləri Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri-14 çərçivəsində keçirilən BMT-nin Okean Konfransındakı çıxışında deyib.

O bildirib ki, Xəzər dənizinin sahilində yerləşən ölkə kimi öz ətraf mühitini qorumaq üçün qətiyyətli addımlar atıb. İlk Dəniz Mühafizəsi Ərazisi yaradıb və Xəzər dənizində ilk ümid məkanını elan edib ki, bu da regionda dənizin mühafizəsi istiqamətində mühüm addım oldu.

Səfir vurğulayıb ki, məhz Azərbaycanın təşəbbüsü ilə BMT-nin COP29 beynəlxalq konfransında Xəzər kimi daxili dənizlər də daxil olmaqla, ortaq su obyektləri üzrə əməkdaşlığı inkişaf etdirmək üçün İqlim Fəaliyyəti üçün Su üzrə Bakı Dialoqu başladı. Həmçinin ölkəmizin Milli Biomüxtəliflik Strategiyası və Fəaliyyət Planı yenilənir, zəngin biomüxtəlifliyi qorumaq və artırmaq üçün aydın məqsədlər, hədəflər və tədbirlər müəyyən edilib. Bu, Kunminq-Monreal Qlobal Biomüxtəliflik Çərçivəsinə uyğundur.

***XQ***

# Budapeştdə Qərbi Azərbaycan müzakirəsi

**Qərbi Azərbaycan İcması İdarə Heyəti sədrinin müavini, Milli Məclisin deputatı Qaya Məmmədov Macarıstanın paytaxtı Budapeştdə keçirilmiş "Qafqazın açarı: Geosiyasət və Azərbaycanın humanitar gündəliyi" mövzusunda konfransda iştirak edib.**

Məclisdə çıxış edən Q.Məmmədov Qərbi Azərbaycan məsələsinin tarixi, miqyası, Qərbi Azərbaycan İcmasının sülh yolu ilə qayıdış məqsədilə beynəlxalq hüquq çərçivəsində fəaliyyəti barədə ətraflı məlumat verib.

Konfransda bildirilib ki, məcburi köçkünlərin təhlükəsiz şəkildə qayıdışına əngəl törədən mina problemi və Qərbi Azərbaycan məsələsinin birlikdə təqdim edilməsi Ermənistan tərəfindən işğal, dağıntı və etnik təmizləmə ilə müşayiət olunmuş keçmiş münaqişənin Azərbaycan xalqı üçün ağır humanitar nəticələrinin işıqlandırılması baxımından faydalı olub.

***XQ***

## Naxçıvan xəbərləri

# Muxtar respublikada karyera sərgisi

**Dünən Naxçıvan şəhərində II karyera sərgisi açılıb. Aksiyada çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli bildirib ki, Naxçıvanda keçirilən digər mühüm tədbirlər kimi karyera sərgisi də artıq ənənə halını alıb.**



"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı üzrə 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın əhəmiyyətinə toxunan səlahiyyətli nümayəndə Dövlət Proqramının icrasında gənclərin rolundan danışıb, karyera sərgisinin fəaliyyətinə uğurlar arzulayıb.

Fuad Nəcəfli qeyd edib ki, muxtar respublikada həyata keçirilən islahatlar, kadrları və iqtisadiyyatı, eləcə də digər sahələri əhatə edir. Artıq süni intellekt həyatımıza daxil olub və bir çox sahələrdə insanları əvəz etməyə qadirdir. Əgər bu yeniliklər "yaşıl enerji", kənd təsərrüfatı, iqtisadiyyat, nəqliyyat infrastrukturu və turizm kimi sahələrdə tətbiq edilsə, böyük uğurlar əldə olunacaq.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev isə bildirib ki, ötən il keçirilən I karyera sərgisində təqdim olunan şəxsi məlumatlar əsasında artıq 100-ə yaxın şəxs işlə təmin edilib. Budəfəki sərgidə 28 dövlət, 14 özəl müəssisə olmaqla, ümumilikdə, 42 təşkilat vakant vəzifə çıxarıb.

Məlumat verilib ki, iki gün davam edəcək sərgiyə 5 mindən çox tələbə və məzun olmaqla, ümumilikdə, 7 min iştirakçının qatılacağı gözlənilir. Onlar müəssisə nümayəndələri ilə görüşmək, şəxsi məlumatlarını təqdim etmək, təcrübə və vakant iş yerləri haqqında birbaşa məlumat almaq imkanı əldə edəcəklər. Sərgi müddətində Bakı şəhərindən dəvət olunmuş peşəkar mütəxəssislər tərəfindən müxtəlif mövzularda təlimlər keçiriləcək.

# Naxçıvan heyəti İranda

**Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədlinin rəhbərlik etdiyi nümayəndə heyəti İran İslam Respublikasının Qərbi Azərbaycan vilayətinin Maku şəhərində keçirilən II Maku Azad Zona İqtisadi Forumunda iştirak edib.**



Maku Azad İqtisadi Zonanın icraçı direktoru Hossein Garuisi forumun əhəmiyyətindən və Maku Azad İqtisadi Zonanın imkanlarından bəhs edib.

Sonra Qərbi Azərbaycan valisi – ostandarı Reza Rahmani, İran Azad Ticarət Zonalarının baş direktoru Reza Masrur, İran Prezidentinin müşaviri Muhammed Nuri və digər rəsmi şəxslərin çıxışları olub.

Samir Seyidəhmədli ölkələrimiz arasındakı əlaqələrdən söz açaraq Prezident İlham Əliyevin rəhbərliyi ilə bu sahədə görülən işləri, xüsusilə də ikitərəfli əməkdaşlığın prioritet istiqamətlərini diqqətə çatdırıb. O, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın yaxın vilayətləri arasındakı əlaqələrə də toxunub, forumun ikitərəfli münasibətlərin inkişafındakı əhəmiyyətini də vurğulayıb.

Forum çərçivəsində mədəniyyət, turizm, infrastruktur, nəqliyyat, sənaye, aqrar və kənd təsərrüfatı sahələri üzrə panel müzakirələr keçirilir.

# Bülövqayada arxeoloji qazıntı

**AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, professor Vəli Baxşəliyevin rəhbərlik etdiyi Bülövqaya arxeoloji ekspedisiyası yeni mövsümdə arxeoloji qazıntılara başlayıb.**



Babək rayonunun Göynük kəndi yaxınlığında yerləşən Bülövqaya yaşayış yerində aparılan arxeoloji qazıntılar zamanı Ubeyd mədəniyyətinə aid maddi-mədəniyyət nümunələri, o cümlədən boyalı keramika, mədənçilik alətləri aşkar olunub.

Araşdırmalar nəticəsində müəyyən olunub ki, bu maddi-mədəniyyət nümunələri, yarımköçəri həyat tərzi keçirən tayfaların şimala, o cümlədən Naxçıvana doğru hərəkəti ilə bağlı olub. Ubeyd tayfalarının şimala doğru hərəkəti Cənubi Qafqazın bol otlaqları, zəngin xammal mənbələri, o cümlədən obsidian və mis yataqları ilə bağlı olub. Bu tapıntılar Azərbaycanla Şimali Mesopotamiya arasında sıx iqtisadi-mədəni əlaqələrin mövcud olduğunu, Yaxın Şərqə şəhərləşməni gətirən Ubeyd tayfalarının Naxçıvan ərazisində məskən saldığını təsdiqləyir.

***Səbuhi HƏSƏNOV***
***XQ***

# TANAP – Azərbaycandan Türkiyəyə "mavi" körpü

## *7 ildə bu kəmərlə qardaş ölkəyə 33,6 milyard kubmetrdən çox qaz nəql olunub*




**Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağından çıxarılan təbii qazın ölkənin hüdudlarından kənara nəql edən Trans-Anadolu Qaz Boru Kəmərinin (TANAP) ilk hissəsinin istifadəyə verilməsindən 7 il ötür.**

Azərbaycan və Türkiyənin birgə reallaşdırdığı ən uğurlu enerji layihələrindən biri olan TANAP regionun və Avropanın enerji xəritəsini yenidən formalaşdıran, beynəlxalq əməkdaşlığın uğurlu nümunəsi sayılan Cənub Qaz Dəhlizi layihəsinin əsas seqmentlərindən birini təşkil edir. "Şahdəniz" qazının kommersiya məqsədli nəqlinə başlanmasından bəri bu boru kəməri ilə 82 milyard kubmetr "mavi yanacaq" daşınıb. Bunun da 33,6 milyard kubmetri Türkiyə, 42,5 milyard kubmetri isə Avropaya ixrac olunub.

"Enerjinin İpək yolu" adlandırılan TANAP layihəsi üzrə saziş 2012-ci il iyunun 26-da İstanbulda imzalanıb. 2015-ci il martın 12-də boru kəmərinin təməli qoyulub. Kəmərin Türkiyə ərazisində doldurulmasına 2018-ci ilin yanvar ayının sonunda start verilib. Həmin il iyunun 12-də Türkiyənin Eskişehir şəhərində TANAP-ın Türkiyə hissəsinin açılışı keçirilib. Qardaş ölkəyə ilk kommersiya qazının tədarükü 2019-cu il iyunun 30-da başlayıb. Noyabrın 30-da isə Türkiyənin Ədirnə vilayətinin İpsala şəhərində TANAP-ın Avropa ilə birləşdirilməsinin tamamlanmasına həsr olunmuş təntənəli mərasim keçirilib.

TANAP Cənubi Qafqaz Boru Kəməri (CQBK) və Trans-Adriatik Boru Kəməri (TAP) ilə birlikdə Cənub Qaz Dəhlizinin əsas seqmentlərini təşkil edir. Bu, həm də uzunluğuna və boruların diametrinə görə Yaxın Şərqdə inşa edilmiş ən böyük magistral qaz kəməridir. TANAP Gürcüstan – Türkiyə sərhədindən başlayaraq CQBK sisteminə qoşularaq qardaş ölkənin ərazisindən keçməklə Yunanıstanla sərhədə qədər uzanır. Daha sonra isə təbii qazın Avropaya çatdırılması üçün TAP boru kəmərinə qovuşur. Ümumi dəyəri 7 milyard dollara yaxın olan bu boru kəmərinin ilkin ötürmə gücü ildə 16 milyard kubmetr qaz təşkil edir. Gələcəkdə isə bu həcmin 31 milyard kubmetrə qədər artırılması mümkündür.

Trans-Anadolu boru kəməri və bütövlükdə, Cənub Qaz Dəhlizi Azərbaycanın enerji siyasətinin təntənəsidir. Belə ki, ölkəmiz əvvəllər qaz ehtiyatlarını dörd istiqamətdə ixrac etmək imkanına malik olsa da, yeni əsrdə daha bir nəhəng enerji dəhlizinin yaradılmasına üstünlük verib. Beləliklə, ulu öndər Heydər Əliyevin yeni neft strategiyasını uğurla həyata keçirən Prezident İlham Əliyevin qətiyyəti və məqsədyönlü fəaliyyəti nəticəsində XXI əsrin ən nəhəng enerji layihələrindən olan Cənub Qaz Dəhlizi ideyadan reallığa çevrilib. Azərbaycan qazının Avropaya nəqli üçün ən etbarlı marşrut sayılan Cənub Qaz Dəhlizinin mühüm, sonuncudan əvvəlki seqmenti sayılan Trans-Anadolu qaz kəməri layihəsi Azərbaycan və Türkiyənin birgə enerji əməkdaşlığının, dostluq və qardaşlıq münasibətlərinin təntənəsidir.

Təsadüfi deyil ki, ölkələrimiz arasında enerji sahəsindəki əməkdaşlığın ənənəvi xarakter daşıdığını dəfələrlə bəyan edən dövlətimizin başçısı İlham Əliyev XXI əsrin nəhəng qaz ixracı layihəsinin əhəmiyyəti barədə danışarkən deyib: "TANAP layihəsi dünyada böyük səs salmışdır və dünyada enerji siyasətinin yenidən formalaşması istiqamətində atılan mühüm addımdır. Beynəlxalq aləmdə TANAP layihəsinə olan diqqət onu göstərir ki, Türkiyə və Azərbaycan həmişə olduğu kimi, lazım olan vaxtda birgə təşəbbüs göstərərək, bütün məsuliyyəti öz üzərinə götürərək bu böyük layihəyə start verdi. Ümid edirəm ki, danışdığımız kimi, yaxın beş ildə biz TANAP layihəsinin icrasına nail olacağıq və beləliklə, Azərbaycan Türkiyə üçün önəmli qaz təminatçısı olacaqdır və eyni zamanda, Azərbaycan qazı Türkiyə vasitəsilə Avropaya nəql ediləcək".

Xatırladaq ki, TANAP layihəsi 2011-ci ildə həyata vəsiqə alıb. Belə ki, həmin il oktyabr ayının 25-də Türkiyənin İzmir şəhərində "Azərbaycan Respublikasının Hökuməti və Türkiyə Respublikasının Hökuməti arasında təbii qazın Türkiyə Respublikasına satışı və Azərbaycan Respublikasından gələn təbii qazın Türkiyə Respublikasının ərazisi vasitəsilə tranziti haqqında və təbii qazın Türkiyə Respublikasının ərazisindən nəql edilməsi üçün müstəqil boru kəmərinin inşasına dair" saziş imzalanıb. Həmin il dekabrın 26-da "Türkiyə ərazisində magistral qaz kəmərinin tikintisi üzrə konsorsiumun yaradılması haqqında" Azərbaycan və Türkiyə hökumətləri arasında Anlaşma Memorandumuna imza atılıb. Növbəti ildə isə qaz kəmərinin tikintisi üzrə daha ciddi addımlar atılıb. Belə ki, 2012-ci il iyunun 26-da "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Trans-Anadolu Təbii Qaz Boru Kəməri (TANAP) sisteminə dair" Saziş imzalanıb. Həmin il noyabrın 20-də Azərbaycan Respublikası Milli Məclisinin iclasında hər iki saziş müzakirəyə çıxarılaraq təsdiqlənib. Dövlətimizin başçısı İlham Əliyevin "Azərbaycan və Türkiyə hökumətləri arasında təbii qazın Türkiyəyə satışı və Azərbaycandan gələn təbii qazın Türkiyə ərazisi vasitəsilə tranziti haqqında və təbii qazın Türkiyə ərazisindən nəql edilməsi üçün müstəqil boru kəmərinin inşasına dair" sazişin təsdiq edilməsi haqqında" Qanunu imzalaması ilə Azərbaycanı Avropa ölkələrinin qaz bazarlarına birləşdirən Trans-Anadolu ixrac boru kəmərinə dair hüquqi bazanın formalaşdırılması başa çatdırılıb.

Avropanın enerji təhlükəsizliyi üçün mühüm əhəmiyyət kəsb edən TANAP layihəsi üzrə tikinti işlərinə, təqribən, 5 il vaxt sərf olunub. Azərbaycanı Avropa üçün əhəmiyyətli qaz ixracatçısına çevirən bu layihə üzrə tikinti işlərinə isə 6,5 milyard ABŞ dollarından artıq vəsait xərclənib. Dörd mərhələdə həyata keçirilən layihənin ilk mərhələsi 2018-ci ildə başa çatdırılıb. TANAP-ın Avropaya qaz nəqlini nəzərdə tutan ikinci fazası isə həmin il noyabrın 30-da istifadəyə verilib.

Bununla da, Azərbaycan – Türkiyə iqtisadi əməkdaşlığının tarixində yeni səhifə açılıb. TANAP Azərbaycanın Türkiyə, Gürcüstan və bir sıra Avropa ölkələri ilə enerji sahəsində əməkdaşlığın genişləndirilməsinə, dünyada qaz ixracı marşrutlarının şaxələndirilməsinə, qaz bazarlarına daha çox "mavi yanacağ"ın çıxarılmasına və üçüncü minillikdə dünyada enerji təhlükəsizliyinə mühüm töhfələr verməkdədir.

TANAP kəməri Türkiyənin şərqindən qərbinə qədər 1793 kilometr məsafə qət edir. Bunun da 1339 kilometri Gürcüstan – Türkiyə sərhədindən Əskişəhərədək, 454 kilometri isə Türkiyə – Yunanıstan sərhədinədək olan hissəni əhatə edir. Türkiyənin 20 vilayətindən keçən boru kəmərinin diametri quruda 56 və 48, dənizdə isə 36 düymdür. Maksimum hündürlüyü dəniz səviyyəsindən 2700 metr olan TANAP-dan Türkiyənin qazpaylama sisteminə iki qol ayrılıb. İllik maksimum ötürücülük qabiliyyəti 30,7 milyard kubmetrə hesablanmış kəmər boyunca 12 təmizləyici tərtibatın buraxılma kamerası, eyni sayda təmizləyici tərtibatın qəbulu kamerası, 49 bağlayıcı armatur stansiyası, eləcə də 4 qaz sərfini ölçmə stansiyası quraşdırılıb.

***Vaqif BAYRAMOV***
***XQ***

# BP-nin Azərbaycanda hüquq təhsilinə töhfəsi



**BP şirkəti ölkəmizdə hüquq təhsili sahəsində keyfiyyətin artırılmasına yönəlmiş yeni bir layihəsini təqdim edib. Yerli universitetlərdə hüquqşünaslıq üzrə tədrisin təkmilləşdirilməsi məqsədilə 6 mühüm dərsliyin hazırlanması və nəşrindən ibarət olan bu layihənin məqsədi təhsildə mükəmməlliyin təmin olunmasına dəstək göstərmək, hüquqi savadlılığı təşviq etmək və ölkədə yeni nəsil hüquq mütəxəssislərinin yetişməsinə töhfə verməkdir.**

BP-nin Azərbaycanda təhsilin inkişafına və bacarıqların artırılmasına dəstəyinin bir hissəsi olan layihə çərçivəsində "Beynəlxalq tibb hüququ. Xüsusi hissə", "Azərbaycan Respublikasının Mediasiya hüququ. Ümumi müddəalar", "Mediasiya hüququ. Xüsusi hissə", "Beynəlxalq publik hüquq kursu. Xüsusi hissə" (ikinci cild, ikinci nəşr, yenilənmiş) adlı 5 kitab artıq çapdan çıxıb. Bu silsilədən sonuncu nəşr olan "İnsan hüquqları. Ensiklopediya" isə sentyabrda tamamlanacaq.

Yeni kitabların təqdimat mərasimində çıxış edən BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli təmsil etdiyi şirkətin hüquq təhsili sahəsində resursların yaradılmasına sərmayə qoymaqda məqsədinin yerli hüquq mütəxəssislərinin yüksək keyfiyyətli tədris materialları ilə təmin etməkdən ibarət olduğunu vurğulayıb. Onun sözlərinə görə, yeni kitablar ölkədə hüquq təhsilinin müasirləşməsinə və yüksək səviyyəli, hüquqları dərindən bilən yeni hüquqşünaslar nəslinin formalaşmasına töhfə verəcək. Tədris vəsaitlərinin hər birinin hüquq üzrə alimlər və mütəxəssislərlə sıx əməkdaşlıqda hazırlandığını diqqətə çatdıran BP rəsmisi bu kitabların universitet tələbələrinin, nəzəriyyə müəllimlərinin, eləcə də hazırda praktiki fəaliyyətdə olan hüquqşünasların müasir hüquq resurslarına artan tələbatının qarşılanmasına mühüm töhfə verəcəyinə ümidvar olduğunu bildirib.

Xatırladaq ki, müəllimlər, tələbələr, elmi ictimaiyyətin nümayəndələri, hüquqşünaslar, insan hüquqları müdafiəçiləri, beynəlxalq münasibətlər üzrə mütəxəssislər, magistr və doktorantlar, hüquq alimləri və təcrübəçiləri, eləcə də mediatorlar və siyasətçilər daxil olmaqla geniş auditoriya üçün nəzərdə tutulan bu kitabların nəşrinə 230 min 38 manat (135 min 316 ABŞ dolları) xərclənib. Bu layihə "Müasir Beynəlxalq Hüquq və Davamlı İnkişaf" İctimai Birliyi tərəfindən icra olunur.

Şirkət bununla yanaşı, "Azəri-Çıraq-Günəşli", "Bakı-Tbilisi-Ceyhan", "Şahdəniz" və "Cənubi Qafqaz Boru Kəməri" layihələrindəki tərəfdaşları adından ölkədə qabaqcıl rəqəmsal transformasiya səylərini dəstəkləyən sosial investisiya layihəsinin uğurla tamamlandığını da elan edib. Layihədə məqsəd Azərbaycan Mediasiya Şurasının xidmətlərini təkmilləşdirlmək üçün yeni rəqəmsal platformanın yaradılması idi. Bu təşəbbüs ölkə üzrə mediasiya xidmətlərindən istifadə imkanlarının və bu xidmətlərin səmərəliliyinin artırılması səylərinə əhəmiyyətli töhfədir.

Yeni istifadəyə verilmiş platformada mediasiya xidmətlərinin ümumi idarəçiliyini əhəmiyyətli dərəcədə yaxşılaşdıran geniş çeşidli rəqəmsal funksiyalar təqdim edilib. Yeni platforma bir sıra üstünlükləri ilə diqqət çəkir. Belə ki, vətəndaşlar və hüquqi şəxslər ictimai istifadə imkanlarının təkmilləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyan bu platforma vasitəsilə mediasiya xidmətlərindən daha sürətli və rahat istifadə edə bilərlər. Bununla yanaşı, Mediasiya Şurası daha çox müraciətə baxa və dövlət müəssisələrindən tələb olunan sənədləri real vaxt rejimində əldə edə bilər ki, bu da işin səmərəliliyini xeyli artıracaq.

BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli yeni platformanın təqdimat mərasimində deyib: "Azərbaycan üçün nisbətən yeni olan bu sahənin inkişafına töhfə verən bu layihəni dəstəkləməkdən məmnunuq. Mediasiya Şurasının müraciətləri indiyədək əl ilə idarə etməsi tez-tez gecikmələrə və istifadəçilər arasında narazılığa səbəb olurdu. Artan tələbatı və müasirləşmə ehtiyacını nəzərə alaraq, tərəfdaşlarımızla birlikdə, biz mediasiya prosesinin bütün mərhələlərini sadələşdirən və rəqəmsallaşdıran əhatəli onlayn platformanın yaradılmasına dəstək verdik. İnanırıq ki, ictimai xidmətlərə əsl səmərəlilik və innovasiya gətirən bu layihə Azərbaycanın ədliyyə sisteminin rəqəmsal transformasiyasına mühüm töhfədir."

Qeyd edək ki, Azərbaycan Mediasiya Şurası tərəfindən həyata keçirilən layihənin ümumi dəyəri 126 min 880 manat (74 min 635 ABŞ dolları) təşkil edir. Həmin məbləğə avadanlıqların alınması və quraşdırılması, IT infrastrukturunun, proqram təminatının hazırlanması, portalın yaradılması və yeni platformanın səmərəli istifadəsinin təmin olunması üçün işçi heyətinə təlim keçilməsi daxildir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

**Nazim İmanov – 70**

# Milli iqtisad elmini strateji hədəflərə yönəldən alim

**Azərbaycanın elm-təhsil ictimaiyyəti və iqtisadi qurumları ETN İqtisadiyyat İnstitutunun direktoru, Milli Məclisin keçmiş deputatı, iqtisad elmləri doktoru, professor Nazim Müzəffər oğlu İmanovun anadan olmasının 70 illik yubileyini görkəmli alimin çoxillik səmərəli elmi və ictimai fəaliyyətini sevgi-sayğı və qədirbilənliklə qeyd edir.**



Yubiley münasibətilə ölkə mediasının yaydığı materiallarda yenilikçi və yurdsevər alimin ömür yoluna diqqət və həssaslıqla nəzər salınır, vətəndaş alimin azadlıq və müstəqillik uğrunda ümumxalq hərəkatında önəmli xidmətləri, ölkənin iqsadi-sosial inkişafı proqramlarının hazırlanmasına verdiyi töhfələr yüksək dəyərləndirilir. Bu yazıların müəllifləri sırasında jurnalistlərin də olması tamamilə təbiidir. Nazim İmanov ölkədə söz azadlığının ayaq tutub möhkəmlənməsində də özünün obyektiv mövqeyi, vicdanlı və mötəbər çıxışlari ilə layiqli nüfuz qazanıb.

Onunla tanışlıq və yaxın münasibətlərimiz ötən əsrin 80-ci illərinin "yenidənqurma" oyunlarından qaynaqlanan "çalxalanmalar" dövründən başlanıb. Bu təlatümlər o vaxtlar Bakı Ali Partiya Məktəbi adlanan indiki İdarəçilik Akademiyasından da yan keçmədi. Ali təhsildən sonrakı hərbi müxbirliyi başa vurandan sonra bu nüfuzlu siyasi təhsil ocağında elmi işçi işləyirdim.

Qafqazın kommunist rəhbər kadrlar yetişdirən bu məktəbinin Tofiq Köçərli, Camo Hacınski, İbrahim Müslümov, Tofiq Rəsulov, Məmmədsadıq Sadıqov, İmran Mirzəyev və adlarını sadalamaqla bitməyən görkəmli alimləri ölkənin elm-təhsil və siyasi elitasının nüfuzlu şəxsiyyətləri idilər. Bu yetkin insanların gənc kadrlara övlad münasibətləri yaddaşımda unudulmayan izlər qoyub. O gənclərin çox da böyük olmayan sırasında Nazim müəllim də var idi.

Bircə xatırlamam bəsdir ki, "kommunist libası" altında milli qəlbləri döyünən bu say-seçmə ziyalıların kimliyi aydın görünsün. Sovetlərin çökməsinə hələ neçə il qaldığı bir vaxtda, Azərbaycan Xalq Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadənin adını hörmət və nəvazişlə ilk dəfə bu nadir məktəbin divarları arasında eşitmişdim. Bir gün Azərbaycan KP MK-nın üzvü, onun məşhur jurnalının baş redaktoru və kafedra müdirim İbrahim Müslümovun qonağı olan o vaxtlar Daxili işlər naziri Cəfər Vəliyevin Rəsulzadədən necə məhəbbətlə danışdığının şahidi oldum.

Nazim İmanovu da kommunistlərin daxilən milli ruhlu bu ali məktəbində təzəcə fəaliyyətə başlayanda tanımışdım. Siyasi iqtisad kafedrasına müəllim təyinatı alanda 30 yaşı var idi. Bu kafedraya rəhbərlik edən professor Məmmədsadıq Sadıqovun özünün də kifayət qədər demokratik və milli bir insan olması Nazim müəllim kimi gənclərin buradakı "sərbəstliyinə" münbit şərait yaratmışdı. Nazim müəllim elə o dövrdə də həm elmi düşüncəsi, həm də vətəndaş mövqeyi ilə seçilirdi. Modern düşüncəsi, intellektual səviyyəsi xalq kərəkatı başlayanda onu, sadəcə, akademik auditoriyadan deyil, meydan tribunalarından da görünən bir şəxsiyyət kimi yetişdirmişdi.

Bu o dövr idi ki, Azərbaycan öz tarixinin yeni səhifəsini yazır, SSRİ-nin dağılması fonunda müstəqil dövlət kimi formalaşmaq üçün mübarizə aparırdı. Nazim İmanov və onun kimi ziyalıların iştirakı bu ümumxalq savaşına elmi-ideoloji əsaslar yaradırdı. Karyerasını itirməkdən qorxmayan bu azsaylı ziyalılar xalqın sırasında deyil, önündə gedir, milli oyanış və azadlıq mübarizəsinə siyasi yön verirdi.

Nazim Müzəffər oğlu İmanov 1955-ci il iyunun 11-də Bakı şəhərində dünyaya göz açıb. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu (indiki Azərbaycan Dövlət İqtisad Universiteti) fərqlənmə diplomu ilə bitirib. 1983-cü ildə AMEA-nın İqtisadiyyat İnstitutunda namizədlik dissertasiyasını müdafiə edib. 1990-cı ildə isə Moskvadan – SSRİ İctimai Elmlər Akademiyasından Vətənə iqtisad elmləri doktoru dərəcəsi ilə qayıdıb. 1992-ci ildən professor elmi adı daşıyır. Rus və ingilis dillərində sərbəst danışır.

Nazim İmanov peşəkar fəaliyyətinə 1977–1979-cu illərdə Azərbaycan Dövlət Plan Komitəsi nəzdindəki İqtisadiyyat İnstitutunda kiçik elmi işçi kimi başlayıb. 1982–1986-cı illərdə məzunu olduğu ali məktəbin müəllimi olub. 1986–1991-ci illərdə Bakı Ali Partiya Məktəbində baş müəllim və dosent kimi pedaqoji fəaliyyətini davam etdirib. 1991–1995-ci illərdə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunun professoru və elmi işlər üzrə prorektoru olub.

İqtisadçı alim 2000–2003-cü illərdə bir sıra özəl şirkətlərdə məsləhətçi kimi fəaliyyət göstərib. 2003–2005-ci illərdə isə Avropa İttifaqının eksperti kimi beynəlxalq layihələrdə iştirak edib. 2005–2015-ci illərdə "Qafqaz və qloballaşma" elmi məcmuəsinin baş redaktoru, 2007–2014-cü illərdə isə Azərbaycan Banklar Assosiasiyasının müşaviri olub. 100-dən çox elmi məqalə və tədqiqatın müəllifidir, idarəetmə və qloballaşma məsələlərinə dair araşdırmaları ilə tanınır.

Nazim İmanov 1995-ci il noyabrın 12-də keçirilmiş ilk çağırış parlament seçkilərində Milli Məclisin deputat seçilib. Parlamentdə büdcə məsələləri komissiyasının üzvü kimi bir sıra mühüm təşəbbüslərlə çıxış edib, qanun layihələrinin təkmilləşdirilməsinə töhfəsini verib. Nazim İmanov o dövrün ictimai-siyasi həyatında fəal iştirakı ilə seçilmiş, media ilə sıx əlaqədə olmuş, açıqlamaları geniş əks-səda doğuran ən fəal deputatlardan olub. Hətta media ilə yaxın münasibətlərinə görə "Jurnalistlərin dostu" adına da layiq görülüb.

Məzmunlu, konstruktiv çıxışları ilə yadda qalan siyasətçi sonradan parlament xatirələrini "Milli Məclisin ağlamalı gülməcələri" adlı kitabçada toplayıb. Bu kitab, sadəcə olaraq, bir neçə zarafatın və ya gülməli epizodların toplusu deyil, əksinə, dərin ictimai-siyasi məna daşıyan, satiranın gücü ilə gerçəklikləri üzə çıxaran, gülüşün arxasında kədərli və düşündürücü reallıqları əks etdirən bir bədii əsər kimi oxunur.

"Mən 15 il fəal şəkildə siyasətlə məşğul oldum. Fikrimcə, hamı mənim necə siyasətçi olduğuma bələddir. Artıq iqtisadçı-alim kimi fəaliyyət göstərməyimi daha məqsədəuyğun hesab edirəm", – deyən Nazim İmanov 2005-ci ildən elmi fəaliyyətinə müxtəlif elmi və akademik qurumlarda davam edirdi.

2014-cü ilin mayında isə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin qərarı ilə İqtisadiyyat İnstitutuna direktor təyin olunub. Bu gün o, Azərbaycanda iqtisadiyyat elminin inkişafında mühüm rol oynamış, bir sıra elmi tədqiqatları, dərslikləri və analitik məqalələri ilə həm akademik mühitdə, həm də iqtisadi idarəetmə sahəsində böyük nüfuz qazanmış görkəmli iqtisadçı alim kimi tanınır.

Nazim İmanov dostu və həmkarı Eldar İsmayılovla torpaqlarımızın işğaldan azad edilməsindən hələ 10 il əvvəl nəşr etdirdikləri "Post-konflikt ərazilərin bərpası: konseptual əsaslar" adlı əsərlə Azərbaycan iqtisad elminə yeni bir tədqiqat istiqaməti gətiriblər. Onların bu elmi yanaşması post-münaqişə dövrünün iqtisadi və sosial problemlərinin araşdırılmasına təməl yaradıb və bu sahədə ilk sistemli nəzəri baza rolunu oynayıb.

Nazim İmanovun rəhbərliyi dövründə ölkənin iqtisadi beyin mərkəzlərindən sayılan İqtisadiyyat İnstitutu elmi-tədqiqat mərkəzi olaraq qalmayıb, həm də ictimai düşüncəyə, çağdaş iqtisadi çağırışlara cavab verə bilən intellektual bir platformaya çevrilib. Bu gün İqtisadiyyat İnstitutu gələcəyə baxan, yenilikləri qəbul edən və onları elmi əsaslara çevirən bir mərkəzdir.

Prezident İlham Əliyev 17 dekabr 2024-cü ildə "Rossiya-1" telekanalına verdiyi müsahibəsində Ermənistanın Azərbaycana vurduğu maddi ziyanın 150 milyard ABŞ dolları olduğunu açıqladı. Bununla Nazim İmanovun rəhbərlik etdiyi elmi qrupun təqdim etdiyi elmi araşdırmanın nəticəsi inamla beynəlxalq ictimaiyyətə təqdim olundu.

Sonda Nazim İmanovun alim və ziyalı portretinə əlavə olaraq, keçən əsrin 90-cı illərinin əvvəllərində Naxçıvanda "Azərinform"un xüsusu müxbiri işlədiyim vaxtlarda şahidi olduğum bir söhbəti də xatırlatmaq istəyirəm. O zaman dünya şöhrətli siyasətçi Heydər Əliyev Naxçıvanda Siyasi maarif evində bir qrup yerli ziyalı ilə görüşürdü. Ulu öndər mediada çıxışları diqqətçəkən Hacı Sabirin və Nazim İmanovun kimliyi barədə sual verdi. Nazim müəllim barədə iqtisadçı alim Akif Mədətov qısa məlumat verdi: "Heydər bəy, atasını – Müzəffər müəllimi yaxşı tanıyıram. İqtisadçıdır, Mərkəzi Komitənin "Azərbaycan kommunisti" jurnalında şöbə müdiri işləyir".

Bu o demək idi ki, o zaman hələ 40 yaşı da olmayan Nazim İmanov ictimai-siyasi fəallığı ilə Naxçıvanda Ulu öndərin də diqqətini cəlb etmişdi.

***Namiq QƏDİMOĞLU***
***XQ***

# “Odlar yurdu”nu “Asiya nəhəngi” ilə ortaq maraqlar və ümumi hədəflər qovuşdurur

**Azərbaycan – Çin iqtisadi əlaqələri son illər yeni mərhələyə qədəm qoyaraq daha da genişlənib. Müxtəlif istiqamətlərdə inkişaf edən bu əməkdaşlıq hər iki ölkənin xarici iqtisadi siyasətində prioritet istiqamətlər sırasında yer alıb. Əlverişli geostrateji mövqeyə malik Azərbaycan Şərqlə Qərbi birləşdirən mühüm tranzit qovşağı kimi çıxış etməklə Çinin təşəbbüsü ilə həyata keçirilən “Bir kəmər, bir yol” layihəsində əsas aktorlardan birinə çevrilib.**

Belə bir əhəmiyyətli qlobal layihə çərçivəsində Azərbaycan tranzit ölkə rolunu oynamaqla bərabər, regional əməkdaşlıq platformasında ən fəal iştirakçılardan biri kimi çıxış edərək qlobal iqtisadi inteqrasiya proseslərinə daha dərindən qoşulub. İki ölkə arasında əməkdaşlığın müxtəlif istiqamətləri getdikcə daha da inkişaf edərək çoxşaxəli xarakter alır. İlkin mərhələdə, əsasən, malların ticarəti ilə məhdudlaşan ölkələr arası qarşılıqlı iqtisadi münasibətlər bu gün daha kompleks və dərin məzmun daşıyaraq nəqliyyat-logistika üzrə əməkdaşlıq, birgə investisiya layihələri, istehsal əməkdaşlığı və yüksək texnologiyaların transferi kimi sahələri əhatə edir.

Bunlar bir tərəfdən, Çin istehsalı olan məhsulların Qafqaz və Avropa bazarlarına daha sürətli və səmərəli şəkildə daxil olmasına şərait yaradırsa, digər yöndən Azərbaycan məhsullarının Asiya bazarlarında tanınması və ticarət dövriyyəsinin genişlənməsi baxımından əlverişli imkanlar təqdim edir. Nəticə etibarilə Çin və Azərbaycan arasında formalaşmış ticarət münasibətləri yalnız qarşılıqlı əmtəə dövriyyəsinin artırılması ilə məhdudlaşmır, eyni zamanda, regional iqtisadi inteqrasiyanın güclənməsi, texnoloji əməkdaşlığın inkişafı və davamlı iqtisadi inkişaf strategiyalarının reallaşdırılması baxımından da mühüm rol oynayır.

Ticarət münasibətlərinin inkişafının artan dinamikasına nəzər salsaq, 2024-cü ildə Çin Azərbaycanın dördüncü ən böyük ticarət tərəfdaşı kimi xarici ticarət dövriyyəmizdə 7,9 faizlik paya sahib olub. İki ölkə arasında xarici ticarət dövriyyəsi 3,744 milyard ABŞ dollarını ötüb ki, bu da əvvəlki ilin göstəricisi ilə müqayisədə, təxminən, 20,7 faizlik artımı özündə əks etdirib. Eyni zamanda, Çinin Azərbaycanın idxal strukturunda birinci yerdə qərarlaşaraq ümumi idxalın 17,69 faizini gerçəkləşdirməsi bu ölkənin respublikamız üçün nə qədər əhəmiyyətli bir ticarət tərəfdaşına çevrildiyini açıq şəkildə bir daha biruzə verib.

Azərbaycanın Çindən idxal etdiyi məhsulların çeşidi olduqca genişdir və bu məhsullar müxtəlif sektorları əhatə edir. Belə məhsullara sənaye və kənd təsərrüfatı üçün nəzərdə tutulan avadanlıqlar, nəqliyyat vasitələri, elektron qurğular, kimyəvi maddələr, optik, tibbi, fotoqrafik və dəqiq cihazlar, əczaçılıq vasitələri, avtomobil şinləri, tekstil və hazır geyim məhsulları daxildir. Bu məhsullar ölkədəki müxtəlif istehsal sahələrinin modernləşdirilməsində və istehlak tələbatının ödənilməsində mühüm rol oynayır.

Bununla yanaşı, Azərbaycanın Çinə ixracı əsasən enerji resursları, xüsusilə xam neft ilə yanaşı, kimyəvi gübrələr və bəzi kənd təsərrüfatı məhsulları ilə məhdudlaşır. Respublikamızın dost ölkəyə ixracının strukturu dar çərçivədə formalaşsa da, son illərdə həyata keçirilən iqtisadi islahatlar və qeyri-neft sektorunun təşviqi sayəsində bu istiqamətdə müsbət tendensiyalar müşahidə olunmaqdadır. Azərbaycanda Çinə ixracın artırılması istiqamətində indiyədək müxtəlif təşəbbüslər həyata keçirlirib. Bu təşəbbüslər çərçivəsində əsas diqqət kənd təsərrüfatı və ərzaq məhsullarının ixrac potensialının gücləndirilməsinə, bu məhsulların Çin bazarına çıxış imkanlarının genişləndirilməsinə, eləcə də “Made in Azerbaijan” brendinin beynəlxalq səviyyədə tanıdılmasına yönəldilib.

Azərbaycanın Çin bazalarında genişlənmək məqsədilə ticarət nümayəndiliyi və ticarət evləri açması, bu ölkədə böyük məhsul sərgilərinin keçirilməsi kimi atılan mühüm addımlar respublikamızın Çin bazarlarına ixracını şaxələndirərək ticarət şərtlərini daha da yaxşılaşdıra bilər. Azərbaycan – Çin ticarət əlaqələrinin əsas mühüm istiqamətlərindən biri də nəqliyyat – logistika sahəsində əməkdaşlıqdır. Xüsusilə vurğulamaq lazımdır ki, Azərbaycan 2013-cü ildə Çin Xalq Respublikasının sədri Si Cinpin tərəfindən irəli sürülən “Bir kəmər, bir yol” təşəbbüsünü dəstəkləyən dövlətlərdəndir və bu təşəbbüs çərçivəsində əldə edilən razılaşmalar, Çin və Azərbaycan arasında iqtisadi əməkdaşlığın və ticarət münasibətlərinin əsas istiqamətləri daim diqqət mərkəzindədir.




Layihə kontekstində həyata keçirilən “Bakı – Tbilisi – Qars dəmir yolu” və “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” kimi mühüm infrastruktur layihələri Azərbaycanın təşəbbüsü ilə reallaşdırılması, eləcə də Transxəzər Beynəlxalq Şərq – Qərb Ticarət və Nəqliyyat Dəhlizinin vacib komponentlərinə çevrilməsi bunun bariz ifadəsidir. Azərbaycanın bu təşəbbüsdə əsas tərəfdaşlardan biri kimi çıxış edərək Çin və Avropa arasında logistik əlaqələndirici rol oynaması regionun iqtisadi inkişafı baxımından strateji əhəmiyyət daşıyır və ölkəmizin tranzit dövlət olması ilə yanaşı, inkişafa əsaslanan biznes imkanları yaradır.

Prezident İlham Əliyev Davosda Çin telekanalına verdiyi müsahibədə qeyd etdiyi kimi, Azərbaycanın Orta Dəhlizin fəaliyyətində inkişafa əsaslanan müəssisələrin yaradılması və özəl sektorun bu imkanlardan faydalanması kimi önəmli məqsədləri var. Son illərdə multimodal nəqliyyat dəhlizi kimi Orta Dəhlizin Azərbayan seqmentinin infrastrukrunun təkmilləşdirilməsi, Ələt Dəniz Ticarət Limanının və dəmir yol infrastruktunun genişləndirilməsi istiqamətində işlərin görülməsi, limanın yükaşırma qabiliyyətinin 15 milyon tondan 25 milyon tona qədər artırılması təşəbbüsləri nəqliyyat – logistika sektorunun inkişafı naminə atılan mühüm addımlardandır və bu istiqamətdə əlavə imkanların yaradılmasını şərtləndirir.

Sevindirici haldır ki, Çinlə Avropa arasında strateji nəqliyyat marşrutu olan Orta Dəhliz çərçivəsində bu ölkə şirkətləri son illərdə Azərbaycanın Ələt limanı və Ələt Azad İqtisadi Zonası ilə əməkdaşlığı genişləndirməkdədir. 2024-cü ilin noyabrında limanın yükdaşıma qabiliyyətini artırmaq və Orta Dəhliz boyunca konteyner daşımalarını sürətləndirmək məqsədi ilə Azərbaycan, Çin və Qazaxıstan arasında Ələt limanında yeni intermodal yük terminalının tikintisinə dair üçtərəfli sazişin imzalaması Çinin Avropa ilə ticarətində Orta Dəhlizə marşrut kimi böyük əhəmiyyət verir.

Çin şirkətlərinin Ələt limanı çərçivəsində investisiya maraqları nəqliyyat-logistika, istehsal, enerji və texnologiya sahələrində cəmləşir. Bu maraqlar təkcə Çin məhsullarının Avropa və region bazarlarına çıxışını sürətləndirmək məqsədi daşımır, həm də Azərbaycanı Avrasiya ticarətinin mühüm tranzit və istehsal mərkəzinə çevrilməsinə əsaslı töhfələr verir.

Azərbaycan ilə Çin arasında formalaşan iqtisadi tərəfdaşlıq yalnız iki dövlət arasındakı ticarət və investisiya əlaqələrinin inkişafı ilə məhdudlaşmır, bu münasibətlər daha geniş kontekstdə, Avrasiya regionunda çoxqütblü, qarşılıqlı asılılıq və qarşılıqlı fayda prinsiplərinə əsaslanan yeni əməkdaşlıq modelinin yaranmasına mühüm təsir göstərir. Bu model ənənəvi mal və xidmət mübadiləsinin hüdudlarını aşaraq, eyni zamanda, nəqliyyat infrastrukturu, rəqəmsal texnologiyalar, elmi-texniki əməkdaşlıq, enerji təhlükəsizliyi və ekoloji davamlılıq sahələrində qarşılıqlı inteqrasiyanı stimullaşdırır.

Sonda qeyd edim ki, Azərbaycan – Çin iqtisadi əməkdaşlığının gələcək inkişafında prioritet istiqamətlərin müəyyənləşdirilməsi zəruridir. İlk növbədə, ticarət, gömrük, investisiya əməkdaşlığı və nəqliyyat kimi sahələrdə hüquqi və inzibati mexanizmlərin səmərəliyinin artırılması, eyni zamanda, investisiya təşviqi vasitələrinin təkmilləşdirilməsi ilə qarşılıqlı kapital axınlarının intensivləşdirilməsi, xüsusilə kənd təsərrüfatı, alternativ enerji və yüngül sənaye sahələrində əməkdaşlıq imkanlarının genişləndirilməsi daha məqsədəuyğun hesab edilir. Bundan əlavə, nəqliyyat – logistika infrastrukturunun müasirləşdirilməsi və inteqrasiyası bu əməkdaşlıq modelinin daha da dərinləşməsində mühüm rol oynayır.

Bütün bu qeyd edilənlər göstərir ki, Çin ilə Azərbaycan arasında ticarət əməkdaşlığı yalnız cari iqtisadi ehtiyaclara deyil, həm də uzaqgörən və strateji yanaşmalara əsaslanır. Respublikamız bu əməkdaşlıqda öz rolunu təkcə məhsul idxalçısı kimi deyil, həm də etibarlı ixracatçı, tranzit ölkəsi və investisiya tərəfdaşı kimi möhkəmləndirməyə çalışır. Eyni zamanda, Çin dövləti Azərbaycanı Cənubi Qafqaz regionunda sabitlik, enerji resurslarının etibarlı çatdırılması və nəqliyyat – kommunikasiya əlaqələrinin inkişafı baxımından strateji əhəmiyyətə malik tərəfdaş kimi qəbul edir.

Belə bir tərəfdaşlığın davamlı inkişafı üçün əsas vəzifələr qarşılıqlı inama əsaslanan münasibətlərin daha da gücləndirilməsi, uzunmüddətli, dayanıqlı inkişafı gerçəkləşdirən mexanizmlərin tətbiqini zəruri edir.

*Xaliq RÜSTƏMOV,*
*BDU-nun dünya iqtisadiyyatı kafedrasının müəllimi, fəlsəfə doktoru*

## Sığorta Sektorunun İnkişaf Strategiyası



**İcbari Sığorta Bürosunun məlumata görə, bu qurum tərəfindən respublikada icbari sığorta sektorunun dayanıqlı, innovativ və şəffaf inkişafını təmin etmək məqsədilə hazırlanan Sığorta Sektorunun İnkişaf Strategiyası (2025-2027-ci illər) təsdiq edilib.**

Sənəddə İSB-nin 2025-2027-ci illər üzrə əsas hədəfləri və həyata keçiriləcək tədbirlər əksini tapıb. İSB-nin missiyası icbari sığorta sektorunun inkişafı üçün sürətli biznes həlləri reallaşdırmaq, bu sahədə hüquqi-normativ bazanın tənzimlənməsinə töhfə vermək, etibarlı, işlək icbari sığorta mühiti yaratmaq və inkişaf etdirmək, icbari sığorta xidmətlərinin əlçatanlığını gerçəkləşdirmək, dayanıqlı və etibarlı qarantiya fondu yaratmaq, bu sahədə ən qabaqcıl təcrübə və yeniliklərin tətbiqini həyata keçirməkdir.

Hazırda İSB İnformasiya Mərkəzi, Qarantiya Fondu, Sığorta Beyin Mərkəzi, “Yaşıl” Kart Bürosu və Təbliğat-Təşviqat sahələri üzrə fəaliyyət göstərməklə icbari sığorta sektorunun dayanıqlı inkişafında və səmərəli tənzimlənməsində mühüm rol oynayır.

İSB-nin qarantiya fondu kimi maliyyə dayanıqlığının və funksional səmərəliliyinin gücləndirilməsi icbari sığorta sisteminin uzunmüddətli etibarlılığının təmin olunması baxımından əsas strateji hədəflərdən biri kimi müəyyənləşdirilib.

Vahid Məlumat Mərkəzinin yaradılması, data və süni intellekt texnologiyalarının strateji qərarvermə prosesinə inteqrasiyası, sığorta sektorunda innovasiya fəaliyyətinin stimullaşdırılması, eləcə də dayanıqlı və təhlükəsiz İT infrastrukturunun formalaşdırılması istiqamətində həyata keçiriləcək işlər prioritet fəaliyyət istiqamətləri kimi nəzərdə tutulur.

Azərbaycan “Yaşıl” Kart Bürosunun fəaliyyətinin təkmilləşdirilməsi, Təkmil Metodoloji Mərkəzin yaradılması, səmərəli kompensasiya ödənişləri və subroqasiya mexanizminin formalaşdırılması, eləcə də institusional inkişafla bağlı məsələlər də strategiyada öz əksini tapıb. Bununla yanaşı, korporativ idarəetmə modelinin formalaşdırılması, ictimaiyyətlə əlaqələrin inkişaf etdirilməsi istiqamətində əsas fəaliyyət istiqamətləri müəyyənləşdirilib.

Strategiyada müasir idarəetmə prinsiplərinə uyğun olaraq risklərin səmərəli şəkildə idarə olunmasını reallaşdıran sistemin yaradılması, həmçinin rəqəmsallaşma prosesinin sürətləndirilməsi məqsədilə kağız daşıyıcılardan istifadənin minimuma endirilməsi də əsas hədəflər sırasına daxil edilib.

## Ələt Azad İqtisadi Zonası investorlara qucaq açır

**Ələt Azad İqtisadi Zonasının İdarə Heyətinin sədri Valeh Ələsgərov Azərbaycan – Çin İqtisadi və Ticarət Əməkdaşlığı Konfransındakı çıxışında rəhbərlik etdiyi quruma məxsus 138 hektar ərazinin investorlara təqdim ediləcəyini bildirib.**



Onun sözlərinə görə, Ələt Azad İqtisadi Zonası regionun ən cəlbedici azad iqtisadi zonasıdır: “Bunu bizim artıq bugünkü təcrübəmiz də göstərir. Bu gün birinci mərhələdə 60 hektar ərazini təqdim etməyə hazırıq. Yaxın vaxtlarda isə azad iqtisadi zonada 138 hektar ərazi investorlara təqdim ediləcək. Bir il yarımdan sonra isə növbəti 364 hektar ərazinin investorlara təqdim edilməsi reallaşacaq. Azad iqtisadi zonanın azı 6500 hektar ərazisi var. Buna görə də istənilən şirkətə istənilən həcmdə, ölçüdə ərazi təqdim etmək mümkündür.

## Sadələşdirilmiş vergi daxilolmaları 7 faiz artıb

**Ötən il ölkədə sadələşdirimiş vergi üzrə daxilolmalar 373 milyon manat proqnoza qarşı icra 382,9 milyon manat (9,9 milyon manat və yaxud 2,7 faiz çox, 2023-cü illə müqayisədə isə 25,9 milyon manat və yaxud 7,3 faiz çox) icra olunub.**



“2024-cü il dövlət büdcəsinin icrası haqqında” qanun layihəsində bildirilib ki, bu tədiyyə növü üzrə daxil olan vəsaitin 55,3 faizini və yaxud 211,8 milyon manatını hüquqi şəxslər, 44,7 faizini və yaxud 171,1 milyon manatını fiziki şəxslərə görə ödənilən sadələşdirilmiş vergi təmin edib.

Proqnozdan artıq icra ÜDM-nin həcminin makroiqtisadi proqnozlarda nəzərdə tutulandan qeyri-neft sektoru üzrə, ümumilikdə, 955,6 milyon manat (real artım tempi isə 0,7 faiz), nəqliyyat sektoru üzrə 426,3 milyon manat (5,1 faiz), tikinti sektoru üzrə 33,1 milyon manat çox olması ilə əlaqədar olub. 2023-cü illə müqayisədə artım isə iqtisadiyyatın sektorları üzrə sadələşdirilmiş vergi üzrə dövriyyənin artması fonunda – ticarət sektoru üzrə 49,6 milyon manat və yaxud 3,3 faiz artması ilə bağlı olub.

## Ağdam Sənaye Parkı velosiped də buraxacaq



**“Qarabike” MMC-yə İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Ağdam Sənaye Parkının rezidentliyi statusu verilib.**

Məlumata görə, yeni qeydiyyata alınan rezident tərəfindən sənaye parkının ərazisində velosiped istehsalı layihəsi həyata keçiriləcək. Layihənin investisiya dəyəri 8,6 milyon manat olacaq. Çinin qabaqcıl texnologiyalarından istifadə ediləcək müəssisədə ilkin mərhələdə il ərzində 44 min ədəddən çox velosiped hazırlanacaq, növbəti mərhələdə isə illik istehsal gücü 70 min ədədə çatdırılacaq.

Qeyd edək ki, Ağdam Sənaye Parkında hazırda 28 sahibkarlıq subyektinə rezidentlik, 4 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Sənaye Parkında görülmüş işlərə sahibkarlar tərəfindən 115 milyon manatdan çox investisiya yatırılıb, 650 nəfərdən çox daimi iş yeri yaradılıb.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Cavad Heyətin Bəxtiyar Vahabzadə sevgisi

**Bu il Bütöv Azərbaycanın böyük ziyalıları: cərrah-alim, İranda ilk dəfə açıq ürək əməliyyatları gerçəkləşdirmiş Beynəlxalq Cərrahlar Cəmiyyətinin və Paris Cərrahlar Akademiyasının üzvü, "Varlıq" dərgisinin təsisçisi və baş redaktoru olmuş doktor Cavad Heyət ilə ünlü milli istiqlal şairi Bəxtiyar Vahabzadənin 100 illik yubileyləri qeyd edilir. Hər iki mütəfəkkirlə sağlıqlarında görüşmək mənə nəsib olub, sanki dünyanın bəxtiyarlığına qovuşan insanlar kimi sevincimdən yerə-göyə sığmamışam.**





Bəxtiyar müəllimin tələbəlik dövrümüzdə istər klassik, istərsə də müasir ədəbiyyatımızdan xüsusi kurs keçməsi o qədər maraqlı idi və dərin düşüncələrlə yaşamaq əzmimizi artırırdı. Onun dərslərini qəfil xəstəliyə tutulan tələbə belə boş buraxmırdı.

Professor, doktor Cavad Heyətin Bəxtiyar Vahabzadənin seçilmiş şeirlər məcmuəsinə hələ o zaman Azərbaycanın Tehrandakı səfiri olmuş Abbasəli Həsənovun istəyi ilə ön söz yazmağa əvvəlcə razı olmadığı bildirilsə də, sonralar bu işin israrla məhz Cavad Heyət tərəfindən görülməsi baş tutub. Cavad Heyət Bəxtiyar poeziyasının ana xəttinin, əsas aparıcı meyarının məhz vətən və millət olduğunu gözəl bilirdi.

Doktor Cavad Heyət Bəxtiyarın Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında uğurla tamaşaya qoyulmuş "İkinci səs", "Yağışdan sonra", "Dar ağacı", "Vicdan", böyük şair Nəsimiyə həsr etdiyi "Fəryad", "Özümüzü kəsən qılınc", "Cəzasız günah" adlarında 7 dram əsəri, 59-dan çox şeir kitabının və seçilmiş əsərlərinin bir çox dillərə tərcümə olunduğunu qeyd edib. Onun "Muğam", "Atılmışlar" və "İki qorxu" poemalarının əziz dostumuz və görkəmli şairimiz Sönməz tərəfindən latın əlifbası ilə köçürüldüyü bildirilir.

Cavad Heyətin Bəxtiyar poeziyasından xüsusi olaraq təhlilə yönəltdiyi əsərlərin içərisində "Gülüstan" poemasına xüsusi diqqət yetirir. Bəxtiyarın illərlə arxivdə saxlayıb, yalnız sovetlər birliyi dağıldıqdan sonra nəşr etdirə bildiyi "150 il" adlı şeirinin mahiyyəti ilə bizi tanış edir:

**Tapdamaq olarmı haqqı bu qədər,**
**Yüz əlli ildir ki, soyurlar bizi.**
**Bu heç, bizə bayram elətdirirlər**
**Tarixdə ən böyük faciəmizi.**

Müəllif Bəxtiyarın "Gülüstan" poemasını sovet rejiminin kəskin çağında yazdığından, işdən çıxarılaraq, 2 il maaşsız yaşamasından, təqibə məruz qalmasından bəhs edir və onun bu məngənədən çıxış yolunu ulu öndər Heydər Əliyevin sayəsində tapa bildiyini vurğulayır. Böyük mütəfəkkir alimin Bəxtiyarın yaradıcılığından seçdiyi 15-dən artıq şeir bunlardır: "Mənim şeirim", "150 il", "Gülüstan" poeması, "Vətən", "Təzədən yaratsın yaradan bizi", "Riyakar", "Dağda şəlalə kimi", "Gizlidir", "Oyanırıq öləndə biz", "Qurub düşüncələri", "Qocalar evi", "İki qorxu", "Atılmışlar", "İbadət", "Özümdən narazıyam".

Cavad Heyət Bəxtiyarın şeirlərində fəlsəfə axtarışında olarkən belə qənaətə gəlir ki, burada fikir, düşüncə tərzi qəmli-kədərli lirika ilə qoşa gedir. O, kədəri, qəmi də düşüncə bilir və "Qəm-Şadlıq" adlı şeirindən misralar səsləndirir:

**Qəm fikrin açarı, ağlın ustadı,**
**İdrak qəm daşına dəydi parladı.**
**...Qəmin damcısında közərən ağıl,**
**Közərməz şadlığın ümmanında da.**

Bəxtiyarın şeirlərində təzadlı səslənən, bir-birini dəf etməyib, birinin digərini qəbul etməyə hazır məna çalarları, çox təbii olaraq insanın bütün ömrü boyu fəaliyyətinin sanki yol yoldaşıdır:

**Əgər olmasaydı dəryaca dərdim,**
**Dərdin yoxluğunu mən dərd edərdim.**

Cavad Həyətə görə, Bəxtiyardakı qəm-kədər də onun bədəni, ruhu ilə yoğrulmuş və özünün dediyi kimi, damarlarındakı qan ilə cərəyan etməkdədir. Bu dərd millət dərdidir. Vətən-torpaq dərdidir. Lakin əcəm şairindən fərqli olaraq Bəxtiyar bunun müqabilini nisyə verilən şərabda deyil, sözün qüdrətilə vuruşda, mübarizədə görür. O, içindəki kədəri şairin ilham mayası hesab edir və "Dağda şəlalə kimi" adlı şeirində Füzuli kimi nəşəni və zövqü kədərdə axtarır və belə deyir:

**Kədərdəki nəşəni, zövqü anlamayanlar**
**Həyatın nəşəsindən, fərəhindən nə anlar?**

Cavad Heyət əslən Cənubi Azərbaycandan olan gözəl şairimiz Balaş Azəroğlunun Bəxtiyarın xislətində aradığı özünəməxsus cəhətini onun sözü ilə belə xarakterizə edir: "Mənim fikrimcə, Bəxtiyarı xalqa sevdirən cəhətlərdən ən başlıcası şeirlərindəki vətəndaşlıq hissinin çox güclü olmasıdır".

Müəllif Bəxtiyar poeziyasının çoxlu nümunələrindən bəhs edərkən şairin nədən məyus olmağının səbəbləri ilə maraqlanır və sonda gəldiyi qənaətin gedişatında onun millətinin, xalqının qarşılaşdığı problemlərin tükənməzliyinin acısı ilə yaşadığını bəyan edir:

**Əyləşir qocalar ikibir, üçbir.**
**Qocalar evinin dəhlizlərində.**
**Ömür kitabları sətirbəsətir**
**Oxunur onların bənizlərində.**

**Nədənsə danışır solğun baxışlar,**
**Orda təəssüf də, təəccüb də var.**
**Hansı əzabların şırımlarıdır**
**Üzlərdə açılan dərin qırışlar.**

**Yata da bilmirlər, sübhədək oyaq,**
**Oyulur döşəkcə, oyulur balış.**
**Adamlar bir yana, sən bir işə bax,**
**Qocadan yuxu da qorxub qaçarmış.**

Cavad Heyət Bəxtiyarın "İbadət" adlı şeirində onun tanrı ilə təklikdə həsbi-halını və bütün vücudu ilə Allahına sığındığını göstərir:

**– İlahi, qəlbimi açıram sənə,**
**Çin eylə sən mənim röyalarımı.**
**Diz çöküb önündə gəldim səcdəyə,**
**Qəbul et sən mənim dualarımı...**

**Bizi endirdilər göylərdən yerə,**
**Qaytar tariximin qızıl çağını.**
**İlahi, hökmünlə qaldır göylərə**
**İslam bayrağını, türk bayrağını!**

Böyük alim Cavad Heyətin Bəxtiyar poeziyasının ana xəttində aradığı bütün Azərbaycan bölgələri üçün, daha doğrusu, Quzey, Güney, Qərbi Azərbaycan və Dərbənd üçün xarakterik sayılan ən ümdə məsələləri ümumiləşdirib. Bunların müstəqillik məfkurəsinin daha da yüksəldiyi və artıq istiqlalına qovuşan Azərbaycanın gələcək inkişafı və möhkəmlənməsi naminə təsir gücünün nələrə qadir olduğunu təsəvvür etməyə ehtiyac yoxdur. Beləliklə, Bəxtiyar Vahabzadənin istər professor Cavad Heyətin, istərsə də minlərlə Bəxtiyarsevərin idrakında yeri və rolunun həddi olması sevindiricidir. Bu gözəl alimi əsl milli sair mərtəbəsinə yüksəldən də sözü, qələmi ilə və milli istiqlal üçün sinəsini qabağa verib mübarizə aparması, döyüşkənliyi olmuşdur. Cavad Heyət böyük bəstəkar və dirijor Niyazinin Bəxtiyar haqqında çox yığcam, lakonik dediyi sözlərlə fikrini tamamlayıb: "Bəxtiyar ona görə bəxtiyardır ki, onu xalq sevir, xalq da ona görə bəxtiyardır ki, onun Bəxtiyarı var".

*Əli İBRAHİMOV,*
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*

# 150 ilin 30 illik söhbəti

**Milli mətbuatımızın yaranmasının 150 illiyi münasibətilə Azərbaycan Dövlət Nəşriyyatı tarix üzrə fəlsəfə doktoru, Əməkdar jurnalist Natiq Məmmədlinin "150 ilin söhbəti" kitabını nəşr edib. Kitabda müəllifin 30 illik araşdırmaları, eləcə də oçerk, məqalə, müsahibə və mediaya aid yazıları toplanıb.**

BP (British Petroleum) şirkətinin dəstəyi ilə çap olunmuş kitab milli mətbuat tariximizin və müasir jurnalistikanın öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Kitabın əsas qayəsini milli-mənəvi dəyərlərin qorunması, tarixi yaddaşın dirçəldilməsi və dövlətçilik ideyalarının təbliği təşkil edir. Bu ana mövzular çərçivəsində təqdim olunan yazılar, eyni zamanda, müasir Azərbaycan jurnalistikasının inkişaf meyillərini əhatə edir. Müəllifin milli mətbuat tarixinə yanaşması sistemli və analitik xarakter daşıyır ki, bu da kitaba həm publisistik, həm də elmi dəyər qazandırır. Müəllifin yaradıcı axtarışlarının yalnız müəyyən bir qismini əhatə edən kitab maarifçi fikir adamlarının zəngin irsinin geniş oxucu kütləsinə təqdim olunmasına, ölkədə publisistika ənənələrinin daha dərindən tanıdılmasına və yayılmasına mühüm töhfə verir.

Kitabın elmi redaktoru Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli, rəyçiləri Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov və Mətbuat Şurasının sədri Rəşad Məcid, redaktoru isə Yazıçılar Birliyinin Gənclər Şurasının sədri Fərid Hüseyndir. Azərbaycan mətbuat tarixi sahəsində tanınmış alim, Bakı Dövlət Universitetinin Milli mətbuat tarixi kafedrasının müdiri, professor Cahangir Məmmədli kitaba ön söz yazıb.




Bir neçə gün əvvəl "Ədibin Evi"ndə "150 ilin söhbəti" kitabının təqdimat mərasimi keçirilib.

*XQ*

# Məktəblilərin ilk Süni İntellekt Olimpiadası




**Azərbaycanda ilk dəfə olaraq məktəblərarası süni intellekt üzrə olimpiada keçirilib. Yarışmanın təşəbbüskarı gənc istedad Cüneyd Qənbərov ölkəmizin elm və texnologiya sahəsində gələcək vəd edən simalarından biridir.**

ADA Məktəbinin 10-cu sinif şagirdi olan Cüneyd Qənbərov uzun müddətdir ki, proqramlaşdırma və süni intellekt sahələrində fəal çalışır. O, 12 yaşından etibarən kodlaşdırma ilə maraqlanır və artıq 2 ildir ki, müxtəlif səviyyəli yarış və olimpiadalarda iştirak edir. Son bir il ərzində Cüneyd riyaziyyat, kodlaşdırma və süni intellekt üzrə beynəlxalq müsabiqələrdə ölkəmizi layiqincə təmsil edərək, 30-a yaxın medal – qızıl, gümüş və bürünc – qazanıb.

Onun uğurları sırasında ən diqqətçəkənlərindən biri bu ilin fevralında Tailandın paytaxtı Banqkok şəhərində keçirilmiş "International Math Challenge" olimpiadasında qızıl medal əldə etməsidir. Həmin olimpiadada Azərbaycan 16 nəfərlik şagird heyəti ilə təmsil olunub və yalnız Cüneyd qızıl əyarlı medala layiq görülüb. Bundan əlavə, o, ABŞ-ın təşkil etdiyi süni intellekt üzrə beynəlxalq olimpiadada da qızıl medal qazanaraq dünya reytinqində 3-cü yerə yüksəlib.

Bu uğurlar Cüneyd üçün təkcə nailiyyət deyil, eyni zamanda, daha böyük məqsədlərə doğru yolun başlanğıcıdır. Gənc proqramçı süni intellekt sahəsində beynəlxalq praktikanın Azərbaycanda da geniş tətbiqinə nail olmaq istəyir. Bu məqsədlə, o, ölkəmizdə ilk dəfə məktəblərarası süni intellekt olimpiadasının keçirilməsinə təşəbbüs göstərib və bu ideyasını gerçəkləşdirib. ADA Məktəbi rəhbərliyinin, həmçinin "Star Colleges" təhsil platformasının dəstəyi ilə təşkil olunan respublika səviyyəli bu olimpiada 5–11-ci sinif şagirdlərini əhatə edib. Yarışmanın əsas məqsədi şagirdlərin süni intellekt texnologiyalarına marağının artırılması, onların bacarıqlarının üzə çıxarılması və beynəlxalq standartlara uyğun biliklərin əldə olunmasıdır. Olimpiadada Azərbaycanla yanaşı, 6 xarici ölkədən iştirakçılar da mübarizə aparıblar. Mükafatlandırma tədbiri srağagün ADA məktəbində təşkil olunub. Qaliblər müvafiq medallarla təltif ediliblər. İnamla vurğulanıb ki, Azərbaycanda ilk dəfə olaraq bu cür genişmiqyaslı tədbirin keçirilməsinə təşəbbüs göstərən Cüneyd Qənbərovun fəaliyyəti gənclər arasında elmi-texniki yaradıcılığın inkişafına böyük təkan verəcək.

Yarışın qalib və mükafatçıları Sumqayıt şəhəri, 27 saylı tam orta məktəbin 8-ci sinif şagirdi Ülvi Xudaverdiyev (qızıl medal), S.Ə.Şirvani adına Zərdab rayon İsaqbağı kənd orta məktəbinin 11-ci sinif şagirdi Mənsur Rəhimli (gümüş medal) və ADA məktəbi 10-cu sinif şagirdi Yusif Seyidov (bürünc medal) olublar.

Valeh Kazımlı (Bakı şəhəri Kaspi liseyi, 11-ci sinif), Abdulla Abdullazadə (Ağdaş rayonu, Ləki qəsəbəsi, 6 saylı tam orta məktəb, 11-ci sinif), Həsən Ələkbərzadə-Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci, 10-cu sinif), Eldar Həmidov (Suqayıt şəhəri, 29 saylı orta məktəb, 9-cu sinif), Yusif Ələkbərov (Şirvan şəhər, 11 saylı orta məktəb, 11-ci sinif), Leyla Əsgərli (Bakı şəhəri, 291 saylı Ekologiya liseyi, 8-ci sinif), Murad Mirzəyev (Bakı şəhəri, 23 saylı orta məktəb, 8-ci sinif), Əkbər Bağırov (Gəncə şəhəri, FRİTL, 10-cu sinif), Kənan Yaqubov (Gəncə şəhəri, M.Mehdizadə adına 4 saylı xarici dil təmayüllü lisey, 8-ci sinif) və Orxan Adıgözəlov (Bakı şəhəri, Türk Dünyası Bakı Atatürk Liseyi, 9-cu sinif) olimpiadanın fəxri mükafatçıları adını qazanıblar.

*Ziyarət CABAROVA-QƏHRƏMANOVA,*
*sənətşünas*

# Hər kitab bir dünyadır

**AYB və AJB-nin üzvü Vasif Ayanın mərhum kino aktyoru, Xalq artisti Ənvər Həsənovun xatirəsinə yazdığı kitab belə adlanır.**

Qeyd edək ki, bu, müəllifin unudulmaz aktyor haqqında 2-ci kitabıdır. Daha öncə onun "Ənvər Həsənovun xatirələri" adlı kitabı çap olunmuşdu. "Qanun" nəşriyyatında hazırlanmış yeni kitabda aktyorun ömrünün son illəri ilə bağlı müəllifin özəl xatirələri, onun insanlarının duyğu və düşüncələri də yer alıb.

...Rejissor Arif Babayev ilk dəfə onu İçərişəhərdə görüb bəyənmiş və sənətə gəlməyi tövsiyə etmişdi. O vaxt Ənvərin cəmi 14 yaşı var idi. Hökumət Evində yerləşən kinoaktyor məktəbinə ərizə yazıb. Adil İsgəndərov, Mehdi Məmmədov, Hökümə Qurbanova, Leyla Bədirbəyli kimi böyük sənətkarlar ondan imtahan götürüblər. Ənvər 2 il yarım orada dərs alıb. Sonra köhnə kinostudiyada böyük sənətkarların çəkilişlərinə həm assistent, həm də ədəbi köməkçi və rejissor köməkçisi kimi qatılıb. Ustadlarının köməyi ilə sənətin zirvəsinə yüksəlib. Onun kino aləmində tanınmasında Arif Babayevin "Uşaqlığın son gecəsi" filmində canlandırdığı Murad obrazı mühüm rol oynayıb. Hətta Ənvər nəvəsinə də Murad adını vermişdi. Ondan əvvəl "Səma dənizi" filmində də həm assistent, həm aktyor kimi fəaliyyət göstərmişdi. Sonra "Yeddi oğul istərəm" filmində Cəlal obrazını canlandırıb.

Kövrək və duyğusal məqamları çox olan "Ənvər Həsənova vida" kitabının geniş oxucu kütləsinin diqqətini cəlb edəcəyi şübhəsizdir.




## "Böyük Azərbaycan naminə"

**Tədqiqatçı və ictimai xadim Adıgözəl Məmmədovun Azərbaycan tarixində görkəmli iz qoymuş dövlət və partiya xadimi, diplomat, tibb elmləri doktoru, professor, Əməkdar həkim Əziz Əliyevin ictimai və siyasi fəaliyyətinə həsr olunan "Böyük Azərbaycan naminə" kitabı ingilisdilli oxuculara təqdim olunub.**

Müəllif ictimai dövriyyəyə yenicə buraxılmış arxiv sənədlərinə əsaslanaraq, Əziz Əliyevin Cənubi Azərbaycanda və Dağıstanda işlədiyi illərin hadisələrinə yeni baxış bucağından nəzər salıb. Kitabda qeyd olunur ki, müharibənin qızğın vaxtında, Moskvadakı müəyyən qüvvələr Qafqaz xalqlarının Orta Asiyaya köçürülməsi məsələsini SSRİ Dövlət Müdafiə Şurası qarşısında qoymağa hazırlaşırdılar və ilk seçim Dağıstan xalqlarının üzərinə düşürdü. Belə bir "perspektiv"in qarşısının alınmasında Dağıstan Vilayət Partiya Komitəsinin 1-ci katibi Əziz Əliyevin qətiyyəti böyük rol oynayıb. Əziz Əliyev başda olmaqla, oraya göndərilən insanların fədakar əməyi sayəsində onlar öz məqsədlərinə çatıblar. Müharibə illərində və müharibədən sonra bu respublikada sürgünə səbəb olacaq heç bir neqativ fakt meydana çıxmayıb və Dağıstan xalqlarının köçürülməsi məsələsi bir daha qaldırılmayıb.

Bu tədqiqat əsərində faktoloji baxımdan tariximizin bir çox gizli səhifələrinə işıq salınıb.

## "Ənvər Həsənova vida"




## "Səhra qartalı"




**Yazıçı-publisist Reyhan Mirzəzadənin yeni nəşr olunmuş bu kitabı İkinci Dünya müharibəsinin 80 illiyi çərçivəsində görkəmli rus yazıçısı Mixail Şoloxovun həyatı və yaradıcılığına həsr olunub.**

Nəfis tərtibatla çap olunan kitabda təkcə Azərbaycan qəhrəmanları deyil, həm də digər xalqların müharibədə göstərdikləri fədakarlıqlar geniş şəkildə əks olunub. Kitab maraqlı tarixi faktlar, ədəbi irs nümunələri və müharibə mövzusuna dair nadir poeziya parçaları ilə zəngindir. 1965-ci ildə ədəbiyyat üzrə Nobel mükafatına layiq görülmüş Şoloxovun yaradıcılığı Azərbaycan ədəbiyyatının inkişafına da təsir göstərib.

Yeni kitabın təqdimatında qeyd olunub ki, "Səhra qartalı" tarixi və ədəbi baxımdan əhəmiyyətli nəşrdir.

*Ə.ƏLİYEV*
*XQ*

Beynəlxalq həyat

# Qlobal iqtisadi rəqabət Şərqə doğru yönəlib

**Qlobal iqtisadi dinamikanın coğrafiyası sürətlə dəyişir. Beynəlxalq Valyuta Fondunun (BVF) son proqnozlarına əsasən, 2029-cu ilə qədər Asiya-Sakit Okean regionu dünya ümumi daxili məhsulunun (ÜDM) artımının təxminən 70 faizini təmin edəcək. Müqayisə üçün, Avropa İttifaqının bu göstəriciyə töhfəsi 8 faizdən aşağı olacaq. Artıq dünya sənaye məhsulunun yarıdan çoxu Asiyada istehsal olunur, konteyner daşımalarının təxminən 60 faizi bu regionda emal edilir və Cənubi Çin dənizindən illik 5 trilyon dollar dəyərində yüklər daşınır.**



Çin bu dinamik sistemin mərkəzində qərarlaşıb və ABŞ tərəfindən geosiyasi və iqtisadi baxımdan əsas strateji rəqib kimi qiymətləndirilir. ABŞ Çin iqtisadiyyatının böyüməsinin beynəlxalq sistem üçün potensial risklər doğura biləcəyindən narahat olaraq, onun təsirini balanslaşdırmaq yolları axtarır. Hər iki ölkə birbaşa hərbi qarşıdurmadan yayınmağa çalışsa da, strateji qüvvələrin artırılması və təsir dairələrinin gücləndirilməsi istiqamətində fəaliyyətlərini davam etdirirlər.

Vaşinqton Sakit Okeandakı dəniz qüvvələrinin üçdəikisini bölgədə cəmləşdirib və Tayvan ətrafında təhlükəsizlik tədbirlərini gücləndirir. Pekin isə yeni hərbi gəmilər təqdim edir, raket sistemləri yerləşdirir və nüvə potensialını genişləndirir. Qarşılıqlı fəaliyyətlər artıq açıq qarşıdurmadan çox, "boz zona" adlandırılan qeyri-rəsmi və hibrid metodlarla aparılır.

Bu qarşıdurmanın əsas fokus nöqtələrindən biri dəniz logistikasıdır. Çin ixracatının və neft idxalının əhəmiyyətli hissəsi Malakka boğazından keçir. Bu strateji arteriya Çinin iqtisadi zəif nöqtəsi hesab olunur. Sığorta tariflərindəki ani artımlar, kiberhücumlar və ya logistika kanallarında baş verəcək kiçik fasilələr belə, Çin iqtisadiyyatına milyardlarla dollarlıq zərər verə bilər.

ABŞ yeni texnologiyalar əsasında yarı avtonom müşayiət gəmiləri və pilotsuz sistemlər vasitəsilə dənizdə nəqliyyatı nəzarətdə saxlamağa çalışır. Bu alətlər formal blokada elan etmədən, dəniz hüququnun imkanları çərçivəsində hərəkət azadlığını məhdudlaşdırmaq üçün nəzərdə tutulub. 2025-ci ilin yazında Qırmızı dənizdəki gəmilər üçün sığorta tarifləri gəmi dəyərinin 2 faizinə çatıb ki, bu da 2023-cü illə müqayisədə 27 dəfə yüksəkdir. Eyni zamanda, ABŞ İranın Çinə neft ixracatını məhdudlaşdırmaq məqsədilə tankerlərə nəzarəti artırır.

Bu fon qarşısında Asiya ilə Avropa arasında alternativ nəqliyyat dəhlizlərinə maraq artır. Lakin Avrasiya quru marşrutu (məsələn, Çin–Aİ dəhlizi) hələ də kifayət qədər məhduddur. 2024-cü ildə bu marşrut Asiyanın konteyner dövriyyəsinin cəmi 3 faizindən azını təşkil edib. Rusiya sərhəd keçidlərini, Baykal-Amur Magistralını (BAM), hərəkət heyətini və rəqəmsal inteqrasiyanı təkmilləşdirərək bu marşrutun imkanlarını artırmağa çalışır.

Alternativ kimi tez-tez qeyd olunan Şimal Dəniz Yolu (NSR) isə hələlik real alternativ sayılmır. 2024-cü ildə dünya yük dövriyyəsinin yalnız 0,3 faizi NSR vasitəsilə daşınıb və bu yol üzrə istifadə olunan buzluq gəmilərin daşıma qabiliyyəti cənub marşrutları ilə müqayisədə təxminən beş dəfə azdır.

Proqnozlara görə, qısamüddətli perspektivdə, Çin və ABŞ arasında dəniz nəqliyyatı üzərində hibrid rəqabət artacaq. Bu, sığorta xərclərinin yüksəlməsi və bəzi ticarət marşrutlarının dəyişməsi ilə müşayiət oluna bilər.

Orta müddətli dövrdə, Asiya–Avropa quru nəqliyyat dəhlizlərinin imkanlarının genişləndirilməsi üçün Rusiya və Orta Asiya ölkələrinin investisiya və koordinasiya səyləri güclənəcək.

Uzunmüddətli perspektivdə, logistika texnologiyalarının inkişafı (məsələn, süni intellektlə idarə olunan nəqliyyat sistemləri, yaşıl enerji ilə çalışan gəmilər) qlobal dəniz ticarətinin daha çevik və davamlı olmasını təmin edə bilər.

Geosiyasi risklər baxımından, Malakka boğazı və Cənubi Çin dənizi kimi "boğaz nöqtələri" strateji gərginliyin əsas məkanı olaraq qalacaq və burada baş verəcək istənilən böhran qlobal qiymətlərə təsir göstərə bilər.

Nəticə etibarilə, beynəlxalq rəqabətin Asiyaya doğru yönəlməsi yalnız iqtisadi deyil, həm də geosiyasi, hüquqi və texnoloji ölçülərdə yeni reallıqların formalaşmasına gətirib çıxarır. Bu reallıqlara uyğunlaşma qlobal oyunçuların çevikliyini və strateji düşünmə qabiliyyətini müəyyən edəcək.

*Səbuhi MƏMMƏDOV*
*XQ*

# Şuşanın "Gəncə qapısı" meydanı Pənahəli xanın abidəsini gözləyir

**İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir. Azərbaycan dövləti bu ərazilərin həm infrastruktur baxımından yenidən qurulmasına, həm də tarixi-mədəni irsin bərpasına xüsusi önəm verir. Bu proses milli kimliyin və tarixi yaddaşın bərpası kimi strateji əhəmiyyət daşıyır.**






Bərpa işləri çərçivəsində Ağdamda görkəmli şairə Xurşidbanu Natəvanın qəbirüstü abidəsi ilkin görkəmi əsasında yenidən hazırlanaraq əvvəlki yerində ucaldılıb. Bununla yanaşı, Pənahəli xanın sarayı və İmarət Kompleksində də əhatəli təmir və bərpa işləri aparılıb.

Tarixi Şuşa şəhəri də öz əvvəlki simasına qovuşur. Burada Mehmandarovların malikanəsi, Saatlı məscidi, Yuxarı Gövhər Ağa məscidi, Xalça Muzeyi və Molla Pənah Vaqifin məqbərəsi artıq bərpa olunub. Bu obyektlər təkcə memarlıq abidələri deyil, həm də Azərbaycan xalqının mədəniyyətini, düşüncə tərzini, dünyagörüşünü və tarixi köklərini əks etdirən simvolik məkanlardır.

Onu da qeyd edək ki, Şuşanın abidələri yalnız Azərbaycan üçün deyil, bütün türk-islam dünyası üçün də böyük əhəmiyyət kəsb edir. Onların strukturu və bədii məzmunu ümumtürk mədəniyyətinin və İslam memarlığının klassik xüsusiyyətlərini özündə birləşdirir. Bu səbəbdən, onların bərpası həm milli, həm də beynəlxalq mədəni irsin qorunması baxımından mühüm hadisədir.

Şuşanın əsas simalarından biri, Qarabağ xanlığının banisi Pənahəli xanın abidəsinin ucaldılması məsələsi artıq yenidən gündəmdədir. Bu təşəbbüs ilk dəfə ötən əsrin 80-ci illərdə ümummilli lider Heydər Əliyev tərəfindən irəli sürüb və Azərbaycan SSR Nazirlər Sovetinin 7 aprel 1985-ci il tarixli qərarı ilə rəsmiləşdirilib. 1990-cı ilin dekabrında abidənin hazırlanması ilə bağlı rəsmi müqavilə imzalanıb. Bu barədə heykəltəraş Cümşüd İbrahimli bu layihə ilə bağlı xatirələrini belə bölüşür: "Mədəniyyət Nazirliyinin tövsiyəsi ilə yaratdığımız Pənahəli xanın at belində möhtəşəm heykəli komissiyada bəyənildi. Memar-akademik Mikayıl Hüseynova eskiz-kompozisiyanı göstərdim. Bəyəndi və tövsiyə etdi ki, təcili Şuşaya ezam olunum. Məqsəd abidənin yeri ilə bağlı şəhər rəhbərliyi və ziyalılarla məsləhətləşmək idi".

1991-ci ilin avqustunda Şuşa şəhər icra hakimiyyətinin başçısı Mikayıl Gözəlov və ziyalıların iştirakı ilə keçirilən iclasda abidənin ucaldılacağı yer müəyyən edildi. Qərara alındı ki, abidə "Gəncə qapısı"nın qarşısında, "Xan qızı" bağının qala divarları önündə yerləşdirilsin. Heykəldə at belində möhtəşəm bir obrazda, əlində qılınc yox, hakimiyyət rəmzi tutmuş məğrur bir Pənahəli xan təsvir edilmişdi.

Lakin 1992-ci ilin mayında Şuşanın ermənilər tərəfindən işğalı bu layihənin reallaşmasına mane oldu. Pənahəli xanın abidəsi şəhərin mərkəzində ucaldılmalı ikən, illərlə bu arzu reallaşmadı. Bu gün isə vəziyyət tamamilə dəyişib. Qarabağ azaddır. Dövlət başçısının rəhbərliyi ilə Şuşa sürətlə bərpa olunur, şəhərin baş planı əsasında abadlıq işləri davam etdirilir. Onun tarixi simasının qorunması əsas prinsip kimi götürülür.

Belə bir şəraitdə Pənahəli xanın abidəsinin Şuşada ucaldılması tarixi zərurətə çevrilib. Bu addım təkcə bir abidənin ucaldılması deyil, həm də Qarabağın kimə məxsus olduğunu, tarixin əsl sahiblərinin bu torpaqlara geri döndüyünü dünyaya bir daha bəyan etmək deməkdir. Bu baxımdan, Pənahəli xanın abidəsinin Şuşada ucaldılması həm rəmzi, həm də tarixi baxımdan xüsusi əhəmiyyətə malikdir. Bu, eyni zamanda, azərbaycanlıların öz tarixinə, irsinə və torpağına sahib çıxmaq əzmini ifadə edir. İnanırıq ki, bu layihə tezliklə reallaşacaq və Şuşanın qürur simvollarından birinə çevriləcək.

**P.S.** Pənahəli xanın abidəsinin müəlliflərindən vətənpərvər heykəltaraş Cümşüd İbrahimli 26 may 2022-ci ildə də redaksiyamızın qonağı olub. Qarabağ zəfəri onun arzusunun reallaşmasına, Şuşada Pənahəli xanın abidəsinin ucaldılmasına zəmin yaradıb. İnanırıq ki, tezliklə Qarabağın ilk xanının abidəsi "Gəncə qapısı" meydanında ucaldılacaq.

*PÜNHAN*
*XQ*

# Gəncədə nizamişünas alim yad edilib

**Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsinin təşkilatçılığı ilə tanınmış ədəbiyyatşünas alim, Əməkdar elm xadimi, "Şöhrət" ordenli professor Xəlil Yusiflinin (1935 – 2022) anadan olmasının 90 illiyinə həsr edilmiş "Azərbaycan və dünya nizamişünaslığının aktual problemləri" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.**



Konfransa Bakı, Gəncə, Naxçıvan, Şirvan, Quba, Qazax və Lənkəran şəhərlərindən, həmçinin Türkiyə, Özbəkistan, İran və Pakistandan alim və tədqiqatçılar qatılıblar. Əvvəlcə alimin ömür yolu və elmi-pedaqoji fəaliyyəti haqqında AMEA-nın Gəncə Bölməsi tərəfindən ərsəyə gətirilən "Nizamişünaslığımızın patriarxı. Xəlil Yusifli - 90" adlı qısametrajlı sənədli film nümayiş olunub.



Beynəlxalq konfransı giriş sözü ilə açan AMEA-nın Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev professor Xəlil Yusiflinin böyük mütəfəkkirimiz Nizami Gəncəvinin irsinin araşdırılmasında, o cümlədən onun yubileyləri ilə bağlı Gəncədə möhtəşəm işlərin həyata keçirilməsində, muzeyinin yaradılmasında, şairin ata-və anasının sərdabəsinin bərpa olunmasında, eləcə də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətində mühüm rol oynadığını da diqqətə çatdırıb.

Toplantı iştirakçılarının diqqətinə hazırda ezamiyyətdə olan AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin göndərdiyi çıxışın mətni çatdırılıb. Gəncə şəhər İcra Hakimiyyətinin şöbə müdiri Yadigar Bədəlov çıxışında Nizami yurdunda böyük şairin yaradıcılığına həsr olunan tədqiqatlara daim xüsusi fikir verildiyini, bu sahədə çalışmış alimlərimizin sırasında Xəlil Yusiflinin adının böyük elmi nüfuz sahibi kimi çəkildiyini qeyd edib.

Konfransda digər maraqlı çıxışlar olub. Görkəmli alimin övladı, Gəncə Dövlət Universitetinin dosenti Afaq Yusifli çıxışında foruma qatılan bütün iştirakçılara, dərin minnətdarlıq hisslərini ifadə edib.

Beynəlxalq konfrans "Nizami Gəncəvi və Türk Dünyasi", "Nizami Gəncəvi və dünya ədəbiyyatı", "Nizami Gəncəvi və incəsənət", "Müasir Azərbaycan nizamişünasliğında yeni çağırışlar", "Xəlil Yusiflinin nizamişünaslıq fəaliyyəti" və "Xəlil Yusifli və klassik Azərbaycan ədəbiyyatı" adlı 6 bölmədə davam etdirilib. Konfransa, bütövlükdə, 110 elmi məruzə təqdim edilib.

Konfransdan sonra iştirakçılar dahi şair və mütəfəkkir Nizami Gəncəvinin məqbərəsini ziyarət ediblər.

*Hamlet QASIMOV,*
*XQ-nin bölgə müxbiri*

# Xalça Muzeyində Opera forumu




**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının təşkilatçılığı ilə "Opera günləri" layihəsi çərçivəsində Azərbaycan Milli Xalça Muzeyində opera forumu keçirilib.**

Tədbiri giriş nitqi ilə sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirəzqızı açıb. O, çıxışında milli musiqi mədəniyyətinin tərkib hissəsi kimi opera janrının xüsusi əhəmiyyətini vurğulayıb: "1908-ci ildə "Leyli və Məcnun" əsərində "Qərbi Avropa opera sənətini bizim qədim musiqi ənənələri ilə birləşdirməyə nail olub və bununla da təkcə Azərbaycan deyil, bütün Şərq aləmi üçün əhəmiyyətli olan unikal janrın əsasını qoyub".

Forumda Azərbaycan Bəstəkarlar İttifaqının katibi, elmlər doktoru, dosent Leyla Zöhrabova məruzə ilə çıxış edib. "Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" əsərindən "Koroğlu" operasınadək təşəkkül yolu" mövzusunda olan məruzədə Azərbaycan opera sənətinin inkişafı təhlil olunub, bədii nailiyyətlər və konseptual dərinlik məsələləri önə çəkilib.

Forumun mövzusunu Azərbaycanın Əməkdar artisti, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru, Bakı Musiqi Akademiyasının dosenti Əyyub Quliyev "Opera sənətində dirijorluq ənənələri" mövzusunda məruzə ilə davam etdirib. Maestro vurğulayıb ki, dirijor bütün tamaşaya cavabdehdir: o, təkcə orkestrə rəhbərlik etmir, həm də səhnə məşqlərində, o cümlədən işıqlandırma və səhnələşdirmə ilə iş prosesində iştirak edir. Hətta bir səhv jest bütün istehsalın ritmini və ya emosional əhvalını poza bilər.

Sonra sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aytən Babayevanın "Firəngiz Əlizadənin "İntizar" operasında vətənpərvərliyin tərənnüm edilməsi" mövzusunda məruzəsi dinlənilib.

Forum sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirəzqızının çıxışı ilə yekunlaşıb. O, milli operanın formalaşma mərhələlərini və ölkənin mədəni kimliyinin formalaşmasında onun rolunu ətraflı əhatə edən "Azərbaycan opera sənətinin inkişafı" mövzusuna toxunub.

*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 119 (30813) 12 iyun 2025-ci il, cümə axşamı

İdman

# İslam Oyunlarına hazırlıq



**Dünən Gənclər və İdman Nazirliyində VI İslam Həmrəyliyi Oyunlarına hazırlıqla bağlı idman federasiyalarının nümayəndələri ilə görüş keçirilib.**

Qurumdan mətbuata verilən məlumata görə, gənclər və idman naziri Fərid Qayıbov hazırlıq prosesində federasiyalarla sıx əməkdaşlığın vacibliyini vurğulayıb.

Görüşdə əvvəlcə iştirakçılara yarış haqqında ümumi məlumat təqdim olunub. Sonra yarış cədvəli, idman növləri, oyunların keçiriləcəyi məkanlar, açılış və bağlanış mərasimləri barədə məlumat verilib, digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

# Basketbolçu qızlarımız Belarusda yarışacaqlar




**18 yaşadək qız basketbolçulardan ibarət Azərbaycan millisi Belarusun paytaxtı Minskə yola düşüb. Evren Alkayanın baş məşqçisi olduğu kollektiv burada təlim-məşq toplanışı keçəcək.**

Komanda toplanışda taktiki, texniki və fiziki çalışmalarla yanaşı, bir sıra yoxlama oyunları da keçirəcək. Hazırlıq prosesinə iyunun 19-da yekun vurulacaq.

Qeyd edək ki, Minsk təlim-məşq toplanışında əsas məqsəd iyulun 4-13-ü aralığında Litvanın Alitus və Vilnüs şəhərlərində baş tutacaq Avropa çempionatının B divizionunun oyunlarına hazırlaşmaqdır.

# “Qarabağ” 5 pillə geriləyib

**"Qarabağ" klubu Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyasının (IFFHS) açıqladığı dünya reytinqində beş pillə geriləyib. Azərbaycan çempionu 144,75 xalla 119-cu sıradadır.**



"Zirə" (95,75 xal) 233-cü mövqedən 232-yə qalxıb. "Sabah" komandası 50 pillə irəliləyib. Ölkə kubokunun qalibi 76 xalla 317-ci olub.

"Araz-Naxçıvan" isə 61,25 xalla 446-cıdır. Naxçıvan təmsilçisi əvvəlki reytinqdə 454-cü idi.

Qeyd edək ki, birinci pillədə İspaniya təmsilçisi "Real" (470 xal) qərarlaşıb. "Barselona" (434 xal) ikinci, İtaliyanın "İnter" klubu (419) üçüncüdür.

*M.HACIXANLI*
*XQ*

İdman tariximizdən

# 10 il əvvəl bu gün

## *Azərbaycan Avropa idmanının mərkəzinə çevrilmişdi*

**12 iyun 2015-ci il. Qitəmizin idman həyatında yeni mərhələ başlanır. Avropanın idman nəbzi Bakıda döyünür. Birdən-birə 50 ölkənin 6000-dən çox idmançısı paytaxtımızın qonağıdır. Axşam əzəmətli Olimpiya Stadionunda həyata yenicə vəsiqə almış 1-ci Avropa Oyunlarının mükəmməl təntənəli açılış mərasimi qəlbləri riqqətə gətirəcək. Bununla da gözəl Bakımız bütün dünyada bu möhtəşəm idman bayramının ilk paytaxtı, qüdrətli ölkəmiz isə Avropa Oyunlarının vətəni kimi tanınacaq.**

Həmin axşamdan başlayaraq düz 17 gün ərzində Azərbaycan tarixi bir hadisə yaşadı. Prezident İlham Əliyevin sərəncamı ilə yaradılan və Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Təşkilat Komitəsinin rekord müddətdə – cəmi 30 ay ərzində həyata keçirdiyi böyük işlər sayəsində “Bakı–2015” startları əvvəldən axıradək bütün qitənin diqqət mərkəzində oldu. Avropa Olimpiya Komitələri Assosiasiyası, ayrı-ayrı milli federasiyaların rəhbərlərinin, paytaxtımızın bütün qonaqlarının təşkilatçıların ünvanına söylədikləri xoş sözlər, minnətdarlıq ifadələri təsadüfi deyildi.







İyunun 28-də Olimpiya Stadionunda Oyunların təntənəli bağlanış mərasimində də şahidi olduğumuz kimi, hamı Azərbaycan xalqının qonaqpərvərliyindən və yüksək təşkilatçılıq bacarığından məmnun qalmışdı. Olimpiya Stadionunda, Heydər Əliyev İdman Sarayında, Tofiq Bəhramov adına Respublika Stadionunda, Milli Gimnastika Arenasında, Su İdmanı Mərkəzində, Kristal Zalda, Atıcılıq Mərkəzində və yarışların keçirildiyi digər idman bazalarında yaradılan ideal şərait idmançılara kəskin rəqabətdə ustalıqlarını tam nümayiş etdirmək, yüksək nəticələrə sevinmək imkanı vermişdi.

Xatırlayırsınızsa, yarış günlərində istər iştirakçılar, istərsə də nümayəndə heyətlərinin rəhbərləri, dünya şöhrətli məşhur mütəxəssislər idman bazalarımıza heyran qaldıqlarını gizlətmir, Oyunlara hazırlıq zamanı hər şeyin dəqiq nəzərə alındığını bildirirdilər.

“Bakı-2015”in beynəlxalq idman dairələrində adları böyük hörmətlə çəkilən, sayılıb-seçilən qonaqları Azərbaycan əhalisinin hazırlıqda çox fəal iştirak etdiyini, tarixi hadisəyə öz töhfəsini verdiyini, Bakıda Avropa Oyunlarının ümummilli layihə olduğunu, paytaxtımızın gənclərin unudulmaz bayramına sensasiyalı şəkildə hazırlaşdığını, Avropa Oyunlarının Olimpiya oyunları səviyyəsində keçirildiyini qeyd edirdilər.

Gələcəkdə Bakının yüksək təşkilatçılığının təkrar olunmayacağını söyləyənlər də az deyildi. Belə fikirlər hər bir Azərbaycan vətəndaşında qürur hissi yaradırdı.

Bir sözlə, təkcə özümüzün yox, özgələrin də yekdilliklə bildirdikləri kimi, hər şey mükəmməl və möhtəşəm şəkildə yerinə yetirildi, Avropa Oyunlarının ilk paytaxtı Bakı qitə idmanında yeni mərhələ olan dostluq və həmrəylik bayramının tarixində özünə layiqli yer etdi.

Azərbaycan idmançıları da öz növbələrində yarış meydanlarında yüksək təşkilatçılığa layiq nəticələr göstərib, ölkəmizin, həqiqətən, güclü idman dövləti olduğunu bir daha bütün dünyaya sübut etdilər. Onlar ümumi hesabda yalnız Rusiya komandasından geri qalıb 50 ölkənin ən yaxşı atletlərinin gərgin mübarizəsində 56 medal – 21 qızıl, 15 gümüş və 20 bürünc mükafatla yekun cədvəldə 2-ci pillədə qərar tutdular. Bu medallar “Köhnə qitə”nin idman həyatında yeni dövrə start vermiş “Bakı–2015”in yaraşığı olub, onu daha parlaq şəkildə bəzədi.

Dünya idmanının şahı sayılan Olimpiya oyunları kimi hər 4 ildən bir keçirilən Avropa Oyunları Bakı startlarından sonra qitəmizin idman ulduzlarını 2019-cu ildə Minskdə öz bayrağı altına topladı. Daha dörd il sonra, 2023-cü ildə Belarus Respublikasının paytaxtından estafeti Polşanın Krakov şəhəri qəbul etdi. Növbəti, 4-cü Avropa Oyunlarının təşkili isə İstanbula etibar olunub.

Təsəvvür etmək olar, 2027-ci ildə qardaş ölkədə də Avropanın ən yaxşı idmançılarının ali məclisi ən yüksək səviyyədə təşkil olunacaq, bütün yarış günlərində burada Bakı və Azərbaycan da tez-tez gur səslə xatırlanacaq.

Bu gün 10 yaşı tamam olan 1-ci Avropa Oyunları Azərbaycan dövləti və idmanının zəfər marşı, xalqımızın birlik və həmrəyliyinin təntənəsi idi. Qitənin idman hərəkatında bu tarixi hadisə ölkəmizin təkcə təşkilatçılıq bacarığında, idman nəticələrində deyil, siyasi, iqtisadi və mədəni həyatda da üstünlük və nailiyyətlərini tam nümayiş etdirdi. Qazanılan uğurlar və alqışlar Oyunlar hələ başlanmazdan da çox əvvəl onu boykot etməyə, zəfərimizə kölgə salmağa cəhd göstərən daxildəki və xaricdəki qara qüvvələrə layiqli cavab idi.

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

Sağlamlıq

# Kəhrəba şəfalı daşdır



**Təbii daşlardan biri olan kəhrəba dəbli aksessuar olmaqla yanaşı, həm də sağlamlıq üçün bir çox faydaları var. Kəhrəba milyonlarla il əvvəl ağaclardan sızan qatranların fosilləşməsi nəticəsində əmələ gələn təbii daşdır.**

Adətən, sarı, narıncı və qəhvəyi tonlarda olan kəhrəbadan boyunbağı, bilərzik, üzük kimi zinət əşyalarında tez-tez istifadə olunur. Həm estetik görünüşü, həm də sağlamlığa verdiyi faydaları ilə diqqət çəkən kəhrəba əsrlərdir insanlar tərəfindən sevilir. Bu təbii daşda olan kəhrəba turşusu bədənlə təmasda olduqda ağrıkəsici təsir göstərə bilər. Yeni diş çıxaran körpələrə adətən kəhrəba boyunbağı taxırlar.

Kəhrəba daşı enerji balanslaşdırıcı xüsusiyyətləri sayəsində zehni gərginliyi azaltmağa kömək edir. Stressdən azad olmaq və ruhi rahatlıq təmin etmək istəyənlər üçün təbii bir dəstək ola bilər. Alternativ təbabətdə kəhrəbanın immunitet sistemini dəstəklədiyi və orqanizmi xarici faktorlara qarşı daha davamlı etdiyi düşünülür.

Kəhrəbanın boğaz infeksiyaları, bronxit və astma kimi xəstəliklərə müsbət təsir etdiyi də iddia olunur. Bioenerji mütəxəssislərinin fikrincə, kəhrəba mənfi enerjini özünə çəkir və insana müsbət təsir edir. Bu baxımdan həm fiziki, həm də mənəvi enerjini tarazlamağa kömək edir.

*Z.HÜSEYNLİ*
*XQ*

# “Nimbus” – “Korona”dan daha yoluxucu virus



**Xarci ölkə mətbuatının verdiyi məlumata görə, Avropada yeni növ koronavirus sürətlə yayılır. Mütəxəssislərin fikrincə, çox yoluxucu omikronun yeni mutasiyası olan Nimbus, turizm mövsümünün başlaması ilə iyun–iyul aylarında güclü dalğaya səbəb ola bilər.**

Mütəxəssislər xəbərdarlıq edirlər ki, qripdən fərqli olaraq, koronavirus isti havalarda da yayıla bilər. Bildirilir ki, Almaniyada ştamm martın sonunda yaranıb və mayın əvvəlinə bütün koronavirus hadisələrinin 16,7 faizini təşkil edib. Bununla belə, insident nisbəti, ümumiyyətlə, aşağıdır və hələ ciddi narahatlıq doğurmur.

“The i Paper” nəşri yazır: “Nimbusun simptomları COVID üçün xarakterikdir: Ümumi yorğunluq, hərarətin yüksəlməsi, əzələ ağrıları və şiddətli boğaz ağrısı”. Uorvik Universitetinin virusoloqu Lourens Yanq nəşrə verdiyi açıqlamada izah edib ki, simptomların oxşarlığına baxmayaraq, bu yeni ştamm daha yoluxucudur və orqanizmin müdafiə qabiliyyətini digər variantlara nisbətən daha asanlıqla aşır.

Mütəxəssislər qeyd edirlər ki, Nimbus ilə yoluxmuş şəxslərin xəstəliyinin daha ağır fəsadlara malik olduğuna dair heç bir əlamət və sübut yoxdur. Amma yeni ştamma qarşı hazırkı peyvəndlərin təsirli olduğu təsdiqlənib.

*Zərifə BƏŞİRQIZI*
*XQ*

***✓ 2023-cü il iyulun 21-də Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən Əliyev Tural İlham oğlunun adına verilmiş şəhid ailəsi üzvünün 010312 nömrəli vəsiqəsi itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN

Şirvan şəhərindən İlqar Abbasov Hesablama Palatasının sədri Vüqar Gülməmmədova atası

**TAPDIQ GÜLMƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şirvan şəhərindən İlqar Abbasov Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədova qardaşı

**SAAT SAATOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# Əsasən, yağmursuz, arabir yağış ...

**Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Havanın temperaturu gecə 20-23° isti, gündüz 27-32° isti olacaq.

Atmosfer təzyiqi normadan aşağı 759 mm civə sütunu olacaq. Nisbi rütubət gecə 70-75 faiz, gündüz 45-50 faiz olacaq.

Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi dağlıq ərazilərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 18-23 isti, gündüz 31-36° isti, dağlarda gecə 8-13° isti, gündüz 20-25° isti olacaq.

*Q.QASIMOV*
*XQ*



BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

T E L E F O N L A R:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

Ü N V A N I M I Z:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3692
SİFARİŞ 1202
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00